**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti**

# Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Konsolidasiya edilmiş maliyyə hesabatları

*31 dekabr 2020-ci il*

# Mündəricat

**Müstəqil auditorun hesabatı**

**Konsolidasiya edilmiş maliyyə hesabatları**

Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat ....1
Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat ....3
Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat ....4
Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat ....5

**Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər**

1. Qrup və onun əməliyyatları ....6
2. Mühüm mühasibat uçotu prinsipləri ....6
3. Əhəmiyyətli uçot təxminləri və mülahizələri ....30
4. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi ....35
5. Seqmentlər üzrə məlumat ....41
6. Maliyyə risklərinin idarə edilməsi....48
7. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar ....58
8. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və qısamüddətli depozitlər ....62
9. Məhdudlaşdırılmış pul vəsaitləri....62
10. Ticarət və sair debitor borcları....63
11. Mal-material ehtiyatları ....63
12. Sair cari aktivlər və sair cari maliyyə aktivləri....64
13. Sair uzunmüddətli aktivlər ....64
14. Sair uzunmüddətli maliyyə aktivləri ....64
15. Əmlak, tikili və avadanlıqlar....66
16. Qeyri-maddi aktivlər, qudvildən başqa ....67
17. Birgə müəssisələrə investisiyalar ....68
18. Asılı müəssisələrə investisiyalar ....72
19. Ticarət və sair kreditor borcları və müqavilə öhdəlikləri ....75
20. Borc öhdəlikləri....76
21. Ödəniləcək vergilər....80
22. Aktivlərin ləğv olunması üzrə öhdəliklər....80
23. Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatlar....81
24. Təxirə salınmış gəlir ....82
25. Sair cari və uzunmüddətli öhdəliklər və satış opsionu üzrə öhdəliklər....82
26. Alış üzrə təxirə salınmış borc öhdəliyi....85
27. İcarələr ....85
28. Nizamnamə kapitalı, əlavə ödənilmiş kapital, bölüşdürülməmiş mənfəət və törəmə müəssisəsinin payının satışı üzrə gəlir ....87
29. Gəlirlərin kateqoriyalar üzrə təhlili ....88
30. Xərclərin kateqoriyalar üzrə təhlili ....88
31. Sair əməliyyat gəliri ....89
32. Effektiv faiz metodunu istifadə etməklə hesablanmış faiz gəlirləri və sair maliyyə gəlirləri ....89
33. Maliyyə xərcləri....89
34. Mənfəət vergisi ....89
35. HPBS-də payların satışına görə qəbul olunmuş avans ödənişləri....93
36. Əhəmiyyətli nağdsız investisiya və maliyyələşdirmə fəaliyyətləri ....93
37. Maliyyə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər....93
38. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri....95
39. Müəssisələrin birləşməsi, qeyri-nəzarət paylarının alınması, biznes təsisatı olmayan müəssisənin alınması, qudvil və qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər ....103
40. Mühüm qeyri-nəzarət payı olan törəmə müəssisələr ....109
41. Hesabat tarixindən sonra baş vermiş hadisələr ....113

Building a better
working world

Ernst & Young Holdings (CIS) B.V.
Port Baku Towers Business Centre
South Tower, 9th floor,
153, Neftchilar Ave.
Baku, AZ1010, Azerbaijan
Tel: +994 (12) 490 70 20
Fax: +994 (12) 490 70 17
www.ey.com/az

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Port Baku Tauers Biznes Mərkəzi
Cənub Qülləsi, 9-cu mərtəbə
Neftçilər prospekti, 153
Bakı, AZ1010, Azərbaycan
Tel: +994 (12) 490 70 20
Faks: +994 (12) 490 70 17

# Müstəqil auditorun hesabatı

Azərbaycan Respublikası Dövlət Neft
Şirkətinin Şurasına və Müşahidə Şurasına

***Rəy***

Biz Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2020-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici məlumatların icmalından ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2020-ci il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın "*Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti*" bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsi"nə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Qrupdan müstəqillik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Əsas audit məsələləri***

Əsas audit məsələləri peşəkar mühakiməmizə uyğun olaraq cari dövrün konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üçün daha önəmli olan məsələlərdir. Bu məsələlər ümumilikdə konsolidasiya edilmiş maliyyə hesabatlarının tərəfimizdən aparılan auditi kontekstində və həmin hesabatlar üzrə rəyimiz formalaşdığı zaman nəzərdən keçirilmişdir və biz bu məsələlərə dair ayrıca rəy bildirmirik. Aşağıda göstərilən məsələlərin hər birinin audit zamanı hansı şəkildə nəzərdən keçirildiyi həmin kontekstdə təsvir olunur.

A member firm of Ernst & Young Global Limited

Building a better working world

Biz hesabatımızın *"Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti"* bölməsində təsvir olunan öhdəliklərimizi, bu məsələlərlə bağlı da yerinə yetirmişik. Müvafiq olaraq, apardığımız audit konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərinin tərəfimizdən qiymətləndirilməsinə cavab verəcək prosedurların yerinə yetirilməsini əhatə edirdi. Audit prosedurlarımızın, o cümlədən aşağıdakı məsələlərin nəzərdən keçirilməsi üçün yerinə yetirilmiş prosedurların nəticələri konsolidasiya edilmiş maliyyə hesabatları üzrə audit rəyimizin əsasını təşkil edir.

| Əsas audit məsələləri | Bizim auditin əsas audit məsələsini ünvanlaması |
|---|---|
| ***Neft-qaz aktivlərinin dəyərsizləşməsi*** | |
| Biz bu məsələni Qrupun neft-qaz aktivlərinin əhəmiyyətinə, dəyərsizləşmə təhlilinin əsasını təşkil edən fərziyyələrin yüksək dərəcədə subyektiv olduğuna və rəhbərlik tərəfindən əhəmiyyətli mühakimələr işlədildiyinə görə audit üçün ən vacib məsələlərdən biri hesab etdik. Bundan əlavə, son bir neçə il ərzində neftin qiymətinin əhəmiyyətli dəyişkənliyi Qrupun əməliyyatlarına və pul vəsaitlərinin hərəkətinə təsir göstərir və potensial dəyərsizləşməyə təkan verir.<br><br>Rəhbərliyin istifadə etdiyi əsas fərziyyələr və dəyərsizləşmə testlərinin nəticələri konsolidasiya edilmiş maliyyə hesabatlarına 3, 15 və 30 saylı Qeydlərdə açıqlanmışdır. | Biz Qrupun aktivlərinin risk profilində dəyişikliyi və dəyərsizləşmə ilə bağlı mülahizələri qiymətləndirdik.<br><br>Biz daxili qiymətləndirmə ekspertlərimizi işə cəlb etdik və dəyərsizləşmə testlərinin aparılmasında istifadə edilən fərziyyələri, məsələn neftin proqnozlaşdırılan qiymətləri, ehtiyatların və resursların həcmi və diskont dərəcələri kimi məlumatları mövcud xarici mənbələrlə müqayisə etdik. Biz, dəyərsizləşmə modellərinin və həssaslıq təhlillərinin riyazi düzgünlüyünü yoxladıq. Biz hesablanmış dəyərsizləşmə zərəri məbləğlərini və uğursuz kəşfiyyat işləri ilə bağlı aktivlərin silinməsini Qrupun mühasibat uçotu qeydlərində əks etdirilmiş məbləğlərlə müqayisə etdik. Biz rəhbərliyin əhəmiyyətli mühakimələrini təhlil etdik. Biz konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlərdə dəyərsizləşmənin açıqlanmasını təhlil etdik. |
| ***Neft-qaz ehtiyatlarının qiymətləndirilməsi*** | |
| Neft-qaz ehtiyatlarının qiymətləndirilməsi dəyərsizləşmə testinə, köhnəlmə və istismardan çıxarma ehtiyatlarına əhəmiyyətli təsir göstərir. Qrup özünün neft-qaz ehtiyatlarının qiymətləndirilməsinə beynəlxalq səviyyədə tanınmış müstəqil ehtiyat mühəndislərini cəlb etmişdir. Neft-qaz ehtiyatlarının qiymətləndirilməsi ilə bağlı məlumat konsolidasiya edilmiş maliyyə hesabatları üzrə 3 saylı Qeyddə açıqlanmışdır. | Ehtiyat mühəndislərinin işlətdiyi fərziyyələri Qrupun təsdiq edilmiş büdcəsi və keçmiş dövrlər üzrə məlumatları ilə müqayisə etdik. Biz əsas fərziyyələri qiymətləndirdik və ehtiyat mühəndisləri tərəfindən təqdim edilmiş ehtiyatlara və resurslara dair təxminləri dəyərsizləşmə, köhnəlmə, tükənmə, amortizasiya və istismardan çıxarma ehtiyatlarının hesablanmasına daxil edilmiş məbləğlərlə müqayisə etdik. Biz konsolidasiya edilmiş maliyyə hesabatlarında qeydlərdə neft-qaz ehtiyatlarının açıqlanmasını təhlil etdik. |

***Qrupun 2020-ci il üzrə İllik hesabatına daxil edilən digər məlumatlar***

Digər məlumatlar konsolidasiya edilmiş maliyyə hesabatları və konsolidasiya edilmiş maliyyə hesabatları üzrə auditorun hesabatı istisna olmaqla, Qrupun 2020-ci il üzrə İllik hesabatına daxil edilmiş məlumatlardan ibarətdir. Rəhbərlik digər məlumatlar üçün məsuliyyət daşıyır. Qrupun 2020-ci il üzrə İllik hesabatının hazırkı auditor hesabatının tarixindən sonra bizə təqdim edilməsi gözlənilir.

Building a better
working world

Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə rəyimiz digər məlumatları əhatə etmir və biz həmin məlumatlara dair hər hansı formada əminlik ifadə edən heç bir nəticə təqdim etməyəcəyik. Konsolidasiya edilmiş maliyyə hesabatlarının tərəfimizdən aparılan auditi ilə əlaqədar bizim vəzifəmiz əldə edildiyi zaman yuxarıda göstərilən digər məlumatlarla tanış olmaq və digər məlumatla konsolidasiya edilmiş maliyyə hesabatları və ya audit zamanı əldə etdiyimiz məlumat arasında əhəmiyyətli uyğunsuzluğun olub-olmadığını və ya digər məlumatlarda əhəmiyyətli təhrifin mövcud olub-olmadığını yoxlamaqdır.

***Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə Şuranın və Müşahidə Şurasının məsuliyyəti***

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Qrupu ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətlə bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Müşahidə Şurası Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti***

Bizim məqsədimiz ümumiyyətlə konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürülməklə hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Qrupun daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.

- Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub – olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gələcəyimiz halda, biz auditor hesabatımızda konsolidasiya edilmiş maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Bizim nəticələr audit hesabatımızın tarixinədək əldə etdiyimiz audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və ya şəraitlər Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmununu, eləcə də konsolidasiya edilmiş maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.
- Konsolidasiya edilmiş maliyyə hesabatları haqqında rəy bildirmək üçün Qrupa daxil olan müəssisələrin maliyyə məlumatları və fəaliyyəti ilə bağlı kifayət qədər audit sübutlarını əldə edirik. Biz qrup auditinin yönləndirilməsi, nəzarət edilməsi və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz audit rəyinə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz, digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə müəyyən edilən hər hansı əhəmiyyətli çatışmazlıqları Müşahidə Şurasının nəzərinə çatdırmalıyıq.

Bundan əlavə biz Müşahidə Şurasına müstəqilliklə bağlı müvafiq etik tələblərə riayət etdiyimiz, eləcə də müstəqilliyimizə təsir göstərə bilməsi əsaslı olaraq ehtimal edilə bilən bütün münasibətlər və digər məsələlər və tələb olunan hallarda təhdidlərin aradan qaldırılması üçün görülən tədbirlər və tətbiq edilən ehtiyat tədbirləri haqqında xəbər verdiyimiz barədə bəyanat təqdim edirik.

Müşahidə Şurasına təqdim edilmiş məsələlərdən biz cari dövrün konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üçün daha önəmli olanları və beləliklə də əsas audit məsələlərini təşkil edən məsələləri müəyyən edirik. Tətbiq edilən qanun və ya normativ aktlar belə məsələlərin açıqlanmasına yol vermədiyi və ya, müəyyən məsələnin auditor hesabatına daxil edilərsə, belə daxil etmənin mənfi nəticələrinin həmin məlumatın açıqlanmasından əldə edilən faydanı üstələyəcəyini müəyyən etdiyimiz çox nadir hallar istisna olmaqla, biz bu məsələləri auditor hesabatında təsvir edirik.

Bu müstəqil auditorun hesabatının təqdim edilməsi ilə nəticələnən auditə görə məsuliyyətli partnyor Nərgiz Kərimovadır.

Ernst & Young Holdings (CIS) B.V.

30 iyun 2021-ci il

Azərbaycan, Bakı

## Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat

### 31 dekabr 2020-ci il tarixinə

*(Məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il (Yenidən təsnifləşdirilmiş*) | 31 dekabr 2018-ci il (Yenidən təsnifləşdirilmiş*) |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| **Cari aktivlər** | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 8 | 6,153 | 7,084 | 6,640 |
| Məhdudlaşdırılmış pul vəsaitləri | 9 | 166 | 187 | 276 |
| Depozitlər | 8 | 658 | 106 | 151 |
| Ticarət və sair debitor borcları | 10 | 7,477 | 8,919 | 8,395 |
| Mal-material ehtiyatları | 11 | 2,783 | 2,067 | 2,979 |
| Sair cari maliyyə aktivləri | 12 | 907 | 755 | 851 |
| Sair cari aktivlər | 12 | 111 | 49 | – |
| **Cəmi cari aktivlər** | | **18,255** | **19,167** | **19,292** |
| **Uzunmüddətli aktivlər** | | | | |
| Əmlak, tikili və avadanlıqlar | 15 | 31,344 | 31,548 | 28,259 |
| Qudvil | 39 | 313 | 317 | 301 |
| Qeyri-maddi aktivlər, qudvildən başqa | 16 | 937 | 1,055 | 714 |
| Birgə müəssisələrə investisiyalar | 17 | 4,942 | 5,398 | 5,301 |
| Asılı müəssisələrə investisiyalar | 18 | 4,173 | 4,208 | 4,359 |
| İstifadə hüququ olan aktivlər | 27 | 717 | 599 | – |
| Təxirə salınmış vergi aktivləri | 34 | 1,012 | 762 | 700 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 14 | 1,859 | 1,421 | 1,323 |
| Sair uzunmüddətli aktivlər | 13 | 603 | 900 | 1,887 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **45,900** | **46,208** | **42,844** |
| **Cəmi aktivlər** | | **64,155** | **65,375** | **62,136** |
| **Kapital** | | | | |
| Nizamnamə kapitalı | 28 | 4,696 | 4,323 | 4,147 |
| Əlavə ödənilmiş kapital | 28 | 5,302 | 5,576 | 5,299 |
| Bölüşdürülməmiş mənfəət | | 5,376 | 7,576 | 7,659 |
| Sair kapital ehtiyatları | | (133) | (83) | (51) |
| Şirkətin səhmləri üzrə satış opsionu | | (1,310) | (1,310) | (1,310) |
| Törəmə müəssisənin səhminin alışından/satışından gəlir | 28 | 1,045 | 1,127 | 1,168 |
| Məcmu məzənnə fərqləri | | 5,951 | 5,932 | 5,900 |
| **Qrupun səhmdarlarına aid olan kapital** | | **20,927** | **23,141** | **22,812** |
| Qeyri-nəzarət payları | | 996 | 1,187 | 1,132 |
| **Cəmi kapital** | | **21,923** | **24,328** | **23,944** |

* *Burada göstərilən bəzi məbləğlər 2019-cu və 2018-ci illər üzrə maliyyə hesabatlarına uyğun deyil və Qeyd 2-də ətraflı göstərilən yenidən təsnifləşdirmələri əks etdirir.*

*Əlavə olunmuş qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.*

**Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat (davamı)**

| | Qeyd | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il (Yenidən təsnifləşdirilmiş*) | 31 dekabr 2018-ci il (Yenidən təsnifləşdirilmiş*) |
|---|---|---|---|---|
| **Öhdəliklər** | | | | |
| **Cari öhdəliklər** | | | | |
| Ticarət və sair kreditor borcları | 19 | 9,461 | 10,841 | 11,222 |
| Qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | 20 | 5,910 | 4,687 | 4,586 |
| Vergilər üzrə kreditor borcu | 21 | 950 | 572 | 690 |
| Müqavilə öhdəlikləri | 19 | 535 | 525 | 305 |
| Alış üzrə təxirə salınmış borc öhdəliyi | 26 | 212 | 157 | 157 |
| Cari icarə öhdəlikləri | 27 | 165 | 123 | – |
| Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatlar | 23 | 97 | 54 | 41 |
| Təxirə salınmış gəlir | 24 | – | – | 11 |
| Satış opsionu üzrə öhdəliklər | 25B | 2,728 | 19 | – |
| Sair cari maliyyə öhdəlikləri | 25A | 575 | 305 | 355 |
| **Cəmi cari öhdəliklər** | | **20,633** | **17,283** | **17,367** |
| **Uzunmüddətli öhdəliklər** | | | | |
| Uzunmüddətli borc öhdəlikləri | 20 | 11,219 | 11,369 | 9,659 |
| HPBS-də payların satılması üçün alınmış avanslar | 35 | 4,308 | 4,313 | 4,313 |
| Satış opsionu üzrə öhdəliklər | 25B | – | 2,718 | 2,713 |
| Təxirə salınmış vergi öhdəlikləri | 34 | 1,634 | 1,627 | 1,412 |
| Aktivlərin ləğv olunması üzrə öhdəliklər | 22 | 1,955 | 1,545 | 1,079 |
| Uzunmüddətli icarə öhdəlikləri | 27 | 664 | 508 | – |
| Alış üzrə təxirə salınmış borc öhdəliyi | 26 | 574 | 570 | 529 |
| Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatlar | 23 | 30 | 46 | 67 |
| Təxirə salınmış gəlir | 24 | 75 | 70 | 58 |
| Sair uzunmüddətli öhdəliklər | 25A | 1,140 | 998 | 995 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **21,599** | **23,764** | **20,825** |
| **Cəmi öhdəliklər** | | **42,232** | **41,047** | **38,192** |
| **Cəmi öhdəliklər və kapital** | | **64,155** | **65,375** | **62,136** |

* *Burada göstərilən bəzi məbləğlər 2019-cu və 2018-ci illər üzrə maliyyə hesabatlarına uyğun deyil və Qeyd 2-də ətraflı göstərilən yenidən təsnifləşdirməni əks etdirir.*

30 iyun 2021-ci il tarixində Qrupun adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ • SOCAR •

Cənab Rövnəq Abdullayev
Prezident

Cənab Süleyman Qasımov
İqtisadi məsələlər üzrə Vitse-prezident

*Əlavə olunmuş qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.*

**Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat**

**31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə**

*(Məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| Gəlirlər | 29 | 49,607 | 83,752 |
| Satışların maya dəyəri | 30 | (44,552) | (77,960) |
| **Cəmi mənfəət** | | **5,055** | **5,792** |
| Paylaşdırma xərcləri | 30 | (1,367) | (1,240) |
| Ümumi və inzibati xərclər | 30 | (1,483) | (1,462) |
| Əmlak, tikili və avadanlıqların silinməsindən gəlir/(zərər) | | 3 | (10) |
| Sosial xərclər | | (171) | (118) |
| Kəşfiyyat və qiymətləndirmə xərcləri | 30 | (13) | (65) |
| Gözlənilən kredit zərəri (GKZ) | 30 | (119) | (49) |
| Sair əməliyyat xərcləri | 30 | (1,930) | (605) |
| Sair əməliyyat gəliri | 31 | 504 | 341 |
| **Əməliyyat fəaliyyətindən mənfəət** | | **479** | **2,584** |
| Effektiv faiz dərəcəsi metodundan istifadə etməklə hesablanmış faiz gəlirləri | 32 | 171 | 163 |
| Sair maliyyə gəlirləri | 32 | 25 | 47 |
| Maliyyə xərcləri | 33 | (1,187) | (1,160) |
| Məzənnə fərqi üzrə zərərlər, xalis | | (614) | (315) |
| Birgə müəssisələrin maliyyə nəticələrində pay | 17 | (411) | 14 |
| Asılı müəssisələrin maliyyə nəticələrində pay | 18 | 100 | (5) |
| **Mənfəət vergisindən əvvəlki (zərər)/mənfəət** | | **(1,437)** | **1,328** |
| Mənfəət vergisi xərci | 34 | (297) | (677) |
| **İl üzrə (zərər)/mənfəət** | | **(1,734)** | **651** |
| **Sair məcmu zərər** | | | |
| Sonrakı dövrlərdə mənfəət və ya zərərə yenidən təsnif edilməli olan sair məcmu zərər – məzənnə fərqləri və pul vəsaiti hərəkətinin hedcinqi üzrə zərər | | (199) | (90) |
| Sonrakı dövrlərdə mənfəət və ya zərərə yenidən təsnif edilməli olmayan sair məcmu zərər – sair məcmu gəlirdə əks olunan ədalətli dəyərlə hesablanmış investisiyalar üzrə zərər | 12 | (32) | (22) |
| **İl üzrə sair məcmu zərər** | | **(231)** | **(112)** |
| **İl üzrə cəmi məcmu (zərər)/gəlir** | | **(1,965)** | **539** |
| **(Zərər)/mənfəət aiddir:** | | | |
| Qrupun səhmdarlarına | | (1,749) | 602 |
| Qeyri-nəzarət paylarına | | 15 | 49 |
| | | **(1,734)** | **651** |
| **Cəmi məcmu (zərər)/gəlir aiddir:** | | | |
| Qrupun səhmdarlarına | | (1,780) | 599 |
| Qeyri-nəzarət paylarına | | (185) | (60) |
| | | **(1,965)** | **539** |

*Əlavə olunmuş qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.*

## Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat

## 31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə

*(Məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

| | | Qrupun səhmdarlarına aid olan kapital | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **Qeyd** | **Nizamnamə kapitalı** | **Əlavə ödənilmiş kapital** | **Müəssisənin səhmləri üzrə satış opsionu** | **Törəmə müəssisənin səhmlərinin satışından/ (alışından) gəlir/(zərər)** | **Sair kapital ehtiyatları** | **Bölüşdürül-məmiş mənfəət** | **Məzənnə fərqi** | **Cəmi** | **Qeyri-nəzarət payları** | **Cəmi kapital** |
| **1 yanvar 2019-cu il tarixinə qalıq** | | **4,147** | **5,299** | **(1,310)** | **1,168** | **(51)** | **7,659** | **5,900** | **22,812** | **1,132** | **23,944** |
| İl üzrə mənfəət | | – | – | – | – | – | 602 | – | **602** | 49 | **651** |
| Sair məcmu (zərər)/gəlir | | – | – | – | – | (32) | – | 29 | **(3)** | (109) | **(112)** |
| **2019-cu il üzrə cəmi məcmu (zərər)/gəlir** | | **–** | **–** | **–** | **–** | **(32)** | **602** | **29** | **599** | **(60)** | **539** |
| Törəmə müəssisədə qeyri-nəzarət payının satınalınması | | – | – | – | (41) | – | – | 3 | **(38)** | 38 | **–** |
| Əlavə ödənilmiş kapital | 28 | – | 453 | – | – | – | – | – | **453** | – | **453** |
| Nizamnamə kapitalında artım | 28 | 176 | (176) | – | – | – | – | – | **–** | – | **–** |
| Müəssisələrin birləşməsi üzrə əmələ gələn qeyri-nəzarət payları | | – | – | – | – | – | – | – | **–** | 80 | **80** |
| Qeyri-nəzarət payına malik səhmdar tərəfindən törəmə müəssisələrin nizamnamə kapitalına qoyuluş | | – | – | – | – | – | – | – | **–** | 8 | **8** |
| Dövlətə ayırmalar | 28 | – | – | – | – | – | (685) | – | **(685)** | – | **(685)** |
| Törəmə müəssisələr tərəfindən elan edilmiş dividendlər | | – | – | – | – | – | – | – | **–** | (11) | **(11)** |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | | **4,323** | **5,576** | **(1,310)** | **1,127** | **(83)** | **7,576** | **5,932** | **23,141** | **1,187** | **24,328** |
| İl üzrə (zərər)/mənfəət | | – | – | – | – | – | (1,749) | – | **(1,749)** | 15 | **(1,734)** |
| Sair məcmu (zərər)/ gəlir | | – | – | – | – | (50) | – | 19 | **(31)** | (200) | **(231)** |
| **2020-ci il üzrə cəmi məcmu (zərər)/gəlir** | | **–** | **–** | **–** | **–** | **(50)** | **(1,749)** | **19** | **(1,780)** | **(185)** | **(1,965)** |
| Qeyri-nəzarət payının satınalınması | 28 | – | – | – | (82) | – | – | – | **(82)** | 26 | **(56)** |
| Əlavə ödənilmiş kapital | 28 | – | 99 | – | – | – | – | – | **99** | – | **99** |
| Nizamnamə kapitalında artım | 28 | 373 | (373) | – | – | – | – | – | **–** | – | **–** |
| Dövlətə ayırmalar | 28 | – | – | – | – | – | (451) | – | **(451)** | – | **(451)** |
| Törəmə müəssisələr tərəfindən elan edilmiş dividendlər | | – | – | – | – | – | – | – | **–** | (32) | **(32)** |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | | **4,696** | **5,302** | **(1,310)** | **1,045** | **(133)** | **5,376** | **5,951** | **20,927** | **996** | **21,923** |

*Əlavə olunmuş qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.*

## Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat

## 31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə

*(Məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 2020 | 2019 (Yenidən təsnifləşdirilmiş*) |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| **Mənfəət vergisindən əvvəl (zərər)/mənfəət** | | **(1,437)** | **1,328** |
| *Düzəlişlər:* | | | |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi | 30 | 1,936 | 1,603 |
| İstifadə hüququ olan aktivlərin köhnəlməsi | 27 | 90 | 89 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 16 | 75 | 61 |
| Əsas vəsaitlərin dəyərsizləşməsi | 30 | 1,654 | 286 |
| GKZ | 30 | 119 | 49 |
| Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin silinməsindən (zərər)/gəlir | | (3) | 10 |
| Sair maliyyə gəliri | 32 | (25) | (47) |
| Effektiv faiz dərəcəsi metodundan istifadə etməklə hesablanmış faiz gəlirləri | 32 | (171) | (163) |
| Maliyyə xərcləri | 33 | 1,187 | 1,160 |
| Məzənnə fərqləri | | 1,024 | 208 |
| Asılı və birgə müəssisələrin maliyyə nəticələrində pay | 17, 18 | 311 | (9) |
| Əlverişli satınalma üzrə gəlir | 39 | – | (19) |
| MZƏD ilə kapital aləti üzrə ədalətli dəyər gəliri | 31 | (273) | (117) |
| Sair nağdsız əməliyyatlar | | 3 | 183 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **4,490** | **4,622** |
| Ticarət və sair debitor borclarında azalma/ (artım) | | 1,037 | (527) |
| Mal-material ehtiyatlarında azalma/(artım) | | (1,014) | 670 |
| Ticarət və sair kreditor borclarında və müqavilə öhdəliklərində azalma | | (1,310) | (414) |
| Ehtiyatlarda dəyişiklik | | (28) | 56 |
| Sair aktiv və öhdəliklərdə dəyişiklik | | 613 | 230 |
| **Əməliyyatlardan daxil olan pul vəsaitləri** | | **3,788** | **4,637** |
| Ödənilmiş mənfəət vergisi | | (650) | (598) |
| Ödənilmiş faizlər | | (912) | (973) |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | | **2,226** | **3,066** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Törəmə müəssisələrin satınalınması (əldə edilmiş pul vəsaitləri çıxılmaqla) | | – | (215) |
| Asılı və birgə müəssisələrə əlavə qoyuluş | | (22) | (103) |
| Əmlak, tikili və avadanlıqların alınması | | (2,918) | (3,946) |
| Qeyri-maddi aktivlərin alınması | | (48) | (44) |
| Depozitlərin yerləşdirilməsi | | (690) | (138) |
| Depozitlərin çıxarılması | | 43 | 109 |
| Alınmış faiz | | 96 | 107 |
| Asılı və birgə müəssisələrdən alınmış dividendlər | | 175 | 148 |
| Törəmə müəssisələrin satılmasından daxilolmalar | | 16 | – |
| Asılı və birgə müəssisələrin satılmasından daxilolmalar | | 4 | 9 |
| Əmlak, tikili və avadanlıqların satışından daxilolmalar | | 44 | 36 |
| Sair əsas vəsaitlərin satışlarından daxilolmalar | | 7 | – |
| Əlaqəli tərəflərə verilmiş kredit | | (65) | (29) |
| Maliyyə alətlərinin satışı | | 37 | (33) |
| Maliyyə alətlərinin satınalınması | | (8) | – |
| **İnvestisiya fəaliyyətində istifadə edilmiş xalis pul vəsaitlərinin hərəkəti** | | **(3,329)** | **(4,099)** |
| **Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc öhdəliklərindən daxilolmalar | | 7,168 | 7,270 |
| Borc öhdəliklərinin geri qaytarılması | | (6,048) | (5,394) |
| Qeyri-nəzarət payına malik səhmdar tərəfindən törəmə müəssisələrə qoyuluş | | – | 8 |
| İcarə öhdəliklərinin ödənilməsi | 27 | (80) | (59) |
| Nizamnamə kapitalında və əlavə ödənilmiş kapitalda artım | 28 | 52 | 453 |
| Dövlətə ayırmalar | 28 | (442) | (685) |
| **Maliyyələşdirmə fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | | **650** | **1,593** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzrə xalis məzənnə fərqi | | (447) | (120) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzrə GKZ | 8 | (31) | 4 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım** | | **(931)** | **444** |
| İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 8 | 7,084 | 6,640 |
| **İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 8 | **6,153** | **7,084** |

* *Burada göstərilən bəzi məbləğlər 2019-cu il üzrə maliyyə hesabatlarına uyğun deyil və Qeyd 2-də ətraflı göstərilən yenidən təsnifləşdirmələri əks etdirir.*

*Əlavə olunmuş qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.*

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 1. Qrup və onun əməliyyatları

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("SOCAR") 13 sentyabr 1992-ci il tarixli Prezident Fərmanı ilə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yaradılmış və Azərbaycan Respublikasında fəaliyyət göstərir. SOCAR hasilat, nəql və emal əməliyyatları ilə məşğul olur. SOCAR-ın əsas fəaliyyəti neft, qaz və qaz kondensatlarının hasilatı, emalı və nəqli, eləcə də neftin, qazın və neft və qaz məhsullarının satışından ibarətdir. SOCAR 100 faiz Azərbaycan Respublikasına ("Dövlət") məxsusdur.

SOCAR-ın hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1029, Heydər Əliyev prospekti 121.

**Törəmə müəssisələr haqqında məlumat**

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına aşağıdakı mühüm törəmə müəssisələr daxildir:

| | | Təsis edildiyi | Kapitalda pay, % | |
|---|---|---|---|---|
| **Adı** | **Əsas fəaliyyəti** | **ölkə** | **2020** | **2019** |
| SOCAR Turkey Enerji A.Ş. | Emal | Türkiyə | 100% | 100% |
| Azərbaycan (AÇG) Ltd | Neft istehsalı | Kayman adaları | 100% | 100% |
| Azərbaycan (Şah Dəniz) Ltd | Qaz istehsalı | Kayman adaları | 100% | 100% |
| Caspian Drilling Company (CDC) | Qazma əməliyyatları | Azərbaycan | 92% | 92% |
| SOCAR Energy Georgia MMC | Satış və paylaşdırma | Gürcüstan | 91.8% | 75.5% |
| SOCAR Overseas MMC | Satış və paylaşdırma | BƏƏ | 100% | 100% |
| SOCAR Trading Holding | Satış və paylaşdırma | Malta | 100% | 100% |
| Azərbaycan (BTC) Ltd | Satış və paylaşdırma | Kayman adaları | 100% | 100% |
| Cooperative Menkent U.A. | Satış və paylaşdırma | Niderland Krallığı | 100% | 100% |
| SOCAR Energy Holdings AG | Satış və paylaşdırma | İsveçrə | 100% | 100% |
| SOCAR Energy Ukraine | Satış və paylaşdırma | Ukrayna | 100% | 100% |
| Azərbaycan (SCP) Ltd | Satış və paylaşdırma | Kayman adaları | 100% | 100% |
| SOCAR Petroleum QSC | Satış və paylaşdırma | Azərbaycan | 100% | 100% |
| Bakı Gəmiqayırma Zavodu MMC | Tikinti | Azərbaycan | 87% | 87% |
| SOCAR Polimer İnvestments MMC | Kimya məhsulları istehsalı | Azərbaycan | 57% | 57% |
| BOS Shelf MMC | Tikinti | Azərbaycan | 90% | 90% |
| Gacrux Middle East Investment Holding LTD | Tikinti | BƏƏ | 100% | 100% |

Qrup 1 oktyabr 2020-ci ildə SOCAR Energy Holdings AG-nin törəməsi olan SOCAR LPG-ni 16 AZN ödəniş müqabilində satmışdır. Satış tarixində SOCAR LPG-nin 16 AZN məbləğində mənfi xalis aktivləri olmuşdur.

## 2. Mühüm mühasibat uçotu prinsipləri

### 2.1 Maliyyə hesabatlarının hazırlanmasının əsasları

SOCAR-ın, onun törəmə, asılı və birgə müəssisələrinin və birgə əməliyyatlarının (birlikdə "Qrup" adlandırılır) konsolidasiya edilmiş hazırkı maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi ("MUBSK") tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmışdır. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən mühüm mühasibat uçotu prinsipləri aşağıda göstərilir. Bu mühasibat uçotu prinsipləri təqdim edilən bütün dövrlərə ardıcıl olaraq tətbiq edilmişdir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.2 Konsolidasiya üçün əsas

Konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun və törəmə müəssisələrin 31 dekabr 2020-ci il tarixinə olan maliyyə hesabatlarından təşkil olunmuşdur.

Törəmə müəssisələr (xüsusi məqsədli müəssisələr daxil olmaqla) Qrupun nəzarət etmək imkanı olduğu bütün müəssisələrdir. Nəzarət bu halda yaranır ki, Qrup investisiya obyektində iştirakı ilə bağlı zərərə məruz qalsın və ya gəlir əldə etmək hüququna malik olsun və investisiya obyekti üzrə nəzarət hüququ vasitəsilə həmin gəlirlərə təsir etmək imkanına malik olsun. Xüsusilə, Qrup investisiya obyektinə yalnız və yalnız o halda nəzarət edir ki, Qrup:

- İnvestisiya obyekti üzrə nəzarət hüququna malik olsun (yəni mövcud olan səsvermə hüquqları hazırda investisiya obyektinin müvafiq fəaliyyətini idarə etmək imkanını versin);
- İnvestisiya obyektində iştirakla bağlı zərər və ya gəlirlər əldə etmək hüququna malik olsun; və
- Gəlirlərə təsir göstərmək üçün investisiya obyekti üzrə nəzarəti istifadə etmək bacarığına malik olsun.

Qrup səs çoxluğundan az paya və ya investisiya obyektində analoji hüquqlara sahib olanda Qrup investisiya obyekti üzrə nəzarət hüququnun olub-olmadığını qiymətləndirərkən bütün müvafiq fakt və şəraitləri, o cümlədən aşağıdakıları, nəzərdən keçirir:

- İnvestisiya obyektində sair səsvermə hüquqlarının sahibləri ilə müqavilə razılaşması (razılaşmaları);
- Sair müqavilə razılaşmalarından irəli gələn hüquqlar;
- Qrupun səsvermə hüquqları və potensial səsvermə hüquqları.

Qrup investisiya obyekti üzrə nəzarət hüququnun olub-olmadığını o halda yenidən qiymətləndirir ki, fakt və şəraitlər üç nəzarət elementindən bir və ya bir neçəsində dəyişiklik əlamətinin olduğunu göstərsin. Törəmə müəssisənin konsolidasiyası Qrup törəmə müəssisə üzərində nəzarət əldə edəndə başlayır və Qrup törəmə müəssisə üzrə nəzarəti itirəndə başa çatır. İl ərzində əldə edilmiş və ya silinmiş törəmə müəssisələrin aktivləri, öhdəlikləri, gəlir və xərcləri Qrupun onun üzərində nəzarəti əldə etdiyi tarixdən başlayaraq və həmin nəzarətin başa çatdığı tarixə qədər konsolidasiya edilmiş maliyyə hesabatlarına daxil edilir.

Mənfəət və ya zərər və sair məcmu gəlirin ("SMG") hər bir komponenti, qeyri-nəzarət iştirak paylarının defisit qalığı ilə nəticələnsə belə, Qrupun kapital sahiblərinə və qeyri-nəzarət iştirak paylarına aid edilir. Lazım olduqda, törəmə müəssisələrin uçot siyasətlərinin Qrupun uçot siyasətinə uyğun olması üçün törəmə müəssisələrin maliyyə hesabatlarına düzəlişlər edilir. Şirkət daxili əməliyyatlar, balanslar və Qrup üzvləri arasında aparılan əməliyyatlar üzrə realizasiya olunmamış gəlirlər konsolidasiya edilmiş maliyyə hesabatlarında nəzərə alınmır. Həmçinin, realizasiya olunmamış zərərlər konsolidasiya edilmiş maliyyə hesabatlarından çıxarılır, lakin, köçürülmüş aktivin dəyərsizləşmə göstəricisi hesab edilir. Qrupun qəbul etdiyi siyasətlərə uyğunluğunu təmin etmək üçün törəmə müəssisələrin uçot siyasəti dəyişdirilmişdir.

Törəmə müəssisənin mülkiyyət payında nəzarətin itirilməsi ilə nəticələnməyən dəyişiklik kapital əməliyyatı kimi uçota alınır.

Qrup törəmə müəssisə üzərində nəzarət hüququnu itirirsə, bu zaman o, əlaqəli aktivlərin (o cümlədən qudvilin), öhdəliklərin, qeyri-nəzarət iştirak payının və kapitalın digər komponentlərinin tanınmasını dayandırır; nəticədə əldə edilən gəlir və ya zərər mənfəət və ya zərərdə tanınır. Saxlanılan investisiyalar ədalətli dəyəri ilə tanınır. Törəmə müəssisənin cəmi məcmu gəlirləri mənfi qalıq yaratdığı halda belə qeyri-nəzarət paylarına aid edilir.

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı

#### Müəssisələrin birləşməsi

Müəssisələrin birləşməsi alış metodu üzrə uçota alınır. Alışın dəyəri alış tarixindəki ədalətli dəyərlə ölçülən köçürülmüş ödəniş məbləği və satın alınan müəssisədə qeyri-nəzarət payları məbləğinin məcmusu şəklində ölçülür. Hər bir müəssisə birləşməsi üçün alıcı müəssisə satın alınan müəssisədə qeyri-nəzarət paylarını satın alınan müəssisənin xalis müəyyən edilə bilən aktivlərinin proporsional payı ilə ölçür. Çəkilən alış məsrəfləri xərclərə silinir və inzibati xərclərə aid edilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

Qrup hər hansı müəssisəni satın aldıqda, o, müvafiq təsnifləşdirmə üçün və müqavilə şərtləri, iqtisadi şərait və alış tarixində qüvvədə olan şərtlərə əsasən təyin olunma üçün nəzərdə tutulmuş maliyyə aktiv və passivlərini qiymətləndirir. Bura əsas müqavilədə əlaqədar törəmə alətlərin satın alınan müəssisə tərəfindən ayrılması da aid edilir. Müəssisələrin mərhələli birləşməsi zamanı alıcı müəssisənin satın alınan müəssisədə hər əvvəlki mərhələdə sahib olduğu pay, alış tarixindəki ədalətli dəyərlə yenidən qiymətləndirilir və yaranan gəlir və ya zərər il üzrə mənfəət və ya zərər kimi əks etdirilir.

Alıcı müəssisə tərəfindən köçürülməli olan hər hansı şərti ödəniş alış tarixində ədalətli dəyərlə tanınır. Kapital kimi təsnifləşdirilmiş şərti ödəniş yenidən ölçülmür və sonrakı ödəniş kapital daxilində uçota alınır. Maliyyə aləti olan və 9 saylı *"Maliyyə alətləri"* adlı MHBS ilə əhatə olunan aktiv və ya öhdəlik kimi təsnifləşdirilmiş şərti ödəniş ədalətli dəyərdə dəyişikliklər 9 saylı MHBS-yə uyğun olaraq mənfəət və ya zərər haqqında hesabatda tanınmaqla ədalətli dəyərlə ölçülür. 9 saylı MHBS ilə əhatə olunmayan sair şərti ödəniş hər hesabat tarixində ədalətli dəyərdə dəyişikliklər mənfəət və ya zərərdə tanınmaqla ədalətli dəyərlə ölçülür.

*Qeyri-nəzarət payları olan səhmdarlarla əməliyyatlar*

Nəzarətin itirilməsi ilə nəticələnmədiyi halda, Qrupun törəmə müəssisədə olan iştirak payındakı dəyişiklik kapital əməliyyatları kimi (yəni pay sahibləri ilə olan əməliyyatlar kimi) uçota alınmalıdır. Bu cür hallarda nəzarət və qeyri-nəzarət paylarının balans dəyərlərinə, törəmə müəssisədə uyğun iştirak payının dəyişməsini əks etdirəcək şəkildə düzəliş edilməlidir.

Qeyri-nəzarət payına verilən düzəliş məbləği və ödənilən məbləğ arasındakı fərq birbaşa kapitalda uçota alınmalıdır və Qrupun pay sahiblərinə aid edilməlidir.

*Birgə nəzarət altında olan müəssisələrlə birləşmələr*

Qrup birgə nəzarət altında olan müəssisələrin birləşdirilməsini mühasibat uçotunun alış metodu ilə əks etdirir.

**Asılı və birgə müəssisələrə investisiyalar**

Asılı müəssisə Qrupun əhəmiyyətli dərəcədə təsirinin olduğu müəssisədir. Əhəmiyyətli dərəcədə təsir investisiya obyektinin maliyyə siyasəti və əməliyyat prinsiplərinə dair qərarların qəbul edilməsində iştirak hüququ deməkdir, lakin həmin prinsiplər üzrə nəzarət və ya birgə nəzarəti nəzərdə tutmur.

Birgə müəssisə ("BM") birgə nəzarəti həyata keçirən tərəflərin birgə müəssisənin xalis aktivləri üzrə hüquq əldə etdikləri müqavilə razılaşmasıdır. Müqavilə ilə razılaşdırılmış birgə nəzarət yalnız müvafiq fəaliyyətlə əlaqədar qərarların qəbul edilməsi üçün birgə nəzarəti həyata keçirən tərəflərin birgə razılığı tələb edildikdə mövcud olur.

Əhəmiyyətli dərəcədə təsir və ya birgə nəzarətin olub-olmadığı müəyyən edilərkən istifadə edilən amillər törəmə müəssisələr üzrə nəzarətin müəyyən edilməsində istifadə edilən amillər ilə oxşardır.

Qrupun asılı və birgə müəssisəyə investisiyaları pay iştirakı üzrə kapital metoduna əsasən uçota alınır. Pay iştirakı üzrə kapital metoduna əsasən asılı və ya birgə müəssisədə investisiya ilkin olaraq maya dəyəri ilə tanınır. Alış tarixindən sonra asılı və ya birgə müəssisənin xalis aktivlərində Qrupun payındakı dəyişiklikləri tanımaq üçün investisiyanın balans dəyərində düzəlişlər edilir. Asılı və ya birgə müəssisəyə aid olan qudvil investisiyanın balans dəyərinə daxil edilir, amortizasiyaya silinmir və fərdi şəkildə dəyərsizləşmə baxımından yoxlanılmır.

Mənfəət və ya zərər haqqında hesabat Qrupun asılı və ya birgə müəssisənin əməliyyatlarında payını əks etdirir. Həmin investisiya obyektlərinin SMG-də hər hansı dəyişiklik Qrupun sair məcmu gəlirinin tərkibində təqdim edilir. Asılı və ya birgə müəssisənin kapitalında birbaşa tanınmış payın satışından hər hansı gəlir və ya zərər Qrupun asılı və ya birgə müəssisənin mənfəət və ya zərərindəki payı daxilində gəlir və ya zərər kimi əks etdirilir. Qrup ilə asılı və ya birgə müəssisə arasında əməliyyatlardan irəli gələn realizasiya olunmamış gəlirlər və zərərlər asılı və ya birgə müəssisədəki payın nisbətində silinir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

Asılı və ya birgə müəssisənin mənfəət və ya zərərində Qrupun məcmu payı mənfəət və ya zərər haqqında hesabatın özündə əməliyyat mənfəətindən kənar təqdim edilir və asılı və ya birgə müəssisənin vergidən sonra mənfəət və ya zərərini və törəmə müəssisələrdə qeyri-nəzarət paylarını əks etdirir.

Asılı və ya birgə müəssisənin maliyyə hesabatları Qrupda olduğu kimi eyni hesabat dövrü üçün hazırlanır. Lazım olduqda, istifadə edilən uçot siyasətinin Qrupun qəbul etdiyi uçot siyasətinə uyğun olması üçün həmin maliyyə hesabatlarına düzəlişlər edilir.

Pay iştirakı üzrə kapital metodu tətbiq edildikdən sonra Qrup asılı və ya birgə müəssisəyə investisiya üzrə dəyərsizləşmə zərəri tanınmalı olub-olmadığını müəyyən edir. Hər hesabat tarixində Qrup asılı və ya birgə müəssisəyə investisiyanın dəyərsizləşməsinə dair obyektiv sübutun olub-olmadığını müəyyən edir. Belə sübut olarsa, Qrup dəyərsizləşmənin məbləğini asılı və ya birgə müəssisənin bərpa oluna bilən dəyəri və onun balans dəyəri arasındakı fərq kimi hesablayır, sonra isə zərəri mənfəət və ya zərər haqqında hesabatda “Asılı və ya birgə müəssisənin mənfəətində pay”ın tərkibində zərər kimi tanıyır.

Asılı və ya birgə müəssisə üzrə müvafiq olaraq əhəmiyyətli dərəcədə olan təsir və birgə nəzarət itirildikdən sonra Qrup qalan investisiyanı ədalətli dəyərlə ölçür və tanıyır. Əhəmiyyətli dərəcədə təsir və birgə nəzarət itirildikdən sonra asılı və ya birgə müəssisənin balans dəyəri ilə qalan investisiyanın ədalətli dəyəri və satışdan daxilolmalar arasında hər hansı fərq mənfəət və ya zərərdə tanınır.

**Hasilatın Pay Bölgüsü haqqında Sazişlərdə (“HPBS-lər”) investisiyalar**

Qrupun müəyyən kəşfiyyat və hasilat seqmenti üzrə fəaliyyət növləri HPBS-lər ilə tənzimlənir. HPBS-lərin şərtlərinə əsasən, Qrup layihədə öz payına uyğun olaraq aktivlərə sahibdir və öz payına müvafiq öhdəliklərə görə məsuliyyət daşıyır. Müvafiq olaraq, Qrup HPBS-lərə qoyulan investisiyalarını müvafiq aktivlərin, öhdəliklərin, çəkilmiş xərclərin və qazanılmış gəlirin hissəsini tanımaq yolu ilə bölüşdürülməyən pay metodundan istifadə etməklə uçota alır.

HPBS, kommersiya neft və qaz şirkətinin təcrübəsindən istifadə etməklə mineral ehtiyatların hasilatı üsuludur. Yekun hasilatın miqdarından asılı olmayaraq, mineral ehtiyatlar üzrə mülkiyyət hüququ və əksər hallarda ehtiyatların hasilatı üçün yaradılmış bütün əsas vəsaitlər üzrə qanuni hüquqlar Dövlətə məxsusdur. Dövlət, məhsullardan razılaşdırılmış qiymət düsturuna əsasən məhsul və ya nağd pul şəklində təqdim edilə bilən müəyyən pay götürür. Müqavilə tərəfləri ancaq müəyyən xərcləri və razılaşdırılmış mənfəət faizini əldə etmək hüququna malik ola bilər. Onlar həmçinin müəyyən vaxt müddətindən sonra ehtiyatları hasil etmək hüququ qazana bilər. Əməliyyat şirkəti HPBS-i idarə etmək üçün bir və ya bir neçə podratçı tərəflərin yaratdığı hüquqi şəxsdir.

Müxtəlif HPBS-lərdə podratçı tərəf olan Qrup, HPBS-ləri müqavilənin şərtlərinə əsasən qiymətləndirir və uçota alır. O, HPBS-ə əsasən hasil edilmiş neftdə və qazda ancaq öz payını gəlir kimi uçota alır. Dövlətin adından hasil edilərək satılan neft və qaz üzrə yaranan gəlir və ya çəkilmiş xərclər Qrupun hesabatlarında qeydə alınmır. Qrup, Dövlətin agenti kimi çıxış edərək nefti və qazı hasil edir və çatdırır, yaxud nefti və qazı sataraq gəliri Dövlətin hesabına köçürür.

Mühasibat Uçotunun Beynəlxalq Standartı (“MUBS”) 38 və MUBS 16 əsasında, müvafiq olaraq, qeyri-maddi aktivlər və ya əsas vəsaitlər kimi uçota alınmalı olan xərclər müəssisənin bir çox iqtisadi risklərə məruz qaldığı və aktivlər üzrə ehtimal edilən gələcək iqtisadi mənfəət əldə etdiyi təqdirdə uçota alınır. Alış, işlənmə və kəşfiyyat xərcləri konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında göstərilən uçot qaydalarına uyğun olaraq qeydə alınır.

Köhnəlmə, tükənmə və ya amortizasiyaya məruz qalmış aktivlər HPBS-in qüvvədə olduğu dövrdə və ya müvafiq aktivlərin gözlənilən faydalı istifadə müddəti ərzində (bu müddətlərdən hansı daha qısa olarsa) hazırkı uçot siyasətində nəzərdə tutulan müvafiq tükənmə və ya köhnəlmə metoduna əsasən xərcə silinir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

**Cari/uzunmüddətli qruplar üzrə təsnifat**

Qrup konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda aktivləri və öhdəlikləri cari/uzunmüddətli qruplar üzrə təsnif edərək təqdim edir. Aktiv aşağıdakı hallarda cari hesab olunur:

- Adi əməliyyat siklində reallaşdırılması gözləniləndə və ya satış və ya istifadə üçün nəzərdə tutulanda;
- Əsas etibarı ilə satış üçün saxlanılanda;
- Hesabat dövründən sonra 12 ay ərzində reallaşdırılması gözlənilən; və ya
- Hesabat dövründən sonra azı 12 ay ərzində mübadilə edilməsi və ya öhdəliyin ödənilməsi üçün istifadə edilməsi məhdudlaşdırılmadığı hallarda, pul vəsaitləri və ya pul vəsaitlərinin ekvivalenti olanda.

Bütün digər aktivlər uzunmüddətli kimi təsnif olunur.

Öhdəlik aşağıdakı hallarda cari hesab olunur:

- Adi əməliyyat siklində ödənilməsi gözləniləndə;
- Əsas etibarı ilə satış üçün saxlanılanda;
- Hesabat dövründən sonra 12 ay ərzində ödənilməli olanda; və ya
- Öhdəliyin ödənilməsini hesabat dövründən sonra azı 12 ay müddətinə təxirə salmaq üçün qeyd-şərtsiz hüquq olmayanda.

Əks tərəfin seçiminə görə kapital alətlərinin buraxılması ilə öhdəliyin ödənilməsi ilə nəticələnə bilən öhdəliyin şərtləri onun təsnifləşdirilməsinə təsir göstərmir. Qrup sair öhdəlikləri uzunmüddətli kimi təsnifləşdirir. Təxirə salınmış vergi aktivləri və öhdəlikləri uzunmüddətli aktivlər və öhdəliklər kimi təsnifləşdirilir.

**Xarici valyuta çevrilmələri**

Konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarındakı məbləğlər, xüsusi qeyd edilmiş hallar istisna olmaqla, milyon Azərbaycan Manatı ilə ("AZN") əks olunmuşdur.

Qrupun konsolidasiya edilmiş müəssisələrinin funksional valyutaları onların fəaliyyət göstərdiyi əsas iqtisadi mühitlərin valyutaları hesab edilir. SOCAR və onun tabeliyində olan 24 struktur bölməsinin funksional valyutası və Qrupun hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan AZN-dir. Buna baxmayaraq, Qrupun törəmə, asılı və birgə müəssisələrində investisiyalarının böyük hissəsi üzrə debitor borcları, gəlirlər, xərclər və borc öhdəlikləri ABŞ dolları, İsveçrə frankı ("CHF"), Gürcüstan larisi ("GEL"), Ukrayna qrivnası ("UAH"), və Türk lirəsi ("TL") ilə qiymətləndirildiyinə, çəkildiyinə, ödənildiyinə və ya ölçüldüyünə görə həmin müəssisələrdə həmin valyutalar funksional valyuta hesab edilir.

Xarici valyuta ilə aparılan əməliyyatlar əvvəlcə əməliyyat tarixinə qüvvədə olan müvafiq valyuta məzənnələrini tətbiq etməklə, Qrupun müvafiq müəssisələrinin funksional valyutası ilə qeydə alınır.

Qrupun müvafiq müəssisəsinin funksional valyutası olmayan xarici valyuta ilə ifadə edilmiş monetar aktiv və öhdəliklər, maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan müvafiq valyuta məzənnələrinə əsasən həmin müəssisənin funksional valyutasına çevrilir. Qrupun müvafiq müəssisələrinin funksional valyutalarında yenidən ölçülmə nəticəsində yaranan məzənnə gəlir və zərərləri mənfəət və ya zərərdə qeydə alınır.

Xarici valyuta ilə olan və ilkin dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr əməliyyat tarixinə mövcud olan məzənnəyə əsasən çevrilir. Xarici valyuta ilə olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin təyin edildiyi tarixdə mövcud olan məzənnəyə əsasən çevrilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

Qrup müəssisələrinin əməliyyat nəticələri və maliyyə vəziyyəti həmin müəssisələrin funksional valyutası Qrupun hesabat valyutalarından fərqli olduqda və Qrupun hesabat valyutası ilə ölçülmədikdə (bu müəssisələrdən heç birinin funksional valyutası hiperinflyasiya iqtisadiyyatlı ölkələrin valyutası deyil) aşağıdakı şəkildə hesabat valyutasına çevrilir:

(i) hər bir maliyyə vəziyyəti haqqında hesabat üzrə aktiv və öhdəliklər, maliyyə vəziyyəti haqqında hesabat tarixində qüvvədə olan yekun məzənnə ilə çevrilir;

(ii) hər bir mənfəət və zərər və sair məcmu gəlir haqqında hesabat üzrə gəlir və xərclər orta məzənnə ilə yenidən qiymətləndirilir (həmin orta məzənnə əməliyyat tarixinə məzənnələrin məcmu təsirinə əsaslı şəkildə yaxın olmadıqda, gəlir və xərclər əməliyyat tarixinə qüvvədə olan məzənnə ilə çevrilir); və

(iii) bütün məzənnə fərqləri kapital hesabında ayrıca komponent - məzənnə çevrilməsindən yaranan fərq kimi əks etdirilir.

31 dekabr 2020-ci il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan əsas valyuta məzənnələri: 1 ABŞ dolları = 1.7000 AZN, 1 Avro = 2.0890 AZN, 1 CHF = 1.9280 AZN, 1 GEL=0.5193 AZN, 1 UAH = 0.0603 AZN, 1 TL = 0.2305 AZN, 100 JPY = 1.6456 AZN (31 dekabr 2019-cu il: 1 ABŞ dolları = 1.7000 AZN, 1 Avro = 1.9035 AZN, 1 CHF = 1.7479 AZN, 1 GEL = 0.5936 AZN, 1 UAH = 0.0714 AZN, 1 TL = 0.2858 AZN, 100 JPY = 1.5578 AZN).

**Maliyyə alətləri − qiymətləndirmə bazaları**

***Ədalətli dəyər***

Qrup törəmə alətlər kimi maliyyə alətlərini və investisiya əmlakı kimi qeyri-maddi aktivlərini hər hesabat tarixində ədalətli dəyərlə ölçür.

*Ədalətli dəyər* qiymətləndirmə tarixində bazar iştirakçıları arasında adi əməliyyatda aktivin satılması zamanı alınacaq və ya öhdəliyin ötürülməsi üçün ödəniləcək qiymətdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aktivin və ya öhdəliyin əsas bazarında və ya əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarında aparılması ehtimal edilir. Qrupun əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülməlidir və bu zaman ehtimal edilməlidir ki, bazar iştirakçıları öz ən yaxşı iqtisadi mənafelərini güdürlər.

Qrup müvafiq müşahidə olunan giriş məlumatlarının istifadəsini maksimallaşdırmaq və müşahidə olunmayan giriş məlumatlarının istifadəsini minimallaşdırmaqla müəyyən şərtlərə uyğun olan və ədalətli dəyəri ölçmək üçün kifayət məlumatın mövcud olduğu qiymətləndirmə üsullarını istifadə edir.

Maliyyə hesabatlarında ədalətli dəyərləri qiymətləndirilmiş və ya açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir olunan ədalətli dəyər iyerarxiyası daxilində ədalətli dəyərin qiymətləndirilməsi üçün bütövlükdə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında kateqoriyalara aid edilir:

- Səviyyə 1 − oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda bazar qiymətləri (təshih edilməmiş) mövcud olanlar;
- Səviyyə 2 − ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları;
- Səviyyə 3 − ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında ədalətli dəyərlə təkrarlanan əsasda tanınan aktiv və öhdəliklər üçün Qrup hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün bütövlükdə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

***Amortizasiya olunmuş maya dəyəri***

*Əməliyyat xərcləri* birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə bağlı olan əlavə xərcləri əks etdirir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri əməliyyat xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə hər hansı ehtiyatı çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir.

Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və müvafiq maliyyə vəziyyəti haqqında hesabatın maliyyə aktivi və öhdəliklərinin balans dəyərinə daxil edilir.

*Effektiv faiz dərəcəsi ("EFD")* metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. EFD, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

EFD maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən sair dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilən faiz dərəcəsidir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

**Maliyyə aktivləri**

***İlkin tanınma və ölçmə***

Maliyyə aktivləri ilkin tanınmada sonradan amortizasiya hesablanmış dəyərlə, sair məcmu gəlir (SMG) vasitəsilə ədalətli dəyərlə tanınan aktivlər və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi təsnifləşdirilir.

İlkin tanınmada maliyyə aktivlərinin təsnifatı maliyyə aktivləri üzrə müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin xüsusiyyətlərindən və Qrupun bunları idarə etmək üçün seçdiyi biznes modeldən asılıdır.

Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Qrupun praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları istisna olmaqla Qrup ilk öncə maliyyə aktivlərini ədalətli dəyərlə ölçür və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi tanınan aktivlər üçün əməliyyat xərclərini əlavə edir. Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Qrupun praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları 15 saylı MHBS əsasında müəyyənləşdirilən əməliyyat qiyməti ilə ölçülür.

Maliyyə aktivinin amortizasiya dəyəri ilə və ya SMG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi və ölçülməsi üçün qalan əsas məbləğ üzrə yalnız əsas məbləğin və faizlərin ödənilməsini (YƏMFÖ) təşkil edən pul vəsaitlərinin hərəkəti yaradılmalıdır. Bu qiymətləndirməyə "YƏMFÖ testi" deyilir və bu, hər bir alət üzrə ayrıca aparılır. YƏMFÖ meyarına uyğun olmayan pul vəsaitlərinin hərəkəti ilə maliyyə aktivləri biznes modelindən asılı olmayaraq mənfəət və ya zərərdə ədalətli dəyəri ilə təsnifləşdirilir və ölçülür.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

Qrupun maliyyə aktivlərini idarə etmək üçün seçdiyi biznes modeli, onun pul vəsaitlərinin hərəkətini yaratmaq məqsədilə maliyyə aktivlərinin idarəedilməsi metodunu təsvir edir. Başqa sözlə, Qrupun biznes modeli pul vəsaitlərinin hərəkətinin müqavilədən, maliyyə aktivlərinin satışından və ya onların hər ikisindən yaranacağını müəyyən edir. Amortizasiya olunmuş dəyərlə təsnifləşdirilən və ölçülən maliyyə aktivləri məqsədi müqavilə üzrə pul vəsaitlərinin toplanılması üçün maliyyə aktivlərinin saxlanılması olan biznes modeli, SMGƏD ilə təsnifləşdirilən və ölçülən maliyyə aktivləri isə məqsədi müqavilə üzrə pul vəsaitlərinin toplanılması və satılması olan biznes modeli çərçivəsində saxlanılır.

Qanunvericiliklə və ya bazar razılaşmaları ilə ümumi şəkildə müəyyən edilmiş müddət ərzində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alınması və ya satılması əməliyyatları alqı-satqı tarixində, yəni Qrup aktivi almaq və ya satmaq öhdəliyini üzərinə götürdüyü tarixdə tanınır.

***Sonrakı ölçülmə***

Sonrakı ölçülmə məqsədilə maliyyə aktivləri dörd kateqoriyaya təsnifləşdirilir:

- Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Məcmu gəlirləri və zərərləri yenidən bölüşdürməklə SMG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Uçotdan çıxarılanda məcmu gəlirləri və zərərləri yenidən bölüşdürmədən SMG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri);
- Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivləri.

*Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri)*

Bu kateqoriya Qrupa daha uyğundur. Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Qrup maliyyə aktivini amortizasiya olunmuş dəyərlə ölçməlidir:

- Maliyyə aktivi, məqsədi müqavilə ilə nəzərdə tutulan pul vəsaitlərini toplamaq olan biznes modeli çərçivəsində saxlanılır;
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə əsas məbləğ və faizdən ibarət olan pul vəsaitlərinin axınına səbəb olur.

Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri sonradan EFD metodundan istifadə etməklə ölçülür və dəyərsizləşmə hesablanır. Gəlir və zərərlər mənfəət və ya zərərdə aktiv uçotdan çıxarılanda, dəyişiklik ediləndə və ya dəyərsizləşəndə tanınır.

Qrupun amortizasiya hesablanmış dəyərlə ölçülən maliyyə aktivlərinə cari və depozit hesabları, həmçinin bir neçə yerli və beynəlxalq bankda məhdudiyyət qoyulmuş hesablar, üçüncü tərəflərdən ticarət debitor borcları və kredit üzrə alınacaq məbləğlər, asılı müəssisələrdən kredit üzrə alınacaq məbləğlər və sair uzunmüddətli maliyyə aktivləri kimi təsnifləşdirilmiş uzunmüddətli depozit hesabları daxildir.

*SMG ilə ədalətli dəyərlə maliyyə aktivləri (borc alətləri)*

Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Qrup borc alətlərini SMG ilə ədalətli dəyərlə ölçməlidir:

- Maliyyə aktivi, məqsədi həm müqavilə üzrə nəzərdə tutulan pul vəsaitlərini toplamaq, həm də satış olan biznes modeli çərçivəsində saxlanılır;
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə əsas məbləğ və faizdən ibarət olan pul vəsaitlərinin axınına səbəb olur.

SMG ilə ədalətli dəyərlə borc alətləri üçün faiz gəliri, xarici valyutanın yenidən qiymətləndirilməsi və dəyərsizləşmə zərərləri və ya qaytarmalar mənfəət və ya zərər kimi tanınır və amortizasiya hesablanmış dəyərlə maliyyə aktivləri ilə eyni qaydada hesablanır. Ədalətli dəyərdə qalan dəyişikliklər SMG ilə tanınır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

Uçotdan çıxarılanda SMG-də tanınmış məcmu ədalətli dəyərdə dəyişiklik mənfəət və ya zərərə yenidən bölüşdürülür.

Qrupun SMG ilə ədalətli dəyərlə borc alətlərinə həm müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərini toplamaq, həm də qısamüddətli likvidlik ehtiyaclarını idarə etmək üçün satış aparmaq məqsədilə saxlanılan ticarət və sair debitor borcları daxildir.

*SMG ilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri)*

İlkin tanınmada Qrup 32 saylı *"Maliyyə alətləri: təqdimatı"* adlı MUBS əsasında kapital tərifinə uyğun olan bəzi kapital investisiyalarını ticarət üçün saxlanılan alətlər kimi deyil, kapital alətləri kimi təsnif etmək üçün yekun seçim edə bilər. Belə təsnifat alətlər üzrə fərdi şəkildə müəyyən edilir.

Bu kapital alətləri üzrə gəlir və zərərlər heç zaman mənfəət və ya zərərə aid edilmir. Ödəmə hüququ müəyyən ediləndə, dividendlər mənfəət və ya zərərdə sair gəlir kimi tanınır. Lakin Qrup alətin dəyərinin bir hissəsinin qaytarılması olan belə daxilolmalardan faydalanırsa, belə gəlirlər SMG-də tanınır. SMG vasitəsilə ədalətli dəyərlə kapital alətləri üzrə dəyərsizləşmənin qiymətləndirilməsi aparılmır.

*Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri*

Qrupun saxladığı ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivlərinə ticarət üçün saxlanılan maliyyə aktivləri, ilkin tanınmada ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri və ya ədalətli dəyərlə ölçülməsi mütləq olan aktivlər daxildir. Yaxın zamanda satış və ya yenidən alış məqsədi ilə əldə olunarsa, maliyyə aktivləri ticarət üçün saxlanılan aktivlər kimi təsnif olunur. Effektiv hedcinq alətləri kimi təyin olunmayan törəmə alətlər, o cümlədən ayrılmış əlaqədar törəmə alətlər də satış üçün saxlanılan aktivlər kimi təsnif olunur. Yalnız əsas məbləğ və faizlərin ödənilməsini təşkil etməyən pul vəsaitlərinin hərəkətini yaradan maliyyə aktivləri, biznes modeldən asılı olmayaraq, mənfəət və ya zərərdə ədalətli dəyərlə təsnifləşdirilir. Borc alətlərinin amortizasiya hesablanmış dəyərlə və ya SMG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi üçün yuxarıda təsvir edilən meyarlara baxmayaraq borc alətləri, bununla uçot uyğunsuzluğu aradan qaldırılar və ya əhəmiyyətli dərəcədə azaldılarsa, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri kimi təyin edilə bilər.

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərlə tanınır, ədalətli dəyərdə xalis dəyişikliklər isə mənfəət və ya zərər kimi tanınır.

Bu kateqoriyaya törəmə alətlər və Qrupun SMG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirməyi yekun olaraq seçmədiyi birjada satılan kapital alətləri daxildir. Birjada satılan kapital alətləri üzrə dividendlər də ödəniş hüququ müəyyən edildikdə mənfəət və ya zərər haqqında hesabatda sair gəlir kimi tanınır.

***Uçotdan çıxarma***

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan (yəni Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatından) çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının müddəti başa çatmışdır;
- Qrup özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya üzərinə aktivdən pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və ya Qrup: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə köçürmüş, nə də özündə saxlamış, lakin aktiv üzrə nəzarət hüququnu köçürmüşdür.

Qrup aktivdən pul vəsaitlərini almaq hüququnu köçürdükdə və ya "tranzit" razılaşmasına qoşulduqda, mülkiyyət hüququ ilə bağlı risk və faydaları saxlayıb-saxlamadığını və nə dərəcədə saxladığını qiymətləndirir. Qrup nə aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş, nə də özündə saxlamışdırsa, nə də aktiv üzrə nəzarət hüququnu köçürmüşdürsə, aktiv Qrupun həmin aktivdə davam edən iştirakı həddində əks etdirilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

Bu halda Qrup əlaqəli öhdəliyi də tanıyır. Köçürülmüş aktiv və əlaqəli öhdəlik Qrupun saxladığı hüquq və öhdəlikləri əks etdirən əsaslarla ölçülür.

Aktivdə iştirakın köçürülmüş aktiv üzrə zəmanət formasında davam etməsi aktivin ilkin balans dəyəri və Qrupdan tələb oluna biləcək maksimal ödəniş məbləğindən daha az olanı ilə ölçülür.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi***

Maliyyə aktivlərinin dəyərsizləşməsinə aid olan əlavə məlumatlar aşağıdakı qeydlərdə təqdim edilir:

- Əhəmiyyətli uçot təxminləri və mühakimələri (Qeyd 3);
- SMG vasitəsilə ədalətli dəyərlə borc alətləri və ticarət və sair debitor borcları (Qeyd 10).

Qrup mənfəət və zərərdə ədalətli dəyərlə əks olunmayan bütün borc alətləri üçün GKZ-lər üçün ehtiyatı tanıyır. GKZ-lər müqaviləyə uyğun olaraq ödəniləcək müqavilədə nəzərdə tutulan pul vəsaitlərinin hərəkəti ilə Qrupun alınmasını gözlədiyi bütün pul vəsaitlərinin hərəkəti arasında fərqi ilkin effektiv faiz dərəcəsinə yaxın dərəcə ilə diskontlaşdırmaqla müəyyən edilir. Gözlənilən pul vəsaitlərinin hərəkətinə saxlanılan girovun və ya müqavilə şərtlərinə uyğun olaraq kreditin keyfiyyətini artıran sair vasitələrin satışından əldə edilən pul vəsaitləri daxil edilir.

GKZ-lər iki mərhələdə müəyyən edilir. İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artmayan kredit öhdəlikləri üçün GKZ-lər növbəti 12 aylıq dövr ərzində mümkün olan defolt hadisəsindən irəli gələn kredit zərərləri üçün tanınır (12aGKZ). İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artan kredit öhdəlikləri üzrə kredit ehtiyatı aktivin qalan müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə (aktivin müddəti ərzində gözlənilən kredit zərəri və ya AMəGKZ) əsaslanır.

Ticarət debitor borcları və müqavilə aktivləri olmayan maliyyə aktivləri üçün Qrup GKZ-nin hesablanmasına ümumi yanaşmanı tətbiq edir.

Ticarət debitor borcları və sair müqavilə aktivləri üçün Qrup GKZ-lərin hesablanmasında sadələşdirilmiş yanaşma tətbiq edir. Beləliklə, Qrup kredit riskində dəyişiklikləri izləmir, əvəzinə hər hesabat tarixində AMəGKZ əsasında kredit zərərini tanıyır. Qrup debitorlara və iqtisadi mühitə xas olan perspektiv amilləri nəzərə almaqla düzəliş edilmiş Qrupun keçmiş dövrlər üzrə kredit zərəri əsasında ehtiyat matrisasını yaratmışdır.

Qrupun SMG vasitəsilə ədalətli dəyərlə borc alətləri yalnız gündəlik likvidlik tələblərini idarə etmək üçün müqavilə üzrə pul vəsaitlərinin toplanılması və satılması üçün saxlanılan ticarət və sair debitor borclarından ibarətdir. SMG vasitəsilə ədalətli dəyərlə borc alətləri üçün, Qrup amortizasiya hesablanmış dəyərlə ölçülən maliyyə alətlərinə tətbiq edilən metodologiyanı tətbiq edir.

**Maliyyə öhdəlikləri**

***İlkin tanınma və ölçmə***

Maliyyə öhdəlikləri ilkin tanınma zamanı, müvafiq olaraq, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri, kreditlər və borc öhdəlikləri və ya effektiv hedcinqdə hedcinq aləti kimi təyin olunmuş törəmə alətləri kimi təsnif edilir.

Maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə tanınır və kreditlər, borclar və kreditor borcları halında birbaşa aid edilən əməliyyat xərcləri çıxılır.

Qrupun maliyyə öhdəliklərinə ticarət və sair kreditor borcları, kreditlər və borc öhdəlikləri, o cümlədən bank overdraftları və törəmə maliyyə alətləri daxildir.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

***Sonrakı ölçmə***

Maliyyə öhdəliklərinin ölçülməsi onların aşağıda göstərilən təsnifatından asılıdır:

*Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri*

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri və ticarət üçün saxlanılan maliyyə öhdəlikləri və ilkin tanınmada Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi təyin edilmiş maliyyə öhdəlikləri daxildir.

Maliyyə öhdəlikləri yaxın zamanda geri alınmaq məqsədilə qəbul edilirsə ticarət üçün saxlanılan öhdəliklər kimi təsnifləşdirilir. Bu kateqoriyaya eyni zamanda 9 saylı MHBS-də müəyyən edildiyi qaydada hedcinq münasibətlərində hedcinq aləti kimi təyin olunmayan törəmə maliyyə alətləri daxildir. Ayrılmış əlaqəli törəmə alətlər də effektiv hedcinq aləti kimi təyin edilmədiyi hallarda ticarət üçün saxlanılan alətlər kimi təsnifləşdirilir.

Ticarət üçün saxlanılan öhdəliklər üzrə gəlir və ya zərərlər mənfəət və ya zərər haqqında hesabatda tanınır.

İlkin tanınma tarixində ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi tanınmış öhdəliklər ilkin tanınma tarixində və yalnız 9 saylı MHBS-də nəzərdə tutulan meyar qarşılananda təyin olunur. Qrup ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan hər hansı maliyyə öhdəliyinin tanınmasını dayandırmamışdır.

*Kreditlər, borc öhdəlikləri və kreditor borcları*

Bu kateqoriya Qrup üçün daha uyğundur. İlkin tanınmadan sonra faiz hesablanan kreditlər, borc öhdəlikləri və kreditor borcları daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə, satınalma üzrə hər hansı diskont və ya əlavəni və Effektiv Faiz Dərəcəsinin (“EFD”) tərkib hissəsi olan haqq və ya xərcləri nəzərə almaqla, amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir. Gəlirlər və zərərlər mənfəət və ya zərərdə öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də EFD-in amortizasiyası prosesi vasitəsilə əks etdirilir. EFD-nin amortizasiyası mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda maliyyə xərclərinə daxil edilir.

***Maliyyə öhdəliklərinin uçotdan silinməsi***

Qrup maliyyə öhdəliyini bu öhdəlik üzrə məsuliyyətdən azad olduqda, həmin öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda uçotdan silir. Mövcud maliyyə öhdəliyi eyni borcverən tərəfindən əhəmiyyətli dərəcədə fərqli şərtlər ilə başqa bir öhdəlik ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, bu cür mübadilə və ya dəyişiklik ilkin öhdəliyin uçotdan silinməsi və yeni öhdəliyin uçota alınması kimi nəzərə alınır. Müvafiq balans məbləğindəki fərq mənfəət və ya zərər haqqında hesabatda uçota alınır.

**Maliyyə alətlərinin qarşılıqlı əvəzləşdirilməsi**

Qrup maliyyə aktivləri və maliyyə öhdəliklərinin tanınmış məbləğlərini qarşılıqlı əvəz etmək üçün qanuni hüquqa malik olduğu və ya hesablaşmanı netto əsasda həyata keçirmək, ya da eyni vaxtda aktivi reallaşdırmaq və öhdəliyi yerinə yetirmək niyyəti olduğu halda, qarşılıqlı əvəzləşdirir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda xalis məbləğ kimi təqdim edir.

**Maliyyə zəmanəti razılaşmaları**

Maliyyə zəmanəti razılaşmaları maliyyə aləti üzrə şərtlərə əsasən ödənilməli olan vaxtda borclu tərəfin ödəməni yerinə yetirə bilmədiyi zaman yaranan zərərin əvəzinin Qrup tərəfindən ödənilməsini tələb edən razılaşmalardır. Maliyyə zəmanəti razılaşmaları ilkin olaraq birbaşa zəmanətin emissiyası ilə bağlı olan sövdələşmə xərcləri nəzərə alınmaqla ədalətli dəyər əsasında öhdəlik kimi uçota alınır. Daha sonra, öhdəlik GKZ ehtiyatının məbləği və ilkin olaraq tanınmış məbləğin daha yüksək olan dəyəri ilə, müvafiq hallarda 15 saylı MHBS-yə uyğun olaraq tanınmış gəlir məbləğini çıxmaqla, ölçülür.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

**Törəmə maliyyə alətləri**

Neft-qaz törəmə maliyyə alətləri, o cümlədən dövriyyə sənədi və fiziki müqavilə ilə razılaşmalar, ilkin olaraq törəmə müqavilənin imzalandığı tarixdə ədalətli dəyərlə ölçülür və sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə uçota alınır. Ədalətli dəyər müsbət olduqda törəmə alətlər maliyyə aktivləri kimi, mənfi olduqda isə maliyyə öhdəlikləri kimi uçota alınır.

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə kassada olan nağd pul, bank hesablarındakı tələb edilənədək və ilkin ödəmə müddəti üç ay və ya az olan sair qısamüddətli və yüksək likvidli investisiyalar daxildir.

**Məhdudiyyət qoyulmuş pul vəsaitləri**

Məhdudiyyət qoyulmuş pul vəsaitləri nağd pul və pul vəsaitlərinin ekvivalentlərindən ayrıca göstərilir. Məhdudiyyət qoyulmuş qalıqlar pul vəsaitlərinin hərəkəti hesabatının tərtib edilməsi məqsədilə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə aid edilmir.

**Ticarət kreditor borcları**

Ticarət kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı qeydə alınır. Ticarət kreditor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə ölçülür.

**Borc öhdəlikləri**

Borc öhdəlikləri əvvəlcə borc öhdəlikləri ilə bağlı emissiya xərcləri çıxılmaqla, əldə edilmiş daxilolmaların ədalətli dəyərində qeydə alınır. Borc öhdəlikləri effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

Müvafiq əmlak, tikili və avadanlıqların tikintisini maliyyələşdirmək üçün alınmış borc öhdəlikləri üzrə faiz xərcləri aktivi istifadəyə yararlı vəziyyətə gətirmək üçün onun tikintisinin tamamlanması və ya hazırlanması üçün tələb olunan dövr ərzində kapitallaşdırılır. Borc öhdəlikləri üzrə sair xərclər mənfəət və ya zərərdə əks etdirilir.

**Əmlak, tikili və avadanlıqlar**

Alınmış aktivin ilkin dəyəri onun alış dəyəri və ya tikinti xərcləri, bu aktivin istismara verilməsi ilə birbaşa bağlı olan xərclər, onun silinməsi öhdəliyi (əgər varsa) üzrə ilkin təxminlər və müvafiq aktivlər və borc öhdəlikləri üzrə xərclərdən ibarətdir. 31 dekabr 2018-ci il tarixinə maliyyə icarəsi müqaviləsinə əsasən əldə edilmiş aktivlər də əmlak, tikili və avadanlıqlara daxildir. Əmlak, tikili və avadanlıqların alınması ilə əvəzləşdirilə bilməyən əlavə dəyər vergisi Qrup tərəfindən kapitallaşdırılır. Əməliyyat fəaliyyətinə aid olan əvəzləşdirilə bilməyən əlavə dəyər vergisi mənfəətə və ya zərərə aid edilir. Daha sonra, əmlak, tikili və avadanlıqlar aşağıda təsvir edildiyi kimi maya dəyəri ilə göstərilir və tələb olunanda yığılmış köhnəlmə və dəyərsizləşmə üçün ehtiyatı çıxılır.

**Kəşfiyyat və qiymətləndirmə xərcləri**

Qrup kəşfiyyat və qiymətləndirmə fəaliyyətini müvafiq resursların istehsalının iqtisadi cəhətdən səmərəliliyi müəyyən edilənə qədər, kəşfiyyat və qiymətləndirmə xərclərini xərclərə silməklə uçota alır.

İqtisadi cəhətdən səmərəsiz olduğu müəyyən edilmiş resurslar ilə bağlı kəşfiyyat və qiymətləndirmə xərcləri konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əməliyyat xərclərinə əlavə edilir.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

**İşlənmə xərcləri**

Platformalar, boru kəmərləri kimi infrastruktur qurğuların tikilməsi, quraşdırılması və ya tamamlanması və kommersiya cəhətdən təsdiqlənmiş quyuların qazılması üzrə xərclər onların xarakterinə uyğun olaraq maddi və qeyri-maddi aktivlər kimi kapitallaşdırılır. Konkret yataqda işlənmə tamamlandıqdan sonra o, istehsal aktivlərinə (neft və qaz əmlakına) köçürülür.

Neft və qaz hasilatı qurğuları üzrə təxmin edilən sökülmə xərclərinin cari dəyəri (ləğvetmə və ərazinin bərpası xərcləri daxil olmaqla) öhdəlik yarandıqda uçota alınır və istehsalın həcmindən asılı olaraq amortizasiya metodundan istifadə etməklə balans dəyərinə daxil edilir.

Bütün kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Əmlak, tikili və avadanlıqların əsas hissələrinin və ya komponentlərinin dəyişdirilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr istismardan çıxarılır.

Hər bir hesabat tarixində rəhbərlik əmlak, tikili və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa dəyərini təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri, aktivin və ya pul vəsaitlərini yaradan biznes vahidlərinin satış xərcləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olanıdır. Aktivin balans dəyəri onun bərpa dəyərinə qədər azaldılır və dəyərsizləşmə zərəri mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda qeydə alınır. Dəyərsizləşmə zərərinin daha mövcud olmamasına və ya azala biləcəyinə dair əlamətlər olduqda, aktiv və ya PVYV (Pul Vəsaitlərini Yaradan Vahid) üzrə əvvəlki illərdə qeydə alınmış dəyərsizləşmə zərəri ləğv edilir.

Satışından yaranan gəlir və zərər alınmış vəsaitlərin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərə daxil edilir.

**Köhnəlmə**

Neft və təbii qaz əmlakı ilə bağlı əmlak, tikili və avadanlıqlar üzrə köhnəlmə istehsal həcmindən asılı olaraq köhnəlmə metoduna əsasən hesablanır.

Neft və qaz aktivləri üçün köhnəlmə, hər bir yataq üzrə təsdiqlənib işlənilmiş ehtiyatlar əsasında hesablanır. Birgə istifadə olunan neft-qaz əmlakı və avadanlıqlarına (məsələn daxili təchizat sistemləri, emal qurğuları və s.) cəmi təsdiqlənmiş ehtiyatlar üzrə köhnəlmə hesablanır.

Torpaq üçün köhnəlmə hesablanmır. Neft-qaz əmlakı və avadanlığından başqa əmlak, tikili və avadanlıqlar onların təxmin edilən faydalı istifadə müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən köhnəlmə hesablanır. Tikilməkdə olan aktivlər üçün köhnəlmə hesablanmır.

**İcarələr**

Qrup müqavilənin bağlandığı tarixdə onun icarə müqaviləsi olub-olmaması və ya tərkibində icarənin olub-olmamasını, yəni müqavilənin ödəniş qarşılığında müəyyən müddət ərzində müəyyən edilmiş aktivin istifadəsinə nəzarət etmək hüququnu verib-verməməsini qiymətləndirir.

***Qrup icarəçi qismində***

Qrup, qısamüddətli icarələr və az dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanınma və ölçmə metodunu tətbiq edir. Qrup icarə ödənişlərini etmək üçün icarə öhdəliklərini və əsas aktivlərdən istifadə etmək hüququnu təqdim edən istifadə hüququ olan aktivləri tanıyır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

*İstifadə hüququ olan aktivlər*

Qrup istifadə hüququ olan aktivləri icarə başladığı tarixdə (yəni əsas aktiv istifadə üçün mövcud olduğu tarixdə) tanıyır. İstifadə hüququ olan aktivlərin maya dəyəri aşağıdakılardan ibarətdir:

- İcarə öhdəliyinin ilkin ölçülmə məbləğ;
- Alınmış icarə üzrə güzəştlər çıxılmaqla başlanma tarixində və ya ondan əvvəl edilmiş icarə ödənişləri;
- İcarəçi tərəfindən çəkilmiş ilkin birbaşa xərclər; və
- Əsas aktivin demontaj edilməsi və köçürülməsi, onun yerləşdiyi ərazinin bərpası və ya əsas aktivin icarə müddəalarına və şərtlərinə əsasən tələb olunan vəziyyətə gətirilməsi zamanı, ehtiyatların istehsal edilməsi üçün çəkilən xərclər istisna olmaqla, icarəçi tərəfindən çəkiləcək qiymətləndirilmiş xərclər. İcarəçi bu xərclərə görə ya icarə müqaviləsinin başlanma tarixində ya da müəyyən bir dövr ərzində əsas aktivin istifadəsi nəticəsində öhdəlik daşıyır.

İcarəçi yuxarıda göstərilən demontaj, köçürülmə və bərpa xərclərini həmin xərclərə görə öhdəlik daşıdığı anda istifadə hüququ olan aktivin dəyərinin bir hissəsi kimi tanıyır. İcarəçi müəyyən dövr ərzində ehtiyatların istehsal edilməsi üçün istifadə hüququ olan aktivin istifadəsi nəticəsində həmin dövr ərzində çəkdiyi xərclər üzrə 2 saylı *Ehtiyatlar* adlı MUBS-u tətbiq edir. Bu cür xərclər üzrə öhdəliklər 37 saylı *Ehtiyatlar, Şərti öhdəliklər və Şərti aktivlər* adlı MUBS-u tətbiq etməklə tanınır və ölçülür.

İstifadə hüququ olan aktivlər yığılmış köhnəlmə və dəyərsizləşmə zərərlərini çıxmaqla və icarə öhdəliklərinin hər hansı yenidən ölçülməsi üzrə düzəliş etməklə maya dəyəri ilə ölçülür. İstifadə hüququ olan aktivlər üzrə icarə müddəti və ya gözlənilən istifadə müddəti ərzində (bu müddətlərdən hansı daha qısa olarsa) bərabər çıxılmalar metoduna əsasən köhnəlmə hesablanır. Əgər icarə müddətinin sonunda icarəyə götürülmüş aktiv üzrə mülkiyyət hüququ Qrupa ötürülərsə və ya maya dəyəri alış hüququnun istifadə ediləcəyini əks etdirərsə, köhnəlmə aktivin ehtimal edilən istifadə müddətindən istifadə etməklə hesablanır. İstifadə hüququ olan aktivlər üzrə dəyərsizləşmə 36 saylı *Aktivlərin dəyərsizləşməsi* adlı MUBS-un tələblərinə əsasən müəyyən edilir.

***İcarə öhdəlikləri***

İcarə müddətinin başlanğıc tarixində, icarə öhdəliyinin ölçülməsinə daxil edilən icarə ödənişləri, başlanma tarixində ödənilməyən icarə müddəti ərzində əsas aktivlərdən istifadə etmək hüququ üçün aşağıdakı ödənişlərdən ibarətdir:

- İcarə güzəştləri üzrə alınacaq məbləğlər çıxılmaqla sabit ödənişlər (o cümlədən mahiyyətcə sabit ödənişlər);
- İlkin olaraq icarə müddətinin başlanğıc tarixindəki indeks və ya dərəcələrdən istifadə etməklə ölçülən, indeks və ya dərəcələrdən asılı olan dəyişkən icarə ödənişləri;
- Zəmanətli son qalıq dəyəri üzrə icarəçi tərəfindən ödənilməsi gözlənilən məbləğlər;
- İcarəçinin əsaslandırılmış şəkildə əmin olduğu halda alış hüququnun gerçəkləşdirildiyi qiymət;
- İcarə müddəti ərzində icarəçi icarəni ləğv etmə hüququnu gerçəkləşdirərsə, icarənin ləğv edilməsi ilə bağlı cərimə ödənişləri. İndeks və ya dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri ödənişə səbəb olan hadisə və ya şəraitin yarandığı dövrdə xərc kimi tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsinin dərhal müəyyən edilməsi mümkün olmadıqda, Qrup icarə başladığı tarixə olan marjinal faiz dərəcəsindən istifadə edir. Başlama tarixindən sonra, faizin artmasını əks etdirmək üçün icarə öhdəliklərinin məbləği artırılır, edilmiş icarə ödənişləri üçün isə azaldılır. Bundan əlavə, icarə müddətində, mahiyyətcə sabit icarə ödənişlərində və ya əsas aktivin alınması hüququnun qiymətləndirilməsində dəyişiklik baş verərsə, icarə öhdəliklərinin balans dəyəri yenidən ölçülür. İcarə öhdəliyi yuxarıda göstərildiyi kimi yenidən ölçüldükdə, istifadə hüququ olan aktivin balans dəyərinə müvafiq düzəlişlər edilir və ya istifadə hüququ olan aktivin balans dəyəri sıfıra enərsə həmin düzəliş mənfəət və ya zərərdə gəlir və ya zərər kimi qeydə alınır. İcarə müqaviləsinə icarənin həcmini azaldan dəyişiklik edilərsə, Qrup həmçinin mənfəət və zərərin tərkibində icarə öhdəliyinin və istifadə hüququ olan aktivin tanınması dayandırılmış hissələrinin balans dəyərləri arasındakı fərqə bərabər olan gəlir və ya zərəri tanıyır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

*Qısamüddətli icarələr və azdəyərli aktivlərin icarəsi*

Qrup qısamüddətli icarələr üzrə istisnanı icarə müddəti başlanma tarixindən 12 ay və ya daha az olan və alış opsionunu daxil etməyən qısamüddətli icarələrə tətbiq edir. Qrup həmçinin azdəyərli aktivlərin tanınması ilə bağlı istisnanı azdəyərli hesab edilən icarələrə tətbiq edir. Qısamüddətli icarələr üzrə icarə ödənişləri və azdəyərli aktivlərin icarələri icarə müddəti ərzində bərabər hissələrə bölünməklə xərc kimi tanınır.

***Qrup icarədar qismində***

Qrupun aktiv üzrə mülkiyyət hüququna aid olan bütün risk və faydaların əksəriyyətini ötürmədiyi icarələr əməliyyat icarələri kimi təsnif edilir. Əməliyyat təbiətinə görə yaranan icarə gəliri icarə müddəti ərzində düz xətt üsulu ilə uçota alınır və mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda gəlirlərə daxil edilir.

Əməliyyat icarəsinin razılaşdırılması və tənzimlənməsinə çəkilən ilkin birbaşa xərclər icarəyə götürülən aktivin balans dəyərinə əlavə edilir və icarə gəlirinin tanındığı qaydada icarə müddəti ərzində uçota alınır. Dəyişkən icarə ödənişləri qazanıldığı dövrdə gəlirlər kimi tanınır.

**Qudvil**

Qudvil ilkin olaraq məcmu ödənişin və qeyri-nəzarət paylarının müəyyən edilə bilən xalis aktivlər və güman olunan öhdəliklərdən artıq hissə olan dəyəri kimi hesablanır. Əgər bu məbləğ əldə edilmiş törəmə müəssisənin xalis aktivlərinin ədalətli dəyərindən azdırsa, bu fərq gəlir və ya zərər kimi qeydə alınır. İlkin tanınmadan sonra qudvil maya dəyərindən hər hansı yığılmış dəyərsizləşmə zərərini çıxmaqla ölçülür.

Dəyərsizləşmə testi üçün müəssisələrin birləşməsindən yaranan qudvil, yaranma tarixindən başlayaraq Qrupun birləşmədən fayda götürə biləcək hər bir PVYV-nə alınan müəssisənin sair aktiv və ya öhdəliklər bu vahidlərə ayırmasından asılı olmayaraq paylanır. Qudvil PVYV-nin bir hissəsi olduğu və vahid nəzdində fəaliyyətin bir hissəsi ləğv olunduğu təqdirdə həmin fəaliyyətə aid edilən qudvil onun ləğv olunmasından yaranan gəlir və zərərin müəyyən edilməsi üçün ləğv olunan fəaliyyətin balans dəyərinə daxil olunur. Bu cür hallarda silinən qudvil ləğv olunan fəaliyyətin müvafiq dəyəri və qalan PVYV-nin dəyəri əsasında ölçülür.

**Qeyri-maddi aktivlər**

Qeyri-maddi aktivlər yığılmış amortizasiyanı və dəyərsizləşmə zərərini çıxmaqla, maya dəyərində qeydə alınır. Qeyri-maddi aktivlərə hüquqlar və proqram təminatı, patentlər, lisenziyalar, müştəri ilə münasibətlər, ticarət adı, sudan istifadə hüquqları və işlənmə layihələri daxildir.

Qeyri-maddi aktivlərin faydalı istifadə müddəti məhdud və ya qeyri-müəyyən olaraq qiymətləndirilir. Məhdud faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər onların faydalı iqtisadi müddəti ərzində bərabər çıxılmalar metodu amortizasiya edilir və dəyərsizləşə bilməsinə dair əlamət mövcud olduqda dəyərsizləşmə üzrə qiymətləndirilir. Məhdud faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər üzrə amortizasiya dövrü və amortizasiya metodu ən azı hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir. Gözlənilən faydalı istifadə müddəti və ya aktiv üzrə daxil olacaq gələcək iqtisadi səmərənin gözlənilən istifadə modelində baş verən dəyişikliklər müvafiq olaraq amortizasiya dövrünü və ya metodunu dəyişdirməklə uçot təxminlərində dəyişikliklər kimi qeydə alınır. Məhdud faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda qeyri-maddi aktivlərin funksiyasına uyğun olaraq xərc kateqoriyasında tanınır.

Qeyri-müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər amortizasiya edilmir, lakin fərdi qaydada və ya pul vəsaitlərini yaradan biznes vahidləri səviyyəsində hər il dəyərsizləşmə üzrə yoxlanılır. Qeyri-müəyyən faydalı istifadə müddətinin qiymətləndirilməsi qeyri-müəyyən istifadə müddətinin uyğun olmaqda davam edə biləcəyini müəyyən etmək üçün hər il nəzərdən keçirilir. İstifadə müddəti uyğun olmadıqda, istifadə müddəti sonrakı dövrdən etibarən qeyri-müəyyən müddətdən məhdud müddətə dəyişdirilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

*İnkişaf layihələri*

İnkişaf layihələri ilə bağlı çəkilmiş xərclər (yeni və ya təkmilləşdirilmiş məhsulların tərtibatı və sınaqdan keçirilməsinə aid olan) layihənin texniki-iqtisadi əsaslandırılmasını nəzərə alaraq gerçəkləşəcəyi ehtimal edildikdə və yalnız xərclər etibarlı şəkildə qiymətləndirilə bildikdə, qeyri-maddi aktivlər kimi uçota alınır. Tədqiqat və işlənmə fəaliyyəti ilə bağlı sair xərclər yarandığı dövrdə xərc kimi uçota alınır. Qeyri-maddi aktivlər dəyərsizləşdikdə, onların balans dəyəri bərpa dəyərinə azaldılır. İstifadəyə hazır olmayan qeyri-maddi aktivlər amortizasiya olunmur, lakin hər il dəyərsizləşmə baxımından yoxlanılır.

Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddətləri hər bir hesabat tarixində nəzərdən keçirilir və lazım olduqda onlara düzəlişlər edilir.

**Mənfəət vergisi**

Konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında mənfəət vergisi hesabat tarixinə qüvvədə olan və ya qüvvəyə minmiş müvafiq qanunvericiliyə uyğun olaraq hesablanmışdır.

Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya sair dövrdə vergi təsiri sair məcmu gəlirlərdə və ya bilavasitə kapitalda uçota alınan əməliyyatlar istisna olmaqla, mənfəət və ya zərər kimi əks etdirilir.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə bağlı vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və konsolidasiya edilmiş maliyyə hesabatlarında onların balans dəyəri arasında yaranan müvəqqəti fərqlər üçün tam hesablanır. Təxirə salınmış vergi aktivi, qüvvədə olan və ya hesabat tarixinə qüvvəyə minmiş vergi dərəcələrinə (və qanunvericiliyə) əsasən hesablanır və müvafiq təxirə salınmış vergi aktivinin realizasiya ediləcəyi və ya təxirə salınmış vergi öhdəliyinin yerinə yetiriləcəyi halda tətbiq edilməsi gözlənilir.

Təxirə salınmış vergi aktiv və öhdəliklərinin əvəzləşdirilməsi cari vergi aktivləri və cari vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq olduqda, eləcə də qalıqları xalis şəkildə əvəzləşdirmək niyyəti mövcud olduğu halda təxirə salınmış vergi aktiv və öhdəlikləri eyni vergi orqanı tərəfindən vergiyə cəlb edilən müəssisə və ya vergiyə cəlb edilən ayrı-ayrı müəssisələrə tətbiq edilmiş vergilərə aid olduqda həyata keçirilə bilər. Təxirə salınmış vergi aktivləri müvəqqəti fərqlərin istifadə oluna bilməsi üçün vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının mövcud olacağı zaman hesablanır.

Müvəqqəti fərqlərin istifadə oluna biləcəyi vergi tutula bilən mənfəətin mövcud olmaması və yaxın gələcəkdə müvəqqəti fərqin bərpa olunmayacağı ehtimalının mövcud olması halları istisna olmaqla təxirə salınmış mənfəət vergisi aktivi törəmə müəssisə, birgə və asılı müəssisələrə investisiyalar ilə əlaqədar yaranan çıxılan müvəqqəti fərqlər üzrə təqdim edilir.

Təxirə salınmış mənfəət vergisi öhdəliyi, Qrupun müvəqqəti fərqlərin bərpası dövrünə nəzarət etməsi və müvəqqəti fərqlərin yaxın gələcəkdə bərpa edilməməsi ehtimal olunan hallar istisna olmaqla, törəmə, birgə və asılı müəssisələrə investisiyaların qoyulmasından yaranan vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün hesablanır.

Mənfəət və ya zərərə daxil olmayan əməliyyatlara aid təxirə salınmış vergi ya sair məcmu gəlirdə, ya da birbaşa kapitalda tanınır.

Təxirə salınmış mənfəət vergisi, aktivlərin ləğv olunması üzrə öhdəliklər üçün ehtiyatın, eləcə də əmlak, tikili və avadanlıqların ilkin dəyəri üzrə müvafiq düzəlişlərin uçota alınması və sonrakı dövrdə qiymətləndirilməsindən yaranan müvəqqəti fərqlər, həmçinin istifadə hüququ olan aktivlər və icarə öhdəlikləri üzrə yaranan müvəqqəti fərqlər üçün tam şəkildə hesablanır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

**Mənfəət vergisindən başqa sair vergilər**

Mənfəət vergisindən başqa sair vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və xalis satış dəyəri arasında ən aşağı olan dəyərdə qeydə alınır. Maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Maya dəyərinə birbaşa alış xərcləri, hasilat xərcləri, nəqliyyat və istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir.

**Dövlət qrantları**

Dövlət qrantları onların Qrup tərəfindən alınması və Qrupun bu qrantlarla bağlı bütün şərtləri yerinə yetirəcəyi təqdirdə əsaslı əminlik yarandıqda ədalətli dəyərlə uçota alınır.

Əmlak, tikili və avadanlıqların alınması ilə bağlı alınmış Dövlət qrantlar uzunmüddətli öhdəliklərdə təxirə salınmış gəlir kimi uçota alınır və müvafiq aktivlərin gözlənilən faydalı istifadə müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən mənfəət və ya zərərdə gəlirə aid edilir.

Qrant xərc aid olduğu təqdirdə, kompensasiyası nəzərdə tutulan aidiyyəti xərclər məsrəflərə silindiyi dövrlər üzrə sistematik şəkildə gəlir kimi tanınır.

**Aktivlərin ləğv olunması üzrə öhdəliklər**

Qrup qurğu və ya avadanlığın bir hissəsinin sökülməsi və ya ləğv edilməsi və onların yerləşdiyi ərazini bərpa etməsi üzrə öhdəliyə malik olduqda və həmin öhdəliklə bağlı əsaslı təxminlər irəli sürüldükdə aktivlərin silinməsi ilə bağlı xərclər üzrə öhdəliklər uçota alınır. Neft və təbii qazın hasilatı və ya nəqli üçün nəzərdə tutulan qurğular kimi yeni qurğularla bağlı öhdəliklər tikinti və ya quraşdırılma zamanı uçota alınır. Aktivlərin ləğv olunması üzrə öhdəlik qanunvericilikdə baş vermiş dəyişiklik ilə əlaqədar olaraq qurğunun istismar dövrü ərzində yarana bilər. Uçota alınmış məbləğ yerli şərait və tələblərə uyğun olaraq müəyyən edilmiş gözlənilən gələcək xərclərin cari dəyərini əks etdirir.

Bundan əlavə, əmlak, tikili və avadanlıqların maya dəyərində aktivlərin ləğv olunması üzrə öhdəliklər üçün təxmin edilən öhdəliklərin məbləği həcmində düzəliş aparılır.

Gələcək xərclərin məbləği və müddəti ilə bağlı təxminlərdəki dəyişikliklərə görə öhdəliyin cari dəyərində baş vermiş hər hansı dəyişiklik ehtiyat və əmlak, tikili və avadanlıqlar üzrə kapitallaşdırılmış müvafiq xərclərə düzəliş kimi göstərilir. Tamamilə köhnəlmiş qurğu və ya avadanlığın sökülməsi və ya ləğv edilməsi üçün gələcək xərclərin məbləği və müddəti ilə bağlı təxminlərdəki dəyişikliklər mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda uçota alınır. Diskontlaşdırılmış dəyərə düzəliş nəticəsində öhdəliyin cari dəyərində baş vermiş dəyişikliklər mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda maliyyə xərcləri kimi göstərilir.

**Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar**

Öhdəliklər və məsrəflər üzrə ehtiyatlara qeyri-müəyyən müddət və ya məbləğə malik olan öhdəliklər daxildir. Qrup keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəliklərə malik olduqda, həmin öhdəliklərin yerinə yetirilməsi üçün Qrupdan iqtisadi resursların sərf olunmasının ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ölçülə bildikdə ehtiyatlar uçota alınır. Ehtiyatlar gələcək əməliyyat zərərləri üçün uçota alınmır.

Bir sıra analoji öhdəliklər mövcud olduqda, həmin öhdəliklərin yerinə yetirilməsi məqsədilə resursların sərf olunması ehtimalı ümumilikdə bütün öhdəliklər üçün müəyyən edilir. Ehtiyat, hətta öhdəlik ilə eyni sinfə daxil olan hər-hansı bir ayrıca maddə üzrə resursların sərf olunması ehtimalı az olduqda belə qeydə alınır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

## 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

Ehtiyatlar vergidən əvvəl faiz dərəcəsindən istifadə etməklə, öhdəliyin yerinə yetirilməsi üçün zəruri olan xərclərin cari dəyəri ilə qiymətləndirilir. Vergidən əvvəl faiz dərəcəsi pul vəsaitlərinin vaxt dəyəri üzrə cari bazar qiymətlərini və öhdəliklərə xas olan riskləri əks etdirir. Vaxtın keçməsinə görə ehtiyatlardakı artım faiz xərcləri kimi uçota alınır.

**Dövlətə ayırmalar**

Dövlətə ayırmalar Dövlətin xüsusi qərarlarına uyğun olaraq dövlət büdcəsinə, ayrı-ayrı dövlət agentliklərinə və Dövlətin həyata keçirdiyi layihələrə Qrup tərəfindən pul şəklində qoyuluşları və ya maliyyələşdirməni əks etdirir. Bu cür ayırmalar kapitalın azalması kimi uçota alınır. Pul şəklində olmayan ayırmalar köçürülmüş aktivlərin balans dəyərində qeydə alınır.

**Dövlətin ayırmaları**

Dövlətin ayırmaları pul qoyuluşları, sair dövlət müəssisələrinin köçürülməsi və ya Dövlətin sair müəssisələrdəki payının bütövlüklə və ya qismən köçürülməsi formasında həyata keçirilir. Qrupa dövlət müəssisələrinin köçürülməsi keçirilən müəssisənin ədalətli dəyəri olan məbləğdə kapital hesabatı vasitəsilə qoyuluş kimi tanınır.

**Əlavə Dəyər Vergisi**

Vergi orqanları satış və alış əməliyyatları üzrə əlavə dəyər vergisinin ("ƏDV") xalis ödənilməsinə icazə verir.

*ƏDV üzrə kreditor borcu*

ƏDV üzrə kreditor borcu hesabat tarixində əvəzləşdirilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla satış üzrə ƏDV məbləğidir. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, 1 yanvar 2020-ci il tarixindən etibarən satışlarla bağlı ƏDV ödənişin alınmasından sonra vergi orqanlarına ödənilməlidir. Debitor borclarının dəyərsizləşməsi üzrə GKZ uçota alındıqda, dəyərsizləşmə zərəri lazım olduqda ƏDV daxil olmaqla, debitor borcunun ümumi məbləğində qeydə alınır. ƏDV üzrə müvafiq təxirə salınmış öhdəlik vergi məqsədləri üçün debitor borcu silinənə qədər saxlanılır.

Müştərilərdən artıq toplanmış olan satışlara aid ƏDV və artıq ödənilmiş olan alışlara aid ƏDV maliyyə vəziyyəti haqqında hesabatda xalis əsasla tanınır və aktiv və ya öhdəlik kimi açıqlanır. Hesabat tarixinə ödənilməmiş satışlara aid ƏDV (ƏDV-nin hesablanması) ƏDV üzrə ödəniləcək məbləğlərə daxil edilir.

*Büdcədən tələb edilə bilən ƏDV*

Büdcədən tələb edilə bilən ƏDV hesabat tarixində əvəzləşdirilməmiş alışlara aiddir. Büdcədən tələb edilə bilən ƏDV alışlar üçün ödəniş aparıldıqda satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər.

Şah Dəniz, Abşeron, AÇG HPBS, Qarabağ və Ümid Babək yataqlarına dair Risk Xidməti Sazişinə (RXS) əsasən mal və xidmətlər təchizatçılarının karbohidrogen fəaliyyətləri ilə bağlı Azərbaycan (Şah Dəniz) Ltd, SOCAR Abşeron MMC, Azərbaycan AÇG Ltd, SOCAR Qarabağ MMC və "Umid, Babek Exploration and Production Company"yə ("UBEP") çatdırılan mallar və göstərilən xidmətlərə sıfır faiz ƏDV tətbiq edilməlidir, o şərtlə ki, müvafiq şirkətlər uyğun qaydada vergi orqanlarından ƏDV-nin ödənilməsindən azad edilmə haqqında şəhadətnamə alsınlar.

**Müştərilərlə müqavilələrdən əldə edilən gəlirlərin uçotu**

Qrupun biznesi neft və qaz məhsulları, karbohidrogen məhsulları və təbii qaz həcmlərinin satışı, eləcə də əsasən tikinti xidmətlərinin göstərilməsindən ibarətdir. Müştərilərlə müqavilələrdən əldə edilən gəlirlər mallar və ya xidmətlər üzrə nəzarət Qrupun həmin malları və ya xidmətlərin müqabilində gözlədiyi ödənişi əks etdirən məbləğdə müştəriyə köçürüləndə tanınır.

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

Xam neftin satışından yaranan gəlirlər adətən neftin tankerə və ya sair nəqliyyat vasitələrinə yükləndiyi zaman qeydə alınır. Neft məhsullarının satışından yaranan gəlirlər adətən məhsulların yükləndiyi zaman qeydə alınır. Təbii qazın satışından yaranan gəlirlər qaz sayğaclarındakı göstəricilərə (hər ay nəzarət edilir) və sonuncu göstəricidən hesabat dövrünün sonuna qədər istehlakçıların proqnozlaşdırılan qaz sərfiyyatına əsasən hesablanır. Təbii qazın qiyməti və qazın nəqli tarifləri Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən müəyyən edilir. Tikinti əməliyyatlarından əldə edilən gəlirlər müştərilərlə müqavilələrin şərtlərindən asılı olaraq konkret vaxt və ya müddət ərzində tanınır.

Faiz gəlirləri effektiv faiz metodundan istifadə etməklə maliyyələşdirmə vaxtına proporsional şəkildə gəlirə daxil edilir.

**Dəyişkən ödəniş**

Müqavilədə vəd edilən ödənişə dəyişkən məbləğ daxil olarsa, Qrup vəd edilmiş malların və ya xidmətlərin müştəriyə ötürülməsi əvəzində ala biləcəyi vəsaitlərin məbləğini hesablamalıdır.

Qrup əldə edəcəyi dəyişkən ödəniş məbləğini onu daha yaxşı proqnozlaşdıran aşağıdakı metodlardan birini istifadə etməklə hesablamalıdır:

- Gözlənilən dəyər – gözlənilən dəyər mümkün ödəniş məbləğləri həddində ehtimal üzrə ölçülmüş məbləğlərin cəmini əks etdirir. Qrupun böyük sayda eyni tipli müqavilələri olarsa, gözlənilən dəyər dəyişkən ödənişin müvafiq təxmini ola bilər.
- Ən çox ehtimal olunan məbləğ – mümkün ödəniş həddində ən çox ehtimal olunan məbləğdir (yəni müqavilənin ən çox ehtimal olunan yeganə nəticəsi). Müqavilənin yalnız iki mümkün nəticəsi olarsa (məsələn, Qrup işin nəticələrinə görə mükafat alır və ya almır), ən çox ehtimal olunan məbləğ dəyişkən ödənişin məbləğinin müvafiq təxmini ola bilər.

Qrup ən uyğun metodu müqavilənin xüsusi faktları və şəraitləri əsasında seçir.

Qrup seçdiyi metodu müqavilənin müddəti ərzində ardıcıl olaraq dəyişkən ödənişin hər bir növünə tətbiq edir və hər bir hesabat dövrünün sonunda ehtimal edilən dəyişkən ödənişi yeniləyir. Bir müqavilə daxilində dəyişkən ödənişlərin müxtəlif növlərinin hesablanması üçün Qrup müxtəlif metodlardan (məs. Gözlənilən dəyər və ya ən çox ehtimal olunan məbləğ) istifadə edə bilər.

**Mühüm maliyyələşdirmə komponenti**

Bəzi əməliyyatlar üçün, ödənişin alınması məhsulların və ya xidmətlərin müştəriyə ötürülməsi vaxtı ilə üst-üstə düşmür (məsələn, avans ödəniş edilir və ya ödəniş xidmətlərin göstərilməsindən sonra edilir). Müştəri dövrün sonunda ödəniş etdikdə, Qrup faktiki olaraq müştəriyə maliyyələşdirmə təqdim edir. Əksinə, müştəri avans ödəniş etdikdə, Qrup faktiki olaraq müştəridən maliyyələşdirmə alır.

15 saylı MHBS-yə əsasən, əməliyyat qiymətini müəyyən edərkən, Qrup pulun zaman dəyərinin təsirini nəzərə alaraq vəd edilmiş ödəniş məbləğinə o halda düzəliş edir ki, müqavilə tərəflərinin razılaşdırdığı (dəqiq və ya nəzərdə tutulmuş şəkildə) ödəniş müddətləri malların və ya xidmətlərin müştəriyə ötürülməsinin maliyyələşdirilməsi nəticəsində müştərinin və ya Qrupun mühüm fayda əldə etməsini təmin etmiş olsun. Belə hallarda, müqavilə mühüm maliyyələşdirmə komponentini ehtiva etdirir. Mühüm maliyyələşdirmə komponenti maliyyələşdirmə vədinin müqavilədə aydın şəkildə bəyan edilməsindən və ya müqavilə tərəflərinin razılaşdırdığı ödəniş şərtlərində nəzərdə tutulmasından asılı olmayaraq mövcud ola bilər.

**Müqavilə qalıqları**

*Müqavilə aktivləri*

Müqavilə aktivləri Qrupun müştəriyə ötürdüyü mal və ya xidmətlər müqabilində aldığı ödəniş məbləği üçün onun konkret müddətin bitməsindən başqa digər bir səbəbdən (məsələn, müəssisənin gələcək fəaliyyətindən) asılı olan hüququdur. Qrupun müqavilə aktivləri “Sair cari aktivlər” sətrində təqdim edilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

*Müqavilə öhdəlikləri*

Müqavilə öhdəliyi müştəri tərəfindən ödənişi edilmiş (və ya ödənişinin vaxtı çatmış) mal və ya xidmətlərin müştəriyə ötürülməsi ilə bağlı Qrupun öhdəliyidir.

**Qaytarılma hüququndan irəli gələn aktivlər və öhdəliklər**

*Qaytarılma hüququ olan aktivlər*

Qaytarılma hüququ olan aktiv Qrupun müştərilər tərəfindən qaytarılacağı gözlənilən malların geri qaytarılması hüququdur. Aktiv malların geri qaytarılması üzrə hər hansı gözlənilən məsrəflər, o cümlədən qaytarılan malların dəyərində potensial azalmalar çıxılmaqla mal-material ehtiyatlarının keçmiş balans dəyəri ilə ölçülür. Qrup gözlənilən qaytarılma səviyyəsində hər hansı dəyişikliklər üçün qeydə alınan aktivin, eləcə də qaytarılan malların dəyərində hər hansı əlavə azalmaların ölçülməsini yeniləyir.

*Əvəzin ödənilməsi öhdəliyi*

Əvəzin ödənilməsi öhdəliyi müştəridən alınmış (və ya alınacaq) bəzi və ya bütün ödənişlərin əvəzinin ödənilməsi öhdəliyidir və Qrupun müştəriyə qaytarmalı olacağı gözlənilən məbləğdə ölçülür. Qrup əvəzin ödənilməsi ehtimallarını (və əməliyyat qiymətində müvafiq dəyişikliyi) hər hesabat dövrünün sonunda yeniləyir.

**Əsas tərəfin və vasitəçinin vəzifəsi**

Qrupun əsas tərəf və ya vasitəçi kimi çıxış etməsinin müəyyən edilməsi Qrupun tanıdığı gəlirlərin məbləğinə təsir göstərir. Qrup vəd edilmiş malı və ya xidməti müştəriyə köçürdükdən əvvəl onlara nəzarət etdiyi halda əsas tərəfdir (və müvafiq olaraq gəlirləri ümumi əsasla qeydə alır).

Qrup mallar və xidmətlərin cəlb olunmuş digər müəssisə tərəfindən çatdırılmasını təşkil edəndə vasitəçi olur (və buna görə də gəlirləri vasitəçi xidmətləri üçün saxladığı xalis məbləğdə əks etdirir).

**Overlift və anderlift mövqelərinin uçotu**

Qrupun birgə əməliyyatların səhmdar kapitalında payları mövcuddur. Qeyd edilən birgə razılaşmalarda Qrup overlift və anderlift mövqelərində ola bilər. Qrup onun birgə əməliyyatda olan payına əsasən hüququ çatdığı saydan artıq məhsul götürüb müştəriyə satarsa, overlift mövqeyində olur. Qrup onun birgə əməliyyatda olan payına əsasən hüququ çatdığı saydan az məhsul götürüb müştəriyə satarsa, o, anderlift mövqeyində olur.

Qrup 15 saylı MHBS əsasında müştərilərlə müqavilələrdən gəliri həmin dövrdə faktiki müştərilərə satışlar əsasında tanıyır. Məhsulun cari tarixədək faktiki olaraq satılan həcmi və Qrupun cari tarixədək satmaq hüququ olan məhsulun payı arasındakı qeyri-bərabərliyin uçota alınması üçün düzəliş edilməmişdir.

İstehsal xərclərinin tanındığı həcmləri satılan həcmlərlə (gəlirləri 15 saylı MHBS əsasında tanınan) uyğunlaşdırmaq üçün Qrup istehsal xərclərinə düzəlişlər edir.

Qrup fiziki hesablaşmanı tətbiq edir. Fiziki hesablaşma halında:

- Overlift öhdəliyi 37 saylı *“Ehtiyatlar, Şərti Öhdəliklər və Şərti Aktivlər”* adlı MUBS-a uyğun olaraq qeydə alınır. Overlift öhdəliyi maya dəyəri ilə uçota alınır.
- Underlift aktivi Qrupa digər iştirakçıdan müəyyən həcmdə məhsul almaq hüququnu verir. Bu hüquq əvvəlcədən ödənilmiş malların alınmasına dair forvard müqaviləsinə bərabərdir və ya əlavə fiziki mal-materiallar üzrə hüquq təşkil edir və beləliklə 2 saylı *“Mal-material ehtiyatları”* adlı MUBS tətbiq edilir. Anderlift aktivi daha aşağı maya dəyəri və ya xalis mümkün satış dəyəri ilə ölçülür.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

**İşçilərə ödənişlər**

Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar (məsələn səhiyyə xidmətləri və uşaq bağçaları) Qrupun işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

**Seqmentlər üzrə məlumat**

Əməliyyat seqmentləri haqqında məlumat daxili hesabat qaydalarına əsasən əməliyyat məsələləri ilə bağlı Qrupun əsas qərar qəbul edən şəxsinə təqdim edildiyi formatda göstərilir. Qrup aşağıdakı kəmiyyət hüdudlarından hər hansı birinə uyğun gələn əməliyyat seqmenti haqqında məlumatları ayrıca təqdim etməlidir:

- Kənar müştərilərə satışlar və seqmentlərarası satışlar və transfertlər də daxil olmaqla, bəyan edilmiş gəlirləri bütün əməliyyat seqmentlərinin daxili və xarici gəlirləri daxil olmaqla məcmu gəlirlərinin 10 və ya daha artıq faizini təşkil edir.
- Hesabatda göstərilmiş mənfəət və ya zərərin mütləq məbləği, bəyan edilmiş zərəri olmayan bütün əməliyyat seqmentlərinin hesabatda təqdim edilmiş məcmu mənfəətin və bəyan edilmiş zərəri olan bütün əməliyyat seqmentlərinin hesabatda təqdim edilmiş məcmu zərərin mütləq məbləğlərindən ən yüksək olanının 10 və ya daha artıq faizini təşkil edir.
- Onun aktivləri əməliyyat seqmentlərinin məcmu aktivlərinin 10 və ya daha artıq faizini təşkil edir.

Yuxarıda göstərilən əməliyyat seqmentlərini yaratmaq üçün heç bir əməliyyat seqmentləri cəmləşdirilməmişdir.

**Əlaqəli tərəflər**

Əlaqəli tərəflər haqqında məlumat MUBS 24-ə *"Əlaqəli tərəflər barədə açıqlamalar"* uyğun olaraq açıqlanır.

Dövlətin iqtisadi və sosial siyasəti Qrupun maliyyə vəziyyətinə, əməliyyat nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsir edir. Dövlət tərəfindən Qrupun üzərinə Azərbaycan Respublikasındakı müştərilərə dövlətin nəzarət etdiyi qiymətlərlə davamlı olaraq neft və qaz təchiz etmək öhdəliyi qoyulmuşdur. Dövlətlə əməliyyatlara Qeyd 21-də göstərilən vergilər daxildir.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər.

Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

**Maraqların ötürülməsi haqqında müqavilələr**

Qrupun maliyyələşdirilən tərəf kimi iştirak etdiyi maraqların ötürülməsi haqqında müqavilə maliyyələşdirən tərəfin hər iki tərəfin iştirak payı olduğu layihədə maliyyələşdirilən tərəfin hasilatdan əvvəlki xərclərinin bir hissəsini və ya hamısını ödəmək üçün razılaşdığı müqavilədir. Layihə uğursuz olduqda, maliyyələşdirən tərəfin maliyyələşdirilən tərəfin adından çəkdiyi xərclər ona ödənilmir. Layihə uğurlu olarsa, maliyyələşdirən tərəfin çəkdiyi xərclər maliyyələşdirilən tərəfə aid olan hasilatdakı pay üzrə daxilolmalardan nağd pul şəklində və ya maliyyələşdirilən xərclər tam bərpa edilənə qədər hasilatdan qeyri-proporsional yüksək pay əldə etməklə ödənilir.

Maraqların ötürülməsi haqqında müqavilələrin şərtlərindən asılı olaraq, Qrup həmin müqavilələri maliyyələşdirmə müqaviləsi və ya alqı-satqı müqaviləsi kimi tanıyır.

Maliyyələşdirmə müqavilələrində maliyyələşdirən tərəfin maliyyələşdirilən tərəfi maliyyə vəsaiti ilə təmin etməsi və təmin edilmiş vəsaitlər üzrə borcverəndən faiz alması ehtimal edilir. Bu halda əlavə hasilat hüququ müqaviləni dəstəkləyən təminat kimi çıxış edir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

Alqı-satqı müqaviləsində maliyyələşdirilən tərəf effektiv olaraq layihədəki payını tam və ya qismən maliyyələşdirən tərəfə satır. Layihə uğurlu olduğu təqdirdə, maliyyələşdirən tərəfin daxilolmalardakı payının artması müqabilində layihəni maliyyələşdirməsi tələb olunur və maliyyələşdirilən tərəfin daxilolmalardakı payı azalır. Qrupun hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınmış alış/satış tipli razılaşması yoxdur.

Layihələrin kəşfiyyat mərhələsində layihələrin nəticələri və maliyyələşdirən tərəfin maliyyələşdirilən tərəfin adından çəkilmiş xərcləri qaytarması ehtimalı qeyri-müəyyən olduqda, Qrup maraqların ötürülməsi ilə bağlı əməliyyatları və qalıqları konsolidasiya edilmiş maliyyə hesabatlarında qeydə almır.

**Biznes olmayan törəmə müəssisənin alınması**

Qrup biznes olmayan müəssisə əldə etdikdə, əldə etmə dəyərini əldə olunan müəssisənin fərdi müəyyən edilə bilən aktiv və öhdəlikləri arasında aşağıdakı kimi bölüşdürür:

- İlkin olaraq maya dəyərindən fərqli olan məbləğdə qiymətləndirilmiş fərdi müəyyən edilə bilən aktiv və öhdəliklər üçün müəssisə ilkin olaraq həmin aktiv və ya öhdəliyi tətbiq olunan MHBS standartında qeyd olunan məbləğ ilə qiymətləndirir;
- Müəssisə ilkin olaraq maya dəyərindən fərqli olan məbləğ ilə qiymətləndirilmiş müəyyən edilə bilən aktiv və öhdəliklərə aid edilən məbləğləri əldə olunan müəssisənin əməliyyat qiymətindən çıxır və sonra qalıq əməliyyat qiymətini qalan müəyyən edilə bilən aktiv və öhdəliklərə onların əldə olunma tarixinə olan müvafiq ədalətli dəyərlərinə əsaslanaraq aid edilir.

*Biznes olmayan törəmə müəssisənin tədricən alınması*

Əvvəllər asılı və birgə müəssisələrə ("investisiya obyekti") investisiya kimi uçota alınmış törəmə müəssisənin tədricən alınması kapital metodu əsasında balans dəyəri olan məbləğlə (bu məbləğ investisiya obyektində ilkin dəyərə aiddir) tanınır və həmin məbləğə investisiya obyekti üzərində nəzarət əldə etmək üçün Qrupun əlavə investisiyalarının dəyəri ("fərz edilən" ilkin dəyər) əlavə edilir. İnvestisiya obyekti üzərində nəzarətin əldə olunmasından sonra, o, Qrupun törəmə müəssisəsi olur və fərz edilən ilkin dəyər biznes olmayan müəssisənin əldə olunması üçün tətbiq edilən eyni yanaşmanı istifadə etməklə törəmə müəssisənin fərdi müəyyən edilə bilən aktiv və öhdəliklərinə aid edilir.

**Satış və ya əsas şirkətin kapital sahiblərinə paylanması üçün saxlanılan uzunmüddətli aktivlər və dayandırılmış əməliyyatlar**

Uzunmüddətli aktivlərin və satılıq əməliyyat qruplarının balans dəyəri istifadənin davam etdirilməsi deyil satış əməliyyatı nəticəsində bərpa olunacaqsa, Şirkət onları satış və ya əsas şirkətin kapital sahiblərinə paylanması üçün saxlanılan aktivlər kimi təsnif edir. Satış və ya paylanma üçün saxlanılan bu cür uzunmüddətli aktivlər və satılıq əməliyyat qrupları onların balans dəyəri və ya satış xərcləri çıxılmaqla ədalətli dəyəri ilə (hansı daha az olarsa) ölçülür.

Paylanma üçün saxlanılan aktivlər kimi təsnif etmə meyarı yalnız paylanma ehtimalı yüksək olanda və aktiv və ya satılıq əməliyyat qrupu cari vəziyyətində dərhal paylanmaq üçün hazır olanda yerinə yetirilmiş hesab olunur. Paylamanı başa çatdırmaq üçün görülmüş tədbirlər onu göstərməlidir ki, paylanmaya əhəmiyyətli dəyişikliklərin edilməsi və ya həmin paylanma haqqında qərarın ləğv edilməsi ehtimalı yoxdur. Rəhbərlik təsnifat tarixindən bir il ərzində gözlənilən paylanmanı həyata keçirmək öhdəliyini daşıyır.

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər satış və ya paylanma üçün saxlanılan aktivlər kimi təsnif edilərsə, onlarla əlaqəli köhnəlmə və ya amortizasiya hesablanmır. Satış və ya paylanma üçün saxlanılan aktivlər və öhdəliklər kimi təsnif edilmiş maddələr maliyyə vəziyyəti haqqında hesabatda ayrıca olaraq əks etdirilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.3 Mühüm uçot prinsiplərinin icmalı (davamı)

Satılıq əməliyyat qrupu aşağıdakı hallarda dayandırılmış əməliyyatlar kateqoriyasına aid edilir:

- Ayrıca əsas fəaliyyət növü və ya əməliyyatların coğrafi ərazisidir;
- Ayrıca əsas fəaliyyət növü və ya əməliyyatların coğrafi ərazisini silmək üçün vahid əlaqələndirilmiş planın bir hissəsidir; və ya
- Yalnız yenidən satmaq məqsədilə əldə edilmiş törəmə müəssisədir.

Dayandırılmış əməliyyatlar davam edən əməliyyatların nəticələrindən çıxarılır və mənfəət və ya zərər haqqında hesabatda dayandırılmış əməliyyatlardan vergidən sonra əldə edilmiş mənfəət və ya zərər kimi vahid məbləğ formasında təqdim edilir. Konsolidasiya edilmiş maliyyə hesabatlarına bütün qeydlərə davam edən əməliyyatlardan məbləğlər daxildir.

### 2.4 Uçot prinsiplərində və açıqlamalarında dəyişikliklər

**Yenidən təsnifləşdirmə və uçot prinsiplərində könüllü dəyişikliklər**

31 dekabr 2020-ci il tarixinə və həmin tarixdə başa çatan il üzrə maliyyə hesabatlarını hazırlayarkən Qrup aşağıdakı yenidən təsnifləşdirmələr etmişdir:

*a) Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üzrə öhdəliklər*

Əvvəlki hesabat dövrlərində, Qrup əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üzrə öhdəliklərin qısamüddətli və uzunmüddətli hissəsini öhdəliklər və xərclər üçün sair ehtiyatların cari və uzunmüddətli hissəsində məcmu şəkildə göstərmişdir. Cari ildə, Qrup bu öhdəlikləri müvafiq olaraq ticarət və sair kreditor borcları və sair uzunmüddətli öhdəliklər tərkibində təqdim etmək qərarını vermişdir.

*b) Əks faktorinq razılaşmaları*

İş fəaliyyətinin adi gedişində Qrup maliyyə təşkilatları ilə əks faktorinq razılaşmaları bağlayır. Həmin razılaşmalara əsasən maliyyə təşkilatı Qrupun alınmış mallara görə təchizatçılara ödəməli olduğu məbləğləri hesab-fakturada göstərilən ödəniş tarixində ödəyir. Qrup bu məbləğlərin əvəzini hesablanmış faizlə birlikdə təchizatçıların maliyyə təşkilatlarından ödəniş aldıqları tarixdən sonra maliyyə təşkilatına ödəməyə razılıq verir.

Əvvəlki illərdə, Qrup əks faktorinq razılaşmaları ilə bağlı qalıqları ticarət və sair kreditor borclarında göstərmişdir. Müvafiq olaraq, əks faktorinq razılaşmaları ilə bağlı pul vəsaitlərinin hərəkəti Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarında əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti daxilində göstərilmişdir. 2020-ci ilin dekabr ayında BMHŞK-nin qərarı dərc edildikdən sonra Qrup tərəfi olduğu əks faktorinq razılaşmalarının qayda və şərtlərini təhlil etmiş və bu razılaşmalarla bağlı öhdəliklər və pul vəsaitlərinin hərəkətinin təqdim edilməsi üzrə uçot prinsiplərini dəyişmək qərarına gəlmişdir.

Yeni uçot siyasətinə əsasən əks faktorinq razılaşmalarından irəli gələn qalıqlar qısamüddətli borc öhdəlikləri kimi təqdim edilir və əlaqəli pul vəsaitlərinin hərəkəti konsolidasiya edilmiş maliyyə hesabatlarında aşağıdakı kimi təqdim edilir:

- Maliyyə müəssisələri təchizatçılara ödəniş etdiyi tarixdə − həm maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti bölməsində maliyyə təşkilatlarına pul vəsaitlərinin mədaxili, həm də əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti bölməsində təchizatçılar üzrə pul vəsaitlərinin məxarici; və
- Qrup maliyyə müəssisələrinə ödəniş etdiyi tarixdə − maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti bölməsində pul vəsaitlərinin məxarici kimi.

Rəhbərlik hesab edir ki, yeni uçot prinsipi əvvəlki ilə müqayisədə daha uyğundur, çünki əməliyyatların mahiyyəti və iqtisadi reallığını daha dəqiq əks etdirir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.4 Uçot prinsiplərində və açıqlamalarında dəyişikliklər (davamı)

Bu nəticəyə gəlmək üçün rəhbərlik aşağıdakıları nəzərə almışdır:

- Maliyyə təşkilatlarının təchizatçıya ödənişlər etməsindən sonra Qrup hüquqi olaraq təchizatçı qarşısındakı öhdəliklərdən azad edilir;
- Razılaşmalar Qrupu uzadılmış kredit müddətləri ilə təmin edir;
- Razılaşmalara əsasən tutulan faizlər təchizatçılardan gecikdirilmiş hesab-fakturalar üzrə ödəniləcək faiz dərəcələri deyil, Qrupun maliyyə təşkilatlarından qısamüddətli kreditlər üzrə ümumi faiz dərəcələrinə uyğundur;
- Razılaşmalar Qrupun əlavə pul vəsaitlərini borclanma qabiliyyətini məhdudlaşdırır, yəni mövcud kredit xətti limitlərini azaldır;
- Razılaşmaların şərt və müddəaları maliyyə təşkilatları və Qrup (alıcı) arasında razılaşdırılır və Qrup maliyyə təşkilatı qarşısındakı öhdəliyini ödəmədiyi halda həmin maliyyə təşkilatının təchizatçıdan bu ödənişi tələb etmək hüququ yoxdur.

Bundan əlavə, bu razılaşma Qrupa maliyyə təşkilatından birbaşa öz hesabına ödəniş aparılmasını tələb etməyə və daha sonra bu vəsaitləri dərhal təchizatçıya ödəməyə icazə verir. Rəhbərlik hesab edir ki, pul vəsaitlərinin hərəkətinin təqdimatı yalnız vəsaitlər təchizatçıya köçürüldükdən əvvəl pul vəsaitlərini bank hesabına qəbul etmək hüququndan istifadə edib-etməməyə qərar verməsindən asılı olmamalıdır, çünki rəhbərlik, hansı köçürmə üsulunu seçməsindən asılı olmayaraq, iqtisadi cəhətdən vəsaitlərlə bağlı eyni hüquq və öhdəliklərə malikdir. Rəhbərlik hesab edir ki, aldığı vəsaitdən təchizatçıya ödənişlərin aparılmasından savayı digər məqsədlə istifadə edə bilməməsi həmin vəsaitlərin pul vəsaitləri kimi təsnif edilməsinə mane olmur. Bu, müəssisə tərəfindən yalnız müəyyən məqsəd və ya layihə üçün istifadə oluna bilən xüsusi kreditlərə tətbiq olunan yanaşmaya uyğundur. Rəhbərlik həmçinin pul vəsaitləri hərəkətinin “xalis” şəkildə təqdim edilməsinin (yəni maliyyə təşkilatı tərəfindən təchizatçıya ödənişin qeyri-nağd əməliyyat kimi qəbul edilməsinin) əməliyyat pul vəsaitlərinin hərəkətində “süni” artımla nəticələnəcəyini və bu səbəbdən həm eyni fəaliyyətlərdə iştirak edən (əks faktorinqdən istifadə etməyən) digər müəssisələr ilə müqayisə edilmə qabiliyyətini təhrif edəcəyini, həm də pul vəsaitlərinin hərəkəti haqqında hesabatda təqdim olunan məlumatların proqnoz dəyərini azaldacağını hesab edir.

Bundan əlavə rəhbərlik qeyd etmişdir ki, MHBS-də qarşı tərəfin adından pul vəsaitlərinin köçürməsini nəzərdə tutan əməliyyatlarda agent-əsas tərəf münasibətlərinin müəyyənləşdirilməsi üçün xüsusi göstəriş olmadığından, bu məsələ ümumi nəzarət anlayışı əsasında həll olunur. Beləliklə, vəsaitlər təchizatçıya köçürüldükdən əvvəl rəhbərliyin onlara nəzarət etdiyini nəzərə alaraq (bu fakt, ödənişlərin birbaşa təchizatçının cari hesabına deyil, Qrupun cari hesabına ödənilməsini tələb etmək hüququ ilə sübuta yetirilir), Qrup bu ödənişlər üçün faktiki olaraq əsas tərəf, maliyyə təşkilatı isə onun agenti kimi çıxış edir. Bu hal, Qrupun müqavilə əsasında öz cari hesabına pul vəsaitlərini qəbul etmək hüququ olmadığı hallardan fərqlənir.

Keçən hesabat illərində yenidən təsnifləşdirmənin və uçot prinsiplərində könüllü dəyişikliklərin nəticələri aşağıda təqdim olunur:

*31 dekabr 2019-cu il tarixi üzrə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat*

| | **Əvvəlki hesabat üzrə** | **a** | **b** | **Yenidən təsnifləşdirilmiş** |
|---|---|---|---|---|
| Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatlar (cari) | 75 | (21) | – | 54 |
| Ticarət və sair kreditor borcları | 11,334 | 21 | (514) | 10,841 |
| Qısamüddətli və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | 4,173 | – | 514 | 4,687 |
| **Cəmi cari öhdəliklər** | **17,283** | **–** | **–** | **17,283** |
| Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatlar (uzunmüddətli) | 163 | (117) | – | 46 |
| Sair uzunmüddətli öhdəliklər | 881 | 117 | – | 998 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **23,764** | **–** | **–** | **23,764** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 2. Mühüm mühasibat uçotu prinsipləri (davamı)

### 2.4 Uçot prinsiplərində və açıqlamalarında dəyişikliklər (davamı)

*31 dekabr 2019-cu il tarixi üzrə konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat*

| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | **Əvvəlki hesabat üzrə** | **a** | **b** | **Yenidən təsnifləşdirilmiş** |
|---|---|---|---|---|
| Ehtiyatlarda dəyişiklik | 85 | (29) | − | 56 |
| Ticarət və sair kreditor borcları və müqavilə öhdəliklərində azalma | (417) | 4 | (1) | (414) |
| Sair aktivlər və öhdəliklərdə dəyişiklik | 205 | 25 | − | 230 |
| **Əməliyyatlar fəaliyyətlərindən daxil olan xalis pul vəsaitləri** | **3,067** | **−** | **(1)** | **3,066** |

| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | **Əvvəlki hesabat üzrə** | **a** | **b** | **Yenidən təsnifləşdirilmiş** |
|---|---|---|---|---|
| Borc öhdəliklərindən daxilolmalar | 6,744 | − | 526 | 7,270 |
| Borc öhdəliklərinin geri qaytarılması | (4,869) | − | (525) | (5,394) |
| **Maliyyə fəaliyyətlərindən daxil olan xalis pul vəsaitləri** | **1,592** | **−** | **1** | **1,593** |

*31 dekabr 2018-ci il tarixi üzrə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat*

| | **Əvvəlki hesabat üzrə** | **a** | **b** | **Yenidən təsnifləşdirilmiş** |
|---|---|---|---|---|
| Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatlar (cari) | 56 | (15) | − | 41 |
| Ticarət və sair kreditor borcları | 11,780 | 15 | (573) | 11,222 |
| Qısamüddətli və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | 4,013 | − | 573 | 4,586 |
| **Cəmi cari öhdəliklər** | **17,367** | **−** | **−** | **17,367** |
| Öhdəliklər və məsrəflər üzrə sair ehtiyatlar (uzunmüddətli) | 152 | (85) | − | 67 |
| Sair uzunmüddətli öhdəliklər | 910 | 85 | − | 995 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **20,825** | **−** | **−** | **20,825** |

## 3. Əhəmiyyətli uçot təxminləri və mülahizələri

Qrupun MHBS-yə uyğun maliyyə hesabatlarının hazırlanması rəhbərlik tərəfindən mühakimə, qiymətləndirmə və fərziyyələrin işlədilməsini tələb edir, bu isə maliyyə hesabatlarına daxil edilən gəlirlərin, xərclərin, aktivlərin və öhdəliklərin məbləğlərinə, maliyyə hesabatlarına əlavə edilən qeydlərə və şərti öhdəliklərin açıqlamasına öz təsirini göstərir. Bu fərziyyələr və təxminlərlə bağlı qeyri-müəyyənlik, təsirə məruz qalmış aktiv və ya öhdəliyin balans dəyərində gələcək dövrlərdə əhəmiyyətli düzəlişlərin edilməsinə gətirib çıxara bilər. Qrupun mühasibat uçotu siyasətlərinin tətbiq edilməsi prosesində rəhbərlik, konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınmış məbləğlərə əhəmiyyətli dərəcədə təsir göstərən mülahizələr etmişdir.

Növbəti maliyyə ilində aktiv və öhdəliklərin balans dəyərlərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan əhəmiyyətli risk yaradan, hesabat tarixində gələcəklə bağlı əsas fərziyyələr və qiymətləndirmə qeyri-müəyyənliyinin digər əsas mənbələri ilə əlaqədar başlıca ehtimallar aşağıda müzakirə olunur. Qrup qiymətləndirmə və fərziyyələrini maliyyə hesabatları hazırlandığı zaman mövcud olan parametrlərə əsaslandırmış və maliyyə hesabatlarında tanınmış məbləğlər müəyyən edildiyi zaman edilmiş qiymətləndirmə və fərziyyələri istifadə etmişdir. Lakin mövcud olan vəziyyət və gələcək dəyişikliklər haqqında fərziyyələr bazarda baş verən dəyişikliklərdən və ya Qrupun nəzarəti altında olmayan vəziyyətlərdən asılı olaraq dəyişə bilər. Həmin dəyişikliklər baş verdiyi zaman rəhbərliyin fərziyyələrində öz əksini tapır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

### 3. Əhəmiyyətli uçot təxminləri və mülahizələri (davamı)

**Neft və qaz ehtiyatlarının qiymətləndirilməsi**

Neft və qaz ehtiyatları Qrupun investisiya sahəsində qərar qəbul edilməsi prosesində əsas elementlərdir. Təsdiqlənmiş neft və qaz ehtiyatlarında, xüsusilə də təsdiqlənib işlənilmiş ehtiyatlarda baş vermiş dəyişikliklər mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əks olunan istehsal həcmindən asılı olaraq amortizasiya xərclərinə təsir göstərir.

Təsdiqlənmiş neft və qaz ehtiyatları mövcud iqtisadi və əməliyyat şəraitində (yəni qiymətləndirmə tarixinə qiymətlər və xərclər) geoloji və mühəndislik məlumatlarının gələcək illərdə məlum yataqlardan məsrəflərin ödənilməsini kifayət qədər əminliklə göstərdiyi xam neft və təbii qazın qiymətləndirilmiş miqdarıdır. Təsdiqlənib işlənilmiş ehtiyatlar dedikdə mövcud quyularda mövcud avadanlıqlar və onların istismar üsulları vasitəsi ilə bərpa edilməsi gözlənilə bilən ehtiyatlar başa düşülür. Neft və qaz ehtiyatlarının ilkin qiymətləndirmələri mahiyyət etibarı ilə qeyri-müəyyəndir və qazma və istehsal fəaliyyətləri, məhsul qiyməti, müqavilə şərtləri və inkişaf planları da daxil olmaqla iqtisadi amillərdə dəyişikliklər kimi yeni məlumatlara əsaslanaraq mülahizələrin tətbiq edilməsini tələb edir və gələcəkdə yenidən baxılmalıdır.

Müvafiq olaraq, təsdiqlənib işlənilmiş və ya təsdiqlənmiş ehtiyatlara əsaslanan maliyyə və uçot ölçüləri də (tükənmə və amortizasiya xərcləri və aktivlərin ləğv olunması üzrə öhdəliklər üçün ehtiyatlar) dəyişə bilər.

Ümumiyyətlə, işlənməmiş və ya qismən işlənmiş yataqlarla bağlı ehtiyatlar üzrə qiymətləndirmələr, işlənməmiş və ya tükənən yataqlara nisbətən, gələcək istismar müddəti ərzində daha böyük qeyri-müəyyənliyə məruz qalır.

Yataqda hasilat işləri başlandıqda, əlavə quyuların qazılmasına və ya hasilat şəraitində olan rezervuarın uzunmüddətli fəaliyyətinə dair əlavə məlumatlar əldə etdikdən sonra, təsdiqlənmiş ehtiyatların miqdarına gələcəkdə yenidən baxılmalıdır. Bu yataqlar işləndikcə, yeni məlumatlar dəyişikliklərə gətirib çıxara bilər.

SOCAR-ın təsdiqlənmiş ehtiyatları 31 dekabr 2020-ci il tarixinə olan ehtiyat hesabatına əsasən hazırlanmışdır. Bu hesabat Neft Ehtiyatlarının İdarə Edilməsi Sisteminin qaydalarına uyğun olaraq müstəqil rezervuar mühəndisləri tərəfindən hazırlanmışdır. Müəyyən aktivlər üçün təsdiq edilmiş ehtiyat daxili geoloqların qiymətləndirməsinə əsaslanır.

**Aktivlərin ləğv olunması üzrə öhdəliklər**

Qrupun hüquqi və təcrübədən irəli gələn öhdəlikləri ilə əlaqədar rəhbərlik neft və qaz hasilatı obyektlərinin, kəmərlərin və köməkçi avadanlıqların istismardan çıxarılması və bu aktivlərin gələcək dəyəri və faydalı istifadə müddətinə dair təxminlərə əsasən ətraf mühitin bərpası məqsədilə gələcək xərclər üçün ehtiyatlar yaradır. Gələcək aktivlərin ləğv olunması üzrə öhdəliklərin müəyyənləşdirilməsi mürəkkəb məsələdir və rəhbərlikdən uzaq gələcəkdə baş verəcək öhdəliklərin silinməsinə dair təxminlərin və mülahizələrin yaradılmasını tələb edir. Mövcud öhdəliklərin ölçüsündə baş verən dəyişikliklər təxmin edilmiş vaxt, gələcək xərclər və ya qiymətləndirmədə istifadə edilmiş diskont dərəcələrində baş verən dəyişikliklər nəticəsində yarana bilər. Bu xərclərin yataqların və əmlakların hesabat tarixindən sonra 7-62 il arasında olan istifadə müddəti üzrə çəkilməsi gözlənilir.

Qrup, aktivlərin ləğv olunması üzrə öhdəliklərini Beynəlxalq Maliyyə Hesabatları Şərhi Komitəsi (BMHŞK) 1, *"İstismardan Çıxarılma, Bərpa üzrə Mövcud və Oxşar Öhdəliklərdə Dəyişikliklər"* haqqında qaydalara uyğun olaraq qiymətləndirir. Ehtiyat kimi uçota alınmış məbləğ mövcud öhdəliyin hesabat tarixinə qüvvədə olan qanunvericiliyə və qaydalara uyğun olaraq yerinə yetirilməsi üçün tələb olunan məsrəflər üzrə ən dəqiq təxminləri əks etdirir və həmçinin qanunvericilik, qaydalar və onlara dair müvafiq şərhlərin dəyişdirilməsi və yenidən işlənməsi ilə əlaqədar olaraq dəyişə bilər. Hökumət orqanları ətraf mühitlə bağlı qanunvericiliyi və onun tətbiqini davamlı olaraq nəzərdən keçirir. Bu səbəbdən Qrupun aktivlərin ləğv olunması üzrə əsas öhdəlikləri uçota alınmış məbləğlərdən fərqli ola bilər. Bu şərtlərin subyektivliyini nəzərə alaraq belə xərclərin məbləği və yaranma müddəti ilə bağlı qeyri-müəyyənlik mövcuddur. Ehtimal edilən aktivin ləğv olunması öhdəliklərinin məbləğinin ölçülməsi və həssaslığın təhlili üçün istifadə edilən əsas fərziyyələr 22 saylı Qeyddə açıqlanır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 3. Əhəmiyyətli uçot təxminləri və mülahizələri (davamı)

### Ətraf mühitin qorunması ilə bağlı öhdəliklər

Qrup yaranmasından əvvəlki dövrlərdə göstərdiyi fəaliyyət və irsi olaraq həyata keçirdiyi əməliyyatlar nəticəsində əsasən Abşeron yarımadası ərazisində ətraf mühitə dəymiş zərərin ödənilməsi üçün təxmin edilən xərclər üçün ehtiyat yaradır.

Ehtiyat kimi uçota alınmış məbləğ mövcud öhdəliyin hesabat tarixinə qədər qüvvədə olan qanunvericiliyə və qaydalara uyğun olaraq yerinə yetirilməsi üçün tələb olunan məsrəflər üzrə ən dəqiq təxminləri əks etdirir və həmçinin qanunvericilik, qaydalar və onlara dair müvafiq şərhlərin dəyişdirilməsi və yenidən işlənməsi ilə əlaqədar olaraq dəyişə bilər. Hökumət orqanları ətraf mühitlə bağlı qanunvericiliyi və onun tətbiqini davamlı olaraq nəzərdən keçirir. Bu səbəbdən Qrupun ətraf mühitin bərpası üzrə əsas öhdəlikləri uçota alınmış məbləğlərdən fərqli ola bilər. Bu şərtlərin subyektivliyini nəzərə alaraq belə xərclərin məbləği və yaranma müddəti ilə bağlı qeyri-müəyyənlik mövcuddur. Ehtimal edilən ətraf mühitin qorunması ilə bağlı öhdəliklərin məbləğinin ölçülməsi və həssaslığın təhlili üçün istifadə edilən əsas fərziyyələr 23 saylı Qeyddə göstərilir.

### Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər

Qrup Azərbaycanın əmək məcəlləsinə uyğun olaraq iş yerində xəsarət almış işçilərə kompensasiya ödəmənilməsinə görə məsuliyyət daşıyır və uyğun olaraq özündə ehtiyat yaradır. Ehtiyat kimi uçota alınmış məbləğ mövcud öhdəliyin hesabat tarixinə qüvvədə olan qanunvericiliyə və qaydalara uyğun olaraq yerinə yetirilməsi üçün tələb olunan məsrəflər üzrə ən dəqiq təxminləri əks etdirir və həmçinin qanunvericilik, normativ aktlar və onlara dair müvafiq şərhlərin dəyişdirilməsi və yenidən işlənməsi ilə əlaqədar olaraq dəyişə bilər. Hökumət orqanları ətraf mühitlə bağlı qanunvericiliyi və onun tətbiqini davamlı olaraq nəzərdən keçirir. Bu şərtlərin subyektivliyini nəzərə alaraq belə xərclərin həm məbləği, həm də ehtimal edilən vaxtı qeyri-müəyyəndir. Ehtimal edilən əmək qabiliyyətinin itirilməsi ilə bağlı öhdəliklərin məbləğinin ölçülməsi və həssaslığın təhlili üçün istifadə edilən əsas fərziyyələr 25A saylı Qeyddə açıqlanır.

### Əmlak, tikili və avadanlıqların faydalı istifadə müddəti və qalıq dəyəri

Rəhbərlik, əmlak, tikili və avadanlıqlarını və qeyri-maddi aktivlərin təxmin edilən faydalı istifadə müddətini və müvafiq amortizasiya xərclərini müəyyən edir. Bu təxminlər, Qrupun həmin aktivlər üzrə iqtisadi səmərə əldə etməyi planlaşdırdığı dövrə əsaslanır. Faydalı istifadə müddəti əvvəlki illərdə təxmin edilmiş faydalı müddətdən aşağı olanda rəhbərlik amortizasiya xərcini artırır. Faydalı istifadə müddətinə ən azı hər maliyyə ilinin sonunda yenidən baxılır. Yuxarıda qeyd olunan şərtlərin və ya təxminlərin hər hansı birində dəyişiklik olarsa, bu, gələcəkdə amortizasiya dərəcələri üzrə düzəlişlərin aparılmasına gətirib çıxara bilər.

Qrupun əmlak, tikili və avadanlıqlarının (neft-qaz əmlakından başqa) təxmin edilən faydalı istifadə müddəti aşağıda göstərilir:

| | |
|---|---|
| Binalar və tikililər | 5-40 il |
| Maşın və avadanlıqlar | 3-50 il |
| Gəmilər | 25-30 il |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Qrupun həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Əgər Qrup aktivlərini fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözləyərsə və ləğv etmə dəyəri əhəmiyyətli deyilsə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri lazım olduqda hər bir hesabat tarixində nəzərdən keçirilir və dəqiqləşdirilir.

### Təxirə salınmış vergi aktivlərinin uçotu

Təxirə salınmış xalis vergi aktivləri vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivləri realizasiya oluna biləcəyi məbləğdə uçota alınır. Vergiyə cəlb olunan gələcək mənfəət və gələcəkdə yaranması ehtimal edilən vergi faydasının məbləğini ehtimal edərkən rəhbərlik mənfəətindən və mövcud şəraitdə məqbul hesab edilən gələcək gəlirlər üzrə təxminlərdən istifadə edir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 3. Əhəmiyyətli uçot təxminləri və mülahizələri (davamı)

### Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi

Rəhbərlik qeyri-maliyyə aktivlərinin dəyərinin bərpa edilə bilməməsini göstərən hadisə və ya şəraitlərə əsasən, hər hesabat tarixində bu aktivlərin mümkün dəyərsizləşməsi üzrə hər hansı göstəricilərin olub-olmamasını təhlil edir. Bu cür göstəricilərə aşağıdakılar daxildir: Qrupun biznes planlarında baş verən dəyişikliklər, əmtəə qiymətlərində rentabelsiz fəaliyyətə səbəb olan mənfi dəyişikliklər, məhsul qarışıqlarında olan dəyişikliklər və neft və qaz əmlakına gəldikdə isə − təxmin edilmiş təsdiqlənmiş ehtiyatların əhəmiyyətli dərəcədə azalması. Qudvil və qeyri-müəyyən faydalı istifadə müddətinə malik olan qeyri-maddi aktivlər hər il və sair vaxtlarda dəyərsizləşmə göstəriciləri olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır. Sair qeyri-maliyyə aktivləri, balansın bərpa edilə bilməməsinə dair göstəricilər mövcud olduğu zaman dəyərsizləşmə üzrə yoxlanılır.

Dəyərsizləşmə, aktivin balans dəyəri onun bərpa oluna bilən dəyərindən artıq olduqda yaranır. Bərpa oluna bilən dəyər satış xərclərini çıxmaqla ədalətli dəyərin və ya istifadə dəyərinin daha yüksək olanı hesab olunur. Satış xərclərini çıxmaqla ədalətli dəyər, oxşar aktivlərin satışı üzrə kommersiya şərtləri ilə həyata keçirilən məcburi bazar əməliyyatlarından əldə edilən məlumatlara və ya müşahidə olunan bazar qiymətləri və aktivləri satmaq üçün çəkiləcək marjinal xərclərə əsaslanır. İstifadə dəyəri diskont edilmiş pul vəsaitlərinin hərəkəti (DPVH) modeli ilə hesablanır. Pul vəsaitlərinin hərəkəti növbəti beş il üzrə büdcədən götürülür və Qrupun hələ tərəf olmadığı restrukturizasiya əməliyyatlarını və ya yoxlanılan PVYV-nin aktivlərinin nəticələrini yaxşılaşdıracaq əhəmiyyətli gələcək investisiyaları nəzərə almır. Bərpa edilən məbləğ DPVH modeli üçün istifadə edilən diskont dərəcəsi, həmçinin gözlənilən gələcək pul vəsaitlərinin axını və ekstrapolyasiya məqsədləri üçün istifadə edilən artım dərəcəsinə həssasdır.

2020-ci il ərzində bəzi PVYV-lər zəif nəticə göstərdiyinə görə, Qrup həmin aktivlərin bərpa oluna bilən məbləğlərini yoxlamış, nəticədə sair əməliyyat xərclərinin tərkibində 1,654 AZN (2019-cu il: 286 AZN) məbləğində dəyərsizləşmə xərci tanınmışdır.

975 AZN məbləğində dəyərsizləşmə zərəri aktivlərin istifadəsindən gələcək iqtisadi faydaların alınması ehtimalının olmaması səbəbindən emal seqmentində müəyyən əmlak, tikili və avadanlıqların bərpa oluna bilən dəyərədək silinməsindən irəli gəlir. Aktivlər əsas etibarı ilə Azərbaycan Respublikasında yerləşən zavodlardan birinin müvafiq olaraq 886 AZN və 77 AZN məbləğində maşın və avadanlıqlar və binalar və tikililər sinfinə aid olan aktivləri ilə təmsil olunur.

31 dekabr 2020-ci il tarixinə sıfıra bərabər olan bərpa oluna bilən məbləğ istifadə dəyərinə əsaslanmış və PVYV səviyyəsində müəyyən edilmişdir. PVYV üçün istifadə dəyəri müəyyən edilərkən pul vəsaitlərinin hərəkəti vergidən əvvəlki baza əsasında 9.69 faiz dərəcəsi ilə diskontlaşdırılmışdır.

164 AZN məbləğində dəyərsizləşmə zərəri aktivlərin işləmə qaydasında dəyişiklik nəticəsində emal seqmentindəki müəyyən əmlak, tikili və avadanlıqların bərpa oluna bilən məbləğədək silinməsindən irəli gəlir. Aktivlər əsas etibarı ilə Azərbaycan Respublikasında yerləşən zavodlardan birinin maşın və avadanlıqlar sinfinə aid olan aktivləri ilə təmsil olunur. 31 dekabr 2020-ci il tarixinə 448 AZN bərpa edilə bilən məbləğ istifadə dəyərinə əsaslanmış və PVYV səviyyəsində müəyyən edilmişdir. PVYV üçün istifadə dəyəri müəyyən edilərkən pul vəsaitlərinin hərəkəti vergidən əvvəlki baza əsasında 13.37 faiz dərəcəsi ilə diskontlaşdırılmışdır (31 dekabr 2019-cu il: 11.87 faiz).

163 AZN məbləğində dəyərsizləşmə işgüzar fəaliyyətin həcmində və PVYV ilə bağlı pul vəsaitlərinin mədaxilinin müddətində mənfi dəyişikliklər nəticəsində tikinti seqmentində müəyyən əmlak, tikili və avadanlıqların bərpa oluna bilən məbləğədək silinməsindən irəli gəlir. Aktivlər əsas etibarı ilə Azərbaycan Respublikasında yerləşən zavodlardan birinin 121 AZN və 26 AZN məbləğində müvafiq olaraq binalar və tikililər və gəmilər və port avadanlıqları ilə təmsil olunur. Hesabat tarixinə 140 AZN məbləğində bərpa edilə bilən məbləğ istifadə dəyərinə əsaslanmış və PVYV səviyyəsində müəyyən edilmişdir. PVYV üçün istifadə dəyəri müəyyən edilərkən pul vəsaitlərinin hərəkəti vergidən əvvəlki baza əsasında 12.87 faiz dərəcəsi ilə diskontlaşdırılmışdır (31 dekabr 2019-cu il: 11.07 faiz).

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 3. Əhəmiyyətli uçot təxminləri və mülahizələri (davamı)

### Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi (davamı)

139 AZN məbləğində dəyərsizləşmə, Qrupun Azərbaycan Respublikasında yerləşən, neft və qaz seqmentinə aid olan neft və qaz əmlakı və avadanlığı və tamamlanmamış tikinti sinifləri üzrə müvafiq olaraq, 110 AZN (2019-cu il: 283 AZN) və 29 AZN (2019-cu il: sıfır) silinmədən ibarətdir. Dəyərsizləşmə Azərbaycan Respublikasında yerləşən mənfəət gətirməyən neft yataqlarına investisiyalarla əlaqəlidir. Qrup mənfəət gətirməyən yataqlardan gələcək iqtisadi faydaların alınmasını gözləmir və 31 dekabr 2020-ci və 2019-cu il tarixlərinə bu neft yataqlarının bərpa oluna bilən dəyəri sıfır olmuşdur.

105 AZN məbləğində dəyərsizləşmə aktivlərin istifadəsindən gələcək iqtisadi faydaların alınması ehtimalının olmaması səbəbindən emal seqmentində müəyyən əmlak, tikili və avadanlıqların bərpa oluna bilən dəyərədək silinməsindən irəli gəlir. Aktivlər əsas etibarı ilə Azərbaycan Respublikasında yerləşən zavodlardan birinin tamamlanmamış tikinti sinfi ilə təmsil olunur. Hesabat tarixinə PVYV-nin bərpa oluna bilən dəyəri sıfır olmuşdur.

108 AZN məbləğində dəyərsizləşmə PVYV-lərə aid gələcək pul vəsaitləri üzrə proqnozlara təsir göstərən bazar şərtlərindəki dəyişikliklər səbəbindən, əsasən, satış və paylaşdırma və neft və qaz seqmentində müəyyən əmlak, tikili və avadanlıqların bərpa oluna bilən məbləğədək silinməsindən irəli gəlir. Aktivlər əsas etibarı ilə Birləşmiş Ərəb Əmirlikləri və Gürcüstanda yerləşən bir neçə PVYV-nin müvafiq olaraq 73 AZN və 18 AZN məbləğində gəmilər və liman avadanlıqları və neft və qaz əmlakları və avadanlığı sinifləri ilə təmsil olunur.

### Maliyyə aktivlərinin gözlənilən kredit zərəri üçün ehtiyat

*Ticarət debitor borcları*

Ticarət debitor borcları və müqavilə aktivləri üçün GKZ-ni hesablamaq məqsədilə Qrup ehtiyat matrisasından istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər sxemləri olan (məsələn, coğrafi baxımdan, məhsul növü, müştərinin növü və reytinqi, akkreditiv və ya sair kredit sığortası növü ilə əhatə) müxtəlif müştəri seqmentlərinin qruplaşmasına görə gecikmə günlərinin sayına əsasən hesablanır.

Ehtiyat matrisası ilk öncə Qrupun keçmiş dövrlərdə müşahidə edilən defolt dərəcələrinə əsaslanır. Qrup ehtiyat matrisasını keçmiş kredit zərəri təcrübəsini gələcək yönümlü informasiyaya uyğunlaşdırmaq üçün düzəldir.

Məsələn, əgər proqnozlaşdırılmış iqtisadi şəraitlərin (məsələn ümumi daxili məhsulun) növbəti illərdə pisləşəcəyi və bunun nəticəsində sektordakı defolt saylarının artacağı gözlənilirsə, keçmiş dövrlər üzrə defolt dərəcələrinə müvafiq düzəlişlər edilir. Keçmiş dövrlər ərzində müşahidə edilən defolt dərəcələrində düzəlişlər və proqnozlardakı dəyişikliklərin təhlili hər bir hesabat dövründə həyata keçirilir.

Keçmiş dövrlər üzrə müşahidə edilən defolt dərəcələri, proqnoz iqtisadi şəraitləri ilə GKZ arasındakı əlaqənin qiymətləndirilməsi əhəmiyyətli təxmin hesab edilir. GKZ məbləği mövcud şərtlərin və proqnozlaşdırılmış iqtisadi şəraitlərin dəyişməsinə həssasdır. Həmçinin, Qrupun keçmiş dövrlər üzrə kredit zərəri ilə bağlı təcrübəsi və iqtisadi şəraitlərin proqnozu müştərini gələcəkdə faktiki defolta uğramasını göstərməyə bilər. Qrupun ticarət debitor borcları üzrə GKZ haqqında məlumat Qeyd 10-da açıqlanır.

*Amortizasiya hesablanmış dəyərlə tanınmış sair maliyyə aktivləri*

Qeyd 2-də açıqlandığı kimi, Qrup ticarət və sair debitor borcları olmayan və YƏMFÖ meyarına uyğun olan maliyyə aktivləri üçün GKZ-ni 2-ci Qeyddə açıqlanan ümumi yanaşma əsasında qiymətləndirir. Vəziyyət və şəraitlərdə dəyişikliklərə həssas olan GKZ-nin qiymətləndirilməsi əhəmiyyətli ehtimal hesab olunur.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 3. Əhəmiyyətli uçot təxminləri və mülahizələri (davamı)

### İcarələr

*İcarənin uzadılması hüququ ilə müqavilələrin icarə müddətinin müəyyənləşdirilməsində əhəmiyyətli mühakimə*

İcarəçi və icarədar müqavilənin icarənin başlanğıcında icarə olub-olmadığını müəyyən etməlidir. Başlanğıc tarixi icarə müqaviləsinin qüvvəyə minməsi və tərəflərin icarə predmetinin əsas şərtlərinə və hallarına dair öhdəlikləri qəbul etməsi tarixlərindən ən tez başlayan tarixdir. Əsas aktiv icarə müqaviləsinin mövzusu olan və həmin aktivi üzrə istifadə hüququ icarədar tərəfindən icarəçiyə verilən aktivdir. İcarənin başlanma tarixi icarədarın əsas aktivi icarəçinin istifadəsi üçün əlçatan etməsi tarixidir.

İcarə müddəti icarə müddətinin başlanğıc tarixində başlayır və icarədar tərəfindən icarəçiyə icarə haqqı ödəmədən verilmiş hər hansı müddəti özündə cəmləşdirir.

Qrup icarə müddətini aşağıdakı müddətlərlə birlikdə ləğv edilməyən icarə müddəti kimi müəyyən edir:

- İcarəçi icarənin uzadılması hüququndan istifadə edəcəyindən əsaslı şəkildə əmin olduqda icarənin uzadılması hüququ ilə əhatə olunmuş müddətlər; və
- İcarəçi bu hüquqdan istifadə etməyəcəyindən əsaslı şəkildə əmin olduqda icarənin ləğv edilməsi hüququ ilə əhatə olunmuş müddətlər.

Alış opsionları icarənin müddətini uzatmaq və ya ona xitam vermək opsionlarına oxşar şəkildə qiymətləndirilir. Əsas aktivi almaq opsionu iqtisadi cəhətdən əsas aktivin qalan iqtisadi istifadə müddəti üçün icarə müddətinin uzadılması opsionu ilə oxşardır.

Qrup icarə müddətini icarəçi icarənin uzadılması hüququndan istifadə edəcəyindən əsaslı şəkildə əmin olduqda icarənin uzadılması hüququ ilə əhatə olunmuş müddətlər və icarəçi bu hüquqdan istifadə etməyəcəyindən əsaslı şəkildə əmin olduqda icarənin ləğv edilməsi hüququ ilə əhatə olunmuş müddətlər daxil olmaqla ləğv edilməyən müddət kimi müəyyən edir. Qrup, icarəçinin bu hüququndan istifadə etməsi və ya etməməsi üçün, icarənin başlanğıc müddətindən bu hüququn istifadə edilmə tarixinədək faktlar və şərtlərdə gözlənilən dəyişikliklər daxil olmaqla, ona iqtisadi stimul yaradacaq bütün müvafiq fakt və şərtləri nəzərə alır.

*Marjinal faiz dərəcəsi (MFD)*

Qrup icarədə nəzərdə tutulan faiz dərəcəsini dərhal müəyyən edə bilmir və bu səbəbdən icarə öhdəliklərinin ölçülməsi üçün marjinal faiz dərəcəsindən (MFD) istifadə edir. MFD Qrupun oxşar şərt və oxşar girovla oxşar iqtisadi mühitdə istifadə hüququ olan aktivə oxşar dəyərli aktivin əldə edilməsi üçün tələb olunan vəsaitlərin borca alınması üçün ödəməli olduğu faiz dərəcəsidir. Beləliklə, MFD Qrupun nəyi "ödəməli olduğunu" əks etdirir, bu isə heç bir müşahidə edilən dərəcələr olmadıqda (məs. maliyyə əməliyyatları aparmayan törəmə müəssisələr üçün) və ya icarə şərtlərini əks etdirmək üçün düzəliş edilməli olduqda (məs. icarələr törəmə müəssisənin funksional valyutasında olmadıqda) qiymətləndirilmənin aparılmasını tələb edir.

Qrup MFD-ni mümkün olduqda müşahidə edilən giriş məlumatlarından (bazardakı faiz dərəcələri kimi) istifadə etməklə qiymətləndirir və müəssisə ilə bağlı müəyyən qiymətləndirmələr (məs. törəmə müəssisənin kredit reytinqi) aparmalıdır.

## 4. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Qrup 1 yanvar 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minən standartlara müəyyən düzəlişləri ilk dəfə tətbiq etmişdir. 1 iyun 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərindən qüvvəyə minməli olan və Qrup tərəfindən erkən tətbiq edilən 16 saylı *"COVID-19 ilə bağlı icarə güzəştləri"* MHBS-yə düzəlişlər istisna olmaqla, Qrup buraxılmış, lakin hələ qüvvəyə minməmiş heç bir standartı, şərhi və ya düzəlişi erkən tətbiq etməmişdir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 4. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

*3 saylı MHBS-yə düzəlişlər "Biznesin tərifi"*

*"Müəssisələrin birləşməsi"* adlı 3 saylı MHBS-yə düzəliş izah edir ki, müəssisə hesab olunmaq üçün inteqrasiya edilmiş fəaliyyətlər və aktivlər dəstinə ən azından birlikdə məhsul yaratmaq qabiliyyətinə əhəmiyyətli töhfə verən giriş komponentlər və əhəmiyyətli proses daxil olmalıdır. Bundan əlavə, düzəliş bir müəssisənin məhsul yaratmaq üçün lazım olan bütün giriş komponentlərini və prosesləri əhatə etmədiyi halda belə mövcud ola biləcəyini izah edir. Bu düzəlişlərin Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsiri olmamışdır, lakin Qrup hər hansı müəssisələrin birləşməsinə daxil olarsa, gələcək dövrlərə təsir edə bilər.

*7 saylı MHBS, 9 saylı MHBS və 39 saylı MUBS-a düzəlişlər "Faiz dərəcəsi etalonu islahatı"*

9 saylı MHBS-yə və 39 saylı MUBS *"Maliyyə alətləri"*nə düzəlişlərin 1-ci Mərhələsi 1 yanvar 2020-ci il tarixindən sonra başlayan illər üçün qüvvəyə minir, lakin erkən tətbiqə yol verilir. Tanınma və ölçülmə faiz dərəcəsi etalonu islahatının birbaşa təsirinə məruz qalan bütün hedcinq münasibətlərinə tətbiq edilən bir sıra azadetmələri nəzərdə tutur. Hedcinq münasibətinə o zaman təsir göstərilir ki, islahat hedcinq maddəsinin və/və ya hedcinq alətinin etalona əsaslanan pul vəsaitlərinin hərəkətinin müddəti və/və ya məbləği barədə qeyri-müəyyənliklər yaratsın. Düzəlişlərdə faiz dərəcəsi islahatı nəticəsində yaranan qeyri-müəyyənliyin artıq mövcud olmamasını da ehtiva edən azadetmələrin sona çatması üçün səbəblər müəyyən edilir. Kreditlərdən irəli gələn riski hedc etmək üçün hedcinq münasibətlərinə girən Qrupun asılı müəssisəsi bu düzəlişləri qəbul etmişdir. Hedcinqin perspektivdə effektiv olub-olmamasını qiymətləndirərkən Qrupun asılı müəssisəsi ehtimal etmişdir ki, hedc edilmiş borcun pul vəsaitləri hərəkətinin və onu hedc edən faiz dərəcəsi svopunun əsaslandığı EURIBOR faiz dərəcəsinə islahat təsir göstərməmişdir. Qrupun asılı müəssisəsi islahatların qüvvəyə minməsindən sonrakı dövrə aid pul vəsaitlərinin hərəkətinin hedcinq ehtiyatını yenidən dövriyyəyə buraxmayacaq, IBOR islahatının inkişafını izləyəcək və məsələni fəal şəkildə borc verənlərlə müzakirə edəcəkdir.

*1 saylı MUBS və 8 saylı MUBS-a düzəlişlər "Əhəmiyyətlilik" anlayışının tərifi*

Düzəlişlər, "məlumatların buraxılması, təhrif edilməsi və ya gizlədilməsi halında, ümumi təyinatlı maliyyə hesabatlarının əsas istifadəçilərinin konkret hesabat verən müəssisə haqqında maliyyə məlumatlarını verən maliyyə hesabatları əsasında qəbul etdikləri qərarlara təsir göstərəcəyi əsası olaraq gözlənilə bilərsə, həmin məlumatlar əhəmiyyətli hesab olunur". Düzəlişlər əhəmiyyətliliyin məlumatın maliyyə hesabatları kontekstində fərdi olaraq və ya digər məlumatlarla birlikdə təbiətindən və ya miqyasından asılı olacağını aydınlaşdırır. Məlumatların təhrif edilməsi, əsas istifadəçilər tərəfindən verilən qərarlara təsir göstərəcəyi əsaslı olaraq gözlənilə bilərsə əhəmiyyətli hesab olunur. Bu düzəlişlər konsolidasiya edilmiş maliyyə hesabatlarına təsir göstərməmişdir və gələcəkdə də Qrupa təsir göstərməsi gözlənilmir.

*16 saylı MHBS-yə düzəlişlər "Covid-19 ilə bağlı icarə güzəştləri"*

28 may 2020-ci il tarixində MUBSK, 16 saylı *"İcarələr"* adlı MHBS-yə *"COVİD-19 ilə bağlı icarə güzəştləri"* adlı düzəliş qəbul etmişdir. Bu düzəlişə görə, icarəçilər COVİD-19 pandemiyasının birbaşa nəticəsi olaraq yaranan icarə güzəştlərinin uçotuna dair MHBS 16 göstərişinin tətbiq edilməsi tələbindən azad edilir. Praktiki məqsədəuyğun vasitə olaraq, icarəçi, icarədar tərəfindən COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarəyə düzəliş olub-olmadığını qiymətləndirməməyi seçə bilər. Bu yolu seçmiş icarəçi, COVİD-19 ilə əlaqəli icarə güzəştindən irəli gələn icarə ödənişlərindəki hər hansı dəyişikliyi, 16 saylı MHBS əsasında icarə dəyişikliyi olmayan dəyişikliklərlə eyni qaydada uçota alır.

Düzəliş 1 iyun 2020-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir. Erkən tətbiqə yol verilir. Qrup düzəlişin təsirini qiymətləndirmiş və konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında nəzərə almışdır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 4. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

*29 mart 2018-ci il tarixində buraxılmış "Maliyyə hesabatlarının hazırlanması üzrə konseptual əsaslar"*

Konseptual əsaslar standart deyildir və əhatə olunan konsepsiyaların heç biri hər hansı bir standartın konsepsiya və ya tələblərini ləğv etmir.

Konseptual əsasların məqsədi MUBSK tərəfindən standartların hazırlanmasına və maliyyə hesabatlarını hazırlayanlara tətbiq olunan standart mövcud olmadığı təqdirdə uyğun mühasibat uçotu siyasətlərini hazırlamağa kömək etmək, eləcə də standartların başa düşülməsi və şərh edilməsində bütün tərəflərə kömək etməkdir. Bu mühasibat uçotu prinsiplərini Konseptual Əsaslara uyğun hazırlamış müəssisələrə təsir göstərəcək. Yenidən nəzərdən keçirilmiş Konseptual əsaslar özündə bəzi yeni konsepsiyaları cəmləşdirir, aktiv və öhdəliklər üçün yenilənmiş təriflər və tanınma meyarlarını təqdim edir və bəzi vacib anlayışlara aydınlıq gətirir. Bu düzəlişlərin Qrupun maliyyə hesabatlarına təsiri olmamışdır.

**Buraxılmış, lakin qüvvəyə minməmiş standartlar**

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatları buraxıldığı tarixə qədər buraxılmış, lakin qüvvəyə minməmiş yeni və düzəliş edilmiş standartlar və şərhlər aşağıda təqdim olunur. Şirkət bu yeni və düzəliş edilmiş standart və şərhləri müvafiq olduğu hallarda, onlar qüvvəyə mindikdə qəbul etmək niyyətindədir

*17 saylı MHBS "Sığorta müqavilələri"*

2017-ci ilin may ayında MUBSK 4 saylı *"Sığorta müqavilələri"* adlı MHBS-ni əvəz edən və tanınma və ölçmə, təqdimat və açıqlanma kimi məsələləri əhatə edən sığorta müqavilələri üzrə ətraflı yeni mühasibat uçotu standartı olan 17 saylı *"Sığorta müqavilələri"* adlı MHBS-ni dərc etdi.

17 saylı MHBS bütün növ sığorta müqavilələrinə (yəni, həyat, qeyri-həyat, birbaşa və təkrar sığorta), onları verən müəssisələrin növündən asılı olmayaraq, eləcə də ixtiyari iştirak xüsusiyyətləri olan müəyyən zəmanətlərə və maliyyə alətlərinə tətbiq edilir. Əhatə dairəsi ilə bağlı bir neçə istisna tətbiq ediləcək. 17 saylı MHBS-nin ümumi məqsədi sığortaçılar üçün daha faydalı və uyğun olan sığorta müqavilələri üçün uçot modelini təqdim etməkdir. Əsas etibarlı ilə ölçmə məqsədləri üçün əvvəlki yerli uçot prinsiplərinə istinad edən 4 saylı MHBS-nin tələblərindən fərqli olaraq, 17 saylı MHBS mühasibat uçotunun bütün müvafiq tərəflərini əhatə edən sığorta müqavilələri üzrə geniş model təqdim edir. 17 saylı MHBS-nin əsasını ümumi model təşkil edir və aşağıdakılarla tamamlanır:

- Birbaşa iştirak xüsusiyyətləri olan müqavilələrin xüsusi uyğunlaşdırılması (dəyişkən haqq yanaşması);
- Sadələşdirilmiş yanaşma (premium bölüşdürmə yanaşması) – əsas etibarı ilə qısamüddətli müqavilələrə.

17 saylı MHBS 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün qüvvədədir, müqayisəli rəqəmlər tələb olunur. Müəssisə, 17 saylı MHBS-ni ilk dəfə tətbiq etdiyi tarixdə və ya bu tarixdən əvvəl 9 saylı MHBS-ni və 15 saylı MHBS-ni tətbiq etdiyi təqdirdə, erkən tətbiq etməyə icazə verilir. Qrupun sığorta müqavilələri olmadığından bu standart Qrupa tətbiq edilmir.

*1 saylı MUBS-a düzəlişlər "Öhdəliklərin cari və uzunmüddətli kimi təsnifləşdirilməsi"*

2020-ci ilin yanvar ayında öhdəliklərin cari və uzunmüddətli kimi təsnifləşdirilməsi üzrə tələbləri müəyyən etmək üçün MUBSK, 1 saylı MUBS-un 69-76 bəndlərinə düzəlişlər dərc etmişdir. Düzəlişlər aşağıdakı məsələlərə aydınlıq gətirir:

- Hesablaşmanı təxirə salmaq hüququ nəyi nəzərdə tutur;
- Təxirə salmaq hüququ hesabat dövrünün sonunda mövcud olmalıdır;
- Təsnifləşdirməyə müəssisənin təxirə salmaq hüququndan istifadə etmə ehtimalı təsir etmir;
- Yalnız çevrilən öhdəlikdəki əlaqədar törəmə aləti özü-özlüyündə kapital aləti olarsa, öhdəliyin şərtləri təsnifləşdirməyə təsir göstərməyəcək.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 4. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

### Buraxılmış, lakin qüvvəyə minməmiş standartlar (davamı)

Bu düzəlişlər 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və retrospektiv qaydada tətbiq edilməlidir. Hal-hazırda Qrup düzəlişlərin cari təcrübəyə göstərəcəyi təsirləri və mövcud kredit müqavilələrinin yenidən razılaşdırma tələb edib-etməməsini qiymətləndirir.

"*Konseptual əsaslara istinad" – 3 saylı MHBS-yə düzəlişlər*

2020-ci ilin may ayında MUBSK, *"Müəssisələrin birləşməsi"* adlı 3 saylı MHBS-yə *"Konseptual əsaslara istinad"* adlı düzəliş qəbul etmişdir. Düzəlişlər 1989-cu ildə buraxılmış *"Maliyyə hesabatlarının hazırlanması və təqdim olunması prinsipləri"*nə istinadı, tələbləri əhəmiyyətli dərəcədə dəyişdirmədən, 2018-ci ilin mart ayında buraxılmış *"Maliyyə hesabatlarının konseptual əsasları"*na istinadla əvəz etmək məqsədini daşıyır. Bundan əlavə, Şura, 37 saylı MHBS və ya 21 saylı BMHŞK *"Tutumlar"* əhatə dairəsində olan öhdəliklər və potensial öhdəliklər üçün (bunlar ayrı-ayrılıqda yerinə yetirilərsə) yaranan potensial 'gün 2' gəlir və ya zərərləri ilə bağlı problemdən qaçınmaq üçün 3 saylı MHBS-nin tanıma prinsipinə istisna əlavə etmişdir. Eyni zamanda, Şura, *"Maliyyə hesabatlarının hazırlanması və təqdim olunması prinsipləri"*nə istinadın əvəz edilməsindən təsirlənməyəcək potensial aktivlərə dair 3 saylı MHBS-dəki mövcud göstərişi aydınlaşdırmağa qərar vermişdir. Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və gələcək dövrlərə tətbiq olunur. Bu düzəlişlərin Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərilməsi gözlənilmir.

*"Əmlak, qurğu və avadanlıqlar: nəzərdə tutulan istifadədən daxilolmalar" – 16 saylı MUBS-a düzəlişlər*

2020-ci ilin may ayında MUBSK, 16 saylı MHBS-yə "*Əmlak, qurğu və avadanlıqlar: nəzərdə tutulan istifadədən əvvəl daxilolmalar"* düzəlişini qəbul etmişdir. Bu düzəlişə görə müəssisələrə, əmlak, qurğu və avadanlıq obyektinin maya dəyərindən, həmin aktivi rəhbərlik tərəfindən nəzərdə tutulmuş qaydada fəaliyyət göstərə bilməsi üçün zəruri olan yerə və vəziyyətə gətirilərkən istehsal olunan maddələrin satışından əldə olunan daxilolmaların çıxılması qadağan edilir. Bunun əvəzinə, müəssisə bu cür maddələrin satışından daxilolmaları və bu maddələrin istehsal xərclərini mənfəət və zərərdə tanıyır.

Düzəliş 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və müəssisənin düzəlişi ilk dəfə tətbiq etdiyi zaman təqdim olunan ən erkən dövrün başlanğıcında və ya daha sonra istifadəyə verilmiş əsas vəsaitlər üçün retrospektiv şəkildə tətbiq edilməlidir. Qrup bu düzəlişlərin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməsini gözləmir.

*"Yüklü edilmiş müqavilələr – müqavilənin yerinə yetirilməsi xərcləri" – 37 saylı MHBS-yə düzəlişlər*

2020-ci ilin may ayında MUBSK, 37 saylı MUBS-a müqavilənin yüklü və ya zərərli olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri daxil etməli olduğunu müəyyənləşdirən düzəlişlər etmişdir. Düzəlişlər "birbaşa əlaqəli xərclər yanaşması"nı tətbiq edir. Mal və ya xidməti təmin etmək üçün birbaşa müqaviləyə aid olan məsrəflərə həm əlavə xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqaviləyə aid deyil və müqavilə əsasında qarşı tərəflə dəqiq şəkildə ödənilməli olmadığı hallarda istisna edilir.

Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Qrup düzəlişləri ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində bütün öhdəliklərini yerinə yetirmədiyi müqavilələrə tətbiq edəcəkdir.

*"Mühasibat uçotu prinsiplərinin açıqlanması" – 1 saylı MUBS və MHBS üzrə Praktiki tövsiyələr 2-yə düzəlişlər*

2021-ci ilin fevral ayında MUBSK 1 saylı MUBS və MHBS üzrə Praktiki tövsiyələr 2 *"Əhəmiyyətliliyə dair mülahizələrin formalaşdırılması"* na düzəlişlər etmişdir. Həmin tövsiyələrdə əhəmiyyətlilik mülahizələrinin mühasibat uçotu prinsiplərinə tətbiq edilməsində müəssisələrə kömək etmək üçün qaydalar və nümunələr təqdim edilir. Düzəlişlərin məqsədi aşağıdakılar vasitəsilə daha səmərəli mühasibat uçotu prinsipləri üzrə açıqlamaların edilməsində müəssisələrə kömək etməkdir.

- Müəssisələr qarşısında qoyulmuş "vacib" mühasibat uçotu prinsiplərinin açıqlanmasına dair tələbin "əhəmiyyətli" mühasibat uçotu prinsiplərinin açıqlanması üzrə tələblə əvəz edilməsi; və
- Mühasibat uçotu prinsiplərinin açıqlanması ilə bağlı qərarlar verərkən müəssisələrin əhəmiyyətlilik anlayışını necə tətbiq etdiklərinə dair təlimatın əlavə edilməsi.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 4. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

### Buraxılmış, lakin qüvvəyə minməmiş standartlar (davamı)

Düzəliş 1 yanvar 2023-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Erkən tətbiqə icazə verilir. Qrup bu düzəlişlərin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməsini gözləmir.

"*Uçot qiymətləndirmələrinin tərifi" – 8 saylı MUBS-a düzəlişlər*

2021-ci ilin fevral ayında MUBSK 8 saylı MUBS-a düzəlişlər etmişdir. Həmin düzəlişlərdə "uçot qiymətləndirmələrinin" tərifi təqdim edilir. Düzəlişlərdə uçot qiymətləndirmələrində dəyişikliklər, mühasibat uçotu prinsiplərində dəyişikliklər və səhvlərin düzəldilməsi arasında fərqlər təqdim edilir. Bundan əlavə, müəssisələrin uçot qiymətləndirmələri etmək üçün ölçmə üsulları və giriş məlumatlarından necə istifadə etdikləri izah edilir.

Düzəliş 1 yanvar 2023-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Erkən tətbiqə icazə verilir. Qrup bu düzəlişlərin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməsini gözləmir.

*1 saylı MHBS "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının İlk dəfə tətbiqi" – Törəmə müəssisə ilk dəfə tətbiq edən şəxs qismində*

2018-2020-ci illər üzrə MHBS standartlarına illik təkmilləşmələr prosesi çərçivəsində MUBSK 1 saylı "*Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının İlk dəfə tətbiqi"* adlı MHBS-yə düzəlişlər dərc etmişdir. Düzəlişlər, 1 saylı MHBS-nin D16(a) bəndini tətbiq etməyi seçən törəmə müəssisəyə, ana müəssisənin MHBS-yə keçid tarixinə əsasən, ana müəssisənin hesabat verdiyi məbləğlərdən istifadə edərək məcmu çevirmə fərqlərini ölçməyə icazə verir. Bu düzəliş, 1 saylı MHBS-nin D16(a) bəndini tətbiq etməyi seçən asılı və ya birgə müəssisələrə də tətbiq olunur.

Düzəliş, 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Erkən tətbiqə yol verilir. Bu standart Qrupa tətbiq edilmir.

*"Faiz dərəcəsi etalonu islahatı": Mərhələ 2-9 saylı MHBS, 39 saylı MUBS, 7 saylı MHBS, 4 saylı MHBS və 16 saylı MHBS-yə düzəlişlər*

27 avqust 2020-ci il tarixində MUBSK Faiz dərəcəsi etalonu islahatı: Mərhələ 2-9 saylı MHBS, 39 saylı MUBS, 7 saylı MHBS, 4 saylı MHBS və 16 saylı MHBS-yə düzəlişləri buraxmışdır. Düzəlişlər Banklararası təklif olunan faiz həddi ("IBOR") alternativ risksiz faiz dərəcəsi ("RFR") ilə əvəz olunduqda maliyyə hesabatlarının təsirlərini həll edən müvəqqəti azadetmələr təqdim edir. Düzəlişlərə müqavilə üzrə dəyişikliklər və ya birbaşa islahatla tələb edilən pul vəsaitlərinin hərəkətinə dəyişikliklərin bazar faiz dərəcəsində dəyişikliyə bərabər dəyişkən faiz dərəcəsinə dəyişiklik kimi uçota alınmasını tələb edən praktiki məqsədəuyğun vasitə daxildir. Bu praktiki məqsədəuyğun vasitənin istifadəsinə aid tələb IBOR etalon dərəcəsindən risksiz dərəcəyə keçidin iqtisadi cəhətdən bərabər əsasla dəyərin ötürülməsi baş vermədən aparılmasıdır. Kredit spredi və ya ödəmə tarixindəki dəyişiklik kimi eyni zamanda edilən digər dəyişikliklər qiymətləndirilir. Onlar əhəmiyyətlidirsə, alət tanınmadan çıxarılır. Onlar əhəmiyyətli deyilsə maliyyə alətinin balans dəyərini yenidən hesablamaq üçün dəyişiklik üzrə gəlir və ya zərər mənfəət və ya zərərdə tanınmaqla yenilənmiş effektiv faiz dərəcəsi ("EFD") istifadə edilir.

Düzəlişlər, hedcinq münasibətləri diskontlaşdırılmadan təyinatları hedc etmək və sənədləri hedc etmək üçün IBOR islahatı ilə tələb olunan dəyişikliklərə icazə verir. İcazəli dəyişikliklərə alternativ risksiz faiz dərəcəsinə istinad etmək üçün hedc edilmiş riskin yenidən müəyyənləşdirilməsi və alternativ risksiz faiz dərəcəsini əks etdirmək üçün hedcinq aləti və/və ya hedc edilmiş maddələrin təsvirinin yenidən müəyyən edilməsini daxildir. Müəssisələrə IBOR islahatı ilə tələb olunan dəyişikliklərin edilməsi üçün hesabat dövrünün sonunadək dəyişikliklərin tətbiqini tamamlamaq icazə verilir. Tətbiq retrospektiv şəkildə edilməlidir, lakin müəssisə əvvəlki dövrlərin rəqəmlərini yenidən təqdim etməməlidir. Düzəlişlər 1 yanvar 2021-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Erkən tətbiqə icazə verilir.

Qrup Faiz dərəcəsi etalonu islahatının inkişafını izləməkdədir və islahatın Qrupun hedcinq münasibətləri və borc öhdəliklərinə təsirini qiymətləndirməyə davam edir. Qrup borc verənlərlə müzakirələr aparır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 4. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

### Buraxılmış, lakin qüvvəyə minməmiş standartlar (davamı)

*10 saylı MHBS-yə və 28 saylı MUBS-a düzəlişlər: "İnvestor və onun asılı və ya birgə müəssisəsi arasında satışlar və ya aktivlərin yatırılması"*

2015-ci ilin dekabr ayında, MUBSK düzəlişlərin qüvvəyə minmə tarixini onun kapital metodu üzrə tədqiqat layihəsindən irəli gələn hər hansı düzəlişləri tamamlamasınadək təxirə salmaq qərarına gəlmişdir. Bu düzəlişlərin erkən tətbiqinə hələ də icazə verilir. Bu düzəlişlər asılı və ya birgə müəssisəyə yatırılan törəmə müəssisə və ya onun üzərində nəzarətin itirilməsi ilə bağlı 10 saylı Konsolidasiya edilmiş maliyyə hesabatları adlı MHBS-nin və 28 saylı Asılı müəssisələrə investisiyalar adlı MUBS-un tələbləri arasındakı uyğunsuzluğa aiddir. Düzəlişlər müəyyən edir ki, tam gəlir və ya zərər asılı və ya birgə müəssisəyə köçürmə 3 saylı MHBS-də müəyyən edilmiş biznesi əhatə etdikdə tanınır. Biznes təşkil etməyən aktivlərin satışı və ya yatırılmasından irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların həmin asılı və ya birgə müəssisədəki payları çərçivəsində tanınır. Düzəlişlər perspektiv şəkildə tətbiq edilməlidir. Erkən tətbiqə icazə verilir və o açıqlanmalıdır. Qrup bu düzəlişlərin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməsini gözləmir.

*9 saylı MHBS "Maliyyə Alətləri – Maliyyə öhdəliklərinin uçotdan çıxarılması üçün "10 faiz" testində haqlar*

MHBS-lərin illik təkmiləşdirmələri prosesi çərçivəsində 2018-2020-ci illər üçün MUBSK 9 saylı MHBS-yə düzəliş etmişdir. Düzəliş müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən daxil etdiyi haqları aydınlaşdırır. Bu haqlara yalnız borcalan və ya borcverən tərəfindən ödənilən və ya alınan haqlar, o cümlədən borcalanın və ya borcverənin digər tərəflərin adından ödədiyi və ya aldığı haqlar daxildir. Müəssisə bu düzəlişi, müəssisənin düzəlişi ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya daha sonra dəyişdirilmiş və ya əvəz edilmiş maliyyə öhdəliklərinə tətbiq edir.

Düzəliş, 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Şirkət, dəyişiklikləri müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya sonra dəyişdirilən və ya dəyişdirilən maliyyə öhdəliklərinə tətbiq edəcəkdir. Düzəlişin Qrupa əhəmiyyətli təsiri gözlənilmir.

*41 saylı MUBS "Kənd təsərrüfatı" – Ədalətli dəyərin ölçülməsində vergilər*

MHBS-lərin illik təkmiləşdirmələri prosesi çərçivəsində 2018-2020-ci illər üçün MUBSK 41 saylı *"Kənd təsərrüfatı"* MHBS-yə düzəliş etmişdir. Düzəliş 41 saylı MUBS-un 22-ci bəndində müəssisələrin, 41 saylı MUBS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul vəsaitlərinin hərəkətini istisna etməsi tələbini aradan qaldırır. Müəssisə, düzəlişi 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrünün başlanğıcında və ya bu tarixdən sonra ədalətli dəyərin ölçülmələrinə perspektivli şəkildə tətbiq edir. Erkən tətbiqə yol verilir. Bu standart Qrupa tətbiq edilmir.

*16 saylı "İcarələr" adlı MHBS-yə əlavə edilən Əyani Misallar*

2018-2020-ci illər üzrə MHBS standartlarına illik təkmilləşmələr prosesi çərçivəsində MUBSK 16 saylı MHBS-yə düzəlişlər dərc etmişdir. Düzəliş, 16 saylı MHBS-yə əlavə edilən Əyani Misal 13-də icarəyə götürülmüş aktivlərin yaxşılaşdırılması ilə bağlı icarədardan alınan ödənişlər misalını xaric edir. Bu, 16 saylı MHBS-nin tətbiqi zamanı icarə güzəştlərinin uçotu ilə bağlı potensial dolaşıqlığı aradan qaldırır. Düzəlişlərin Qrupa əhəmiyyətli təsir göstərməsi gözlənilmir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 4. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

**Buraxılmış, lakin qüvvəyə minməmiş standartlar (davamı)**

*30 iyun 2021-ci ildən sonra 16 saylı "Covid-19 ilə bağlı icarə güzəştləri" adlı MHBS-yə düzəlişlər*

2021-ci ilin mart ayında İdarə Heyəti, praktiki məqsədəuyğun vasitənin müddətini bir il uzatmaq məqsədilə 16 saylı MHBS-yə düzəliş etmişdir (2021-ci ilin düzəlişi). 2021-ci ilin düzəlişində praktiki məqsədəuyğun vasitə, onun tətbiqi üçün bütün digər şərtlər yerinə yetirildiyi təqdirdə, elə icarə güzəştlərinə tətbiq edilir ki, bunlarla bağlı icarə ödənişərində hər hansı azalma yalnız ilkin şərtlərə görə 30 iyun 2022-ci il tarixində və ya bu tarixdən əvvəl ödənilməli olan ödənişlərə təsir göstərmiş oldun. Düzəliş 1 aprel 2021-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə aiddir. İcarəçilər 2021-ci ilin düzəlişini retrospektiv şəkildə, düzəlişi ilk dəfə tətbiq etdikləri illik hesabat dövrünün əvvəlində ilkin olaraq bölüşdürülməmiş mənfəətin açılış qalığına (və ya müvafiq olaraq kapitalın digər komponentinə) düzəliş kimi tətbiq etmənin məcmu təsirini nəzərə almaqla tətbiq etməlidirlər. İcarəçi 2021-ci ilin düzəlişini ilk dəfə tətbiq etdiyi hesabat dövründə 8 saylı MUBS-un 28(f) bəndində nəzərdə tutulan məlumatların açıqlamalı deyildir.

16 saylı MHBS-nin 2-ci bəndinə uyğun olaraq, icarəçinin 2020-ci ilin düzəlişini və ya 2021-ci ilin düzəlişini tətbiq etməsi nəticəsində müqaviləyə praktiki məqsədəuyğun vasitənin tətbiq edilə bilib-bilməməsindən asılı olmayaraq, icarəçi oxşar xüsusiyyətlərə malik və oxşar şəraitdə olan müvafiq müqavilələrə vasitəni ardıcıl şəkildə tətbiq etməlidir.

Bu düzəlişlərin Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

## 5. Seqmentlər üzrə məlumat

Əməliyyat seqmentləri − biznes fəaliyyəti həyata keçirərək gəlir əldə edən və ya xərclər çəkən, əməliyyat nəticələri Qrupun rəhbərliyi tərəfindən müntəzəm olaraq təhlil edilən və haqqında ayrıca maliyyə məlumatları mövcud olan komponentləridir.

Qrup dörd hesabat seqmentinə ayrılmışdır:

- Neft və qaz − neft və qaz məhsullarının hasilatını əks etdirir;
- Emal − xam neft və qaz kondensatının emalını əks etdirir;
- Tikinti − inzibati binaların və neft və qaz kondensatının hasilatı üçün aktivlərin tikintisini əks etdirir;
- Satış və paylaşdırma − xam neft, təbii qaz, neft məhsulları və qaz kondensatının nəqli və satışını əks etdirir.

Yuxarıda göstərilən əməliyyat hesabat seqmentlərini yaratmaq üçün heç bir əməliyyat seqmentləri cəmlənməyib.

Rəhbərlik resursların bölüşdürülməsi və fəaliyyətin qiymətləndirilməsi ilə bağlı qərarların qəbul edilməsi üçün ayrı-ayrılıqda biznes vahidləri və törəmə müəssisələrinin əməliyyatlarının nəticələrinə nəzarət edir.

Rəhbərlik hər bir seqmentin fəaliyyətini vergidən sonrakı mənfəət göstəricisinə əsasən qiymətləndirir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 5. Seqmentlər üzrə məlumat (davamı)

### Hesabat seqmentləri üzrə mənfəət və ya zərər, aktiv və öhdəliklər haqqında məlumat

31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə Qrupun hesabat seqmentləri haqqında məlumat aşağıda təqdim edilir:

| | **Neft və qaz** | **Emal** | **Tikinti** | **Satış və paylaşdırma** | **Bölüşdürülməmiş (*)** | **Düzəlişlər və eliminasiyalar (**)** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| **2020** | | | | | | | |
| **Gəlirlər** | | | | | | | |
| Kənar müştərilər | 3,337 | 7,204 | 935 | 38,066 | 65 | – | **49,607** |
| Seqmentlər arası | 2,410 | 820 | 566 | 12,130 | 481 | (16,407) | **–** |
| **Cəmi gəlirlər** | **5,747** | **8,024** | **1,501** | **50,196** | **546** | **(16,407)** | **49,607** |
| Sair əməliyyat gəliri | 44 | 322 | 21 | 102 | 125 | (110) | **504** |
| Effektiv faiz metodunu istifadə etməklə hesablanmış faiz gəlirləri | 4 | 432 | 21 | 58 | 788 | (1,132) | **171** |
| Sair maliyyə gəliri | – | 25 | – | – | – | – | **25** |
| Məzənnə fərqi üzrə gəlirlər və zərərlər, xalis | (14) | (553) | (8) | (65) | 26 | – | **(614)** |
| İstifadə edilmiş xammal və xərc materialları | (972) | (6,883) | (192) | (47,093) | (45) | 15,135 | **(40,050)** |
| Əmək haqqı, maaş və sosial müdafiə xərcləri | (301) | (441) | (369) | (703) | (319) | 116 | **(2,017)** |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi | (1,220) | (341) | (118) | (254) | (53) | 50 | **(1,936)** |
| Nəqliyyat və nəqliyyat vasitələrinə texniki xidmət | (552) | (28) | (123) | (825) | (25) | 437 | **(1,116)** |
| GKZ | – | (5) | (75) | (37) | (11) | 9 | **(119)** |
| Əsas vəsaitlərin dəyərsizləşməsi | (148) | (1,181) | (163) | (91) | (71) | – | **(1,654)** |
| Mədən vergisi | (125) | – | – | – | – | – | **(125)** |
| İstifadə hüququ olan aktivlərin köhnəlməsi | (20) | (15) | (5) | (55) | (1) | 6 | **(90)** |
| Mənfəət vergisindən başqa sair vergilər | (78) | (32) | (3) | (31) | (42) | – | **(186)** |
| Amortizasiya xərci | – | (52) | (3) | (20) | (7) | 7 | **(75)** |
| Təmir və texniki xidmət xərcləri | (247) | (60) | (155) | (72) | (38) | 148 | **(424)** |
| Kommunal xərclər | (10) | (303) | (2) | (51) | (3) | 5 | **(364)** |
| Öhdəlik və məsrəflər üzrə sair ehtiyatlarda dəyişiklik | (6) | – | (13) | (35) | 11 | – | **(43)** |
| Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin silinməsi üzrə gəlir / (zərər) | 23 | – | – | (2) | (18) | – | **3** |
| Maliyyə xərcləri | (157) | (492) | (13) | (170) | (586) | 231 | **(1,187)** |
| Sosial xərclər | (13) | (7) | (23) | (6) | (122) | – | **(171)** |
| Birgə müəssisələrin maliyyə nəticələrində pay | (1) | (427) | (5) | 1 | 21 | – | **(411)** |
| Asılı müəssisələrin maliyyə nəticələrində pay | – | – | – | 96 | 4 | – | **100** |
| Mənfəət vergisi xərcləri | (300) | 135 | (51) | (61) | (20) | – | **(297)** |
| Sair | (287) | (241) | (342) | (573) | (529) | 707 | **(1,265)** |
| **İl üzrə xalis mənfəət/(zərər)** | **1,367** | **(2,123)** | **(120)** | **309** | **(369)** | **(798)** | **(1,734)** |

*(*) Bu məbləğlərə tədqiqat və işlənmə, İT, təhlükəsizlik və qrup səviyyəsində idarə edilməyən sair funksiyalar üzrə bölüşdürülməmiş gəlir və xərclər daxildir.*

*(**) Seqmentlər arası gəlirlər və xərclər konsolidasiya zamanı maliyyə hesabatlarında silinir. Eliminasiyalar kimi göstərilən məbləğlər şirkətdaxili əməliyyatları ifadə edir.*

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 5. Seqmentlər üzrə məlumat (davamı)

### Hesabat seqmentləri üzrə mənfəət və ya zərər, aktiv və öhdəliklər haqqında məlumat (davamı)

| | Neft və qaz | Emal | Tikinti | Satış və paylaşdırma | Bölüşdürülməmiş (*) | Düzəlişləri və eliminasiyalar (**) | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Asılı müəssisələrə investisiyalar | – | – | – | 4,142 | 31 | – | **4,173** |
| Birgə müəssisələrə investisiyalar | 30 | 4,640 | 190 | 5 | 77 | – | **4,942** |
| Hesabat seqmentinə aid olan sair aktivlər | 27,096 | 16,483 | 2,777 | 16,850 | 21,686 | (29,852) | **55,040** |
| **Hesabat seqmentinə aid olan cəmi aktivlər** | **27,126** | **21,123** | **2,967** | **20,997** | **21,794** | **(29,852)** | **64,155** |
| **Hesabat seqmentinə aid olan cəmi öhdəliklər** | **(13,484)** | **(12,976)** | **(1,687)** | **(16,443)** | **(17,662)** | **20,020** | **(42,232)** |
| | | | | | | | |
| **Kapital məsrəflər (***)** | | | | | | | |
| Əlavələr − biznes vahidləri, BM və asılı müəssisələr | 498 | 1,204 | 6 | 127 | 39 | 38 | **1,912** |
| Əlavələr − törəmə müəssisələr | 1,819 | 559 | 11 | 156 | 18 | (47) | **2,516** |
| **Cəmi kapital məsrəfləri** | **2,317** | **1,763** | **17** | **283** | **57** | **(9)** | **4,428** |

(*) *Bu məbləğlərə tədqiqat və işlənmə, İT, təhlükəsizlik və qrup səviyyəsində idarə edilməyən sair funksiyalar üzrə bölüşdürülməmiş aktivlər və öhdəliklər daxildir.*

(**) *Seqmentlər arası qalıqlar konsolidasiya zamanı maliyyə hesabatlarında silinir. Eliminasiyalar kimi göstərilən məbləğlər şirkətdaxili balansları ifadə edir.*

(***) *Kapital məsrəflər maliyyə alətləri, təxirə salınmış vergi aktivləri, əmək fəaliyyətinin başa çatmasından sonra ödəniş planları üzrə aktivlər istisna olmaqla uzunmüddətli aktivlərə edilən əlavələri əks etdirir.*

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 5. Seqmentlər üzrə məlumat (davamı)

### Hesabat seqmentləri üzrə mənfəət və ya zərər, aktiv və öhdəliklər haqqında məlumat (davamı)

31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə hesabat seqmentləri haqqında məlumat aşağıda təqdim edilir.

| | Neft və qaz | Emal | Tikinti | Satış və paylaşdırma | Bölüşdürülməmiş (*) | Düzəlişlər və eliminasiyalar (**) | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **2019** | | | | | | | |
| **Gəlirlər** | | | | | | | |
| Kənar müştərilər | 2,518 | 9,418 | 1,085 | 70,680 | 51 | – | **83,752** |
| Seqmentlər arası | 3,156 | 747 | 828 | 21,701 | 522 | (26,954) | **–** |
| **Cəmi gəlirlər** | **5,674** | **10,165** | **1,913** | **92,381** | **573** | **(26,954)** | **83,752** |
| Sair əməliyyat gəliri | 10 | 171 | 31 | 100 | 115 | (86) | **341** |
| Effektiv faiz metodunu istifadə etməklə hesablanmış faiz gəlirləri | 6 | 161 | 31 | 46 | 1,669 | (1,750) | **163** |
| Sair maliyyə gəliri | – | 47 | – | – | – | – | **47** |
| Məzənnə fərqi üzrə (zərərlər)/gəlirlər, xalis | (7) | (256) | (7) | (36) | (9) | – | **(315)** |
| İstifadə edilmiş xammal və xərc materialları | (692) | (8,634) | (392) | (89,746) | (48) | 25,541 | **(73,971)** |
| Əmək haqqı, maaş və sosial müdafiə xərcləri | (262) | (417) | (349) | (559) | (307) | 154 | **(1,740)** |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi | (978) | (258) | (118) | (252) | (59) | 62 | **(1,603)** |
| Nəqliyyat və nəqliyyat vasitələrinə texniki xidmət | (446) | (22) | (205) | (716) | (33) | 338 | **(1,084)** |
| GKZ | (3) | (2) | (1) | (30) | (4) | (9) | **(49)** |
| Əsas vəsaitlərin dəyərsizləşməsi | (283) | – | – | (3) | – | – | **(286)** |
| Mədən vergisi | (125) | – | – | – | – | – | **(125)** |
| İstifadə hüququ olan aktivin köhnəlməsi | (29) | (23) | (5) | (40) | – | 8 | **(89)** |
| Mənfəət vergisindən başqa sair vergilər | (83) | (25) | (3) | (28) | (58) | – | **(197)** |
| Amortizasiya xərci | – | (33) | (1) | (19) | (9) | 1 | **(61)** |
| Təmir və texniki xidmət xərcləri | (295) | (41) | (113) | (66) | (72) | 229 | **(358)** |
| Kommunal xərclər | (14) | (318) | (3) | (58) | (3) | 2 | **(394)** |
| Öhdəlik və məsrəflər üçün sair ehtiyatlarda dəyişiklik | (10) | (8) | (46) | (3) | (6) | – | **(73)** |
| Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin silinməsi üzrə zərərlər | – | (7) | – | 1 | (4) | – | **(10)** |
| Maliyyə xərcləri | (144) | (210) | (36) | (175) | (609) | 14 | **(1,160)** |
| Sosial xərclər | (13) | (10) | (3) | (6) | (86) | – | **(118)** |
| Birgə müəssisələrin maliyyə nəticələrində pay | 10 | (32) | 2 | – | 34 | – | **14** |
| Asılı müəssisələrin maliyyə nəticələrində pay | – | – | – | (6) | 1 | – | **(5)** |
| Mənfəət vergisi xərcləri | (387) | (49) | (85) | (88) | (68) | – | **(677)** |
| Sair | (372) | (297) | (293) | (644) | (332) | 587 | **(1,351)** |
| **İl üzrə xalis mənfəət/(zərər)** | **1,557** | **(98)** | **317** | **53** | **685** | **(1,863)** | **651** |

*(*) Bu məbləğlərə tədqiqat və işlənmə, İT, təhlükəsizlik və qrup səviyyəsində idarə edilməyən sair funksiyalar üzrə bölüşdürülməmiş gəlir və xərclər daxildir.*

*(**) Seqmentlər arası gəlirlər və xərclər konsolidasiya zamanı maliyyə hesabatlarında silinir. Eliminasiyalar kimi göstərilən məbləğlər şirkətdaxili əməliyyatları ifadə edir.*

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 5. Seqmentlər üzrə məlumat (davamı)

### Hesabat seqmentləri üzrə mənfəət və ya zərər, aktiv və öhdəliklər haqqında məlumat (davamı)

| | Neft və qaz | Emal | Tikinti | Satış və paylaşdırma | Bölüşdürülməmiş (*) | Düzəlişlər və eliminasiyalar (**) | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Asılı müəssisələrə investisiyalar | – | – | – | 4,181 | 27 | – | **4,208** |
| Birgə müəssisələrə investisiyalar | 39 | 5,057 | 222 | 4 | 76 | – | **5,398** |
| Hesabat seqmentinə aid olan sair aktivlər | 25,553 | 16,170 | 3,197 | 18,453 | 20,174 | (27,778) | **55,769** |
| **Hesabat seqmentinə aid olan cəmi aktivlər** | **25,592** | **21,227** | **3,419** | **22,638** | **20,277** | **(27,778)** | **65,375** |
| **Hesabat seqmentinə aid olan cəmi öhdəliklər** | **(12,402)** | **(11,648)** | **(1,677)** | **(18,317)** | **(15,600)** | **18,597** | **(41,047)** |
| **Kapital məsrəflər (***)** | | | | | | | |
| Əlavələr − biznes vahidləri, BM və asılı müəssisələr | 1,030 | 2,088 | 5 | 212 | 42 | (73) | **3,304** |
| Əlavələr − törəmə müəssisələr | 1,749 | 665 | 21 | 159 | 1 | (56) | **2,539** |
| Müəssisələrin birləşməsi yolu ilə satınalmalar (EWE Holding) | – | – | – | 672 | – | – | **672** |
| **Cəmi kapital məsrəfləri** | **2,779** | **2,753** | **26** | **1,043** | **43** | **(129)** | **6,515** |

*(*) Bu məbləğlərə tədqiqat və işlənmə, İT, təhlükəsizlik və qrup səviyyəsində idarə edilməyən sair funksiyalar üzrə bölüşdürülməmiş aktivlər və öhdəliklər daxildir.*

*(**) Seqmentlər arası qalıqlar konsolidasiya zamanı maliyyə hesabatlarında silinir. Eliminasiyalar kimi göstərilən məbləğlər şirkətdaxili balansları ifadə edir.*

*(***) Kapital məsrəflər maliyyə alətləri, təxirə salınmış vergi aktivləri, əmək fəaliyyətinin başa çatmasından sonra ödəniş planları üzrə aktivlər istisna olmaqla uzunmüddətli aktivlərə edilən əlavələri əks etdirir.*

### Coğrafi məlumat

Hər bir ayrıca ölkə üzrə gəlirlər aşağıdakı cədvəldə göstərilir:

| | 2020 | 2019 |
|---|---|---|
| İsveçrə | 30,478 | 63,735 |
| Türkiyə | 7,618 | 9,377 |
| Azərbaycan | 6,311 | 6,145 |
| BƏƏ | 2,223 | 1,722 |
| Gürcüstan | 1,045 | 1,172 |
| Sair | 1,932 | 1,601 |
| **Cəmi konsolidasiya edilmiş gəlirlər** | **49,607** | **83,752** |

Təhlil satışı həyata keçirən şirkətin qeydiyyata alındığı ölkəyə əsaslanır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 5. Seqmentlər üzrə məlumat (davamı)

### Coğrafi məlumat (davamı)

Aşağıdakı cədvəldə Qrupun 31 dekabr 2020-ci il tarixinə müştərilərlə müqavilələrdən əldə edilən gəlirləri təqdim edilir:

| Seqmentlər | Neft və qaz | Emal | Tikinti | Satış və paylaşdırma | Bölüşdürülməmiş (*) | Cəmi |
|---|---|---|---|---|---|---|
| Xam neftin satışı, xalis | 2,387 | – | – | 24,032 | – | **26,419** |
| Neft məhsullarının satışı, xalis | 499 | 2,747 | – | 10,132 | – | **13,378** |
| Təbii qazın satışı | 349 | 900 | – | 2,766 | – | **4,015** |
| Neft-kimya məhsullarının satışı | – | 2,899 | – | 382 | – | **3,281** |
| Kirayə gəliri | – | 16 | 453 | – | – | **469** |
| Sair gəlirlər | 102 | 642 | 482 | 754 | 65 | **2,045** |
| **Cəmi** | **3,337** | **7,204** | **935** | **38,066** | **65** | **49,607** |
| İsveçrə | – | – | – | 30,478 | – | **30,478** |
| Türkiyə | 489 | 7,129 | – | – | – | **7,618** |
| Azərbaycan | 2,848 | 75 | 778 | 2,546 | 64 | **6,311** |
| BƏƏ | – | – | 157 | 2,066 | – | **2,223** |
| Gürcüstan | – | – | – | 1,044 | 1 | **1,045** |
| Sair | – | – | – | 1,932 | – | **1,932** |
| **Cəmi** | **3,337** | **7,204** | **935** | **38,066** | **65** | **49,607** |
| Konkret vaxtda köçürülmüş mallar | 3,337 | 7,035 | – | 37,729 | 56 | **48,157** |
| Müəyyən vaxt ərzində köçürülmüş xidmətlər | – | 169 | 935 | 337 | 9 | **1,450** |
| **Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər** | **3,337** | **7,204** | **935** | **38,066** | **65** | **49,607** |
| **Gəlirlər** | | | | | | |
| Kənar müştəri | 3,337 | 7,204 | 935 | 38,066 | 65 | **49,607** |
| Seqmentlər arası | 2,410 | 820 | 566 | 12,130 | 481 | **16,407** |
| **Cəmi** | **5,747** | **8,024** | **1,501** | **50,196** | **546** | **66,014** |
| Düzəlişlər və silinmələr | (2,410) | (820) | (566) | (12,130) | (481) | **(16,407)** |
| **Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər** | **3,337** | **7,204** | **935** | **38,066** | **65** | **49,607** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 5. Seqmentlər üzrə məlumat (davamı)

### Coğrafi məlumat (davamı)

Aşağıdakı cədvəldə Qrupun 31 dekabr 2019-cu il tarixinə müştərilərlə müqavilələrdən əldə edilən gəlirləri təqdim edilir:

| Seqmentlər | Neft və qaz | Emal | Tikinti | Satış və paylaşdırma | Bölüşdürülməmiş (*) | Cəmi |
|---|---|---|---|---|---|---|
| Xam neftin satışı, xalis | 1,930 | – | – | 49,191 | – | **51,121** |
| Neft məhsullarının satışı, xalis | 55 | 4,785 | – | 17,344 | – | **22,184** |
| Təbii qazın satışı | 340 | 651 | – | 3,132 | – | **4,123** |
| Neft-kimya məhsullarının satışı | – | 3,609 | – | 319 | – | **3,928** |
| Kirayə gəliri | – | 16 | 400 | – | – | **416** |
| Sair gəlirlər | 193 | 357 | 685 | 694 | 51 | **1,980** |
| **Cəmi** | **2,518** | **9,418** | **1,085** | **70,680** | **51** | **83,752** |
| İsveçrə | – | – | – | 63,735 | – | **63,735** |
| Azərbaycan | 2,518 | 41 | 914 | 2,623 | 49 | **6,145** |
| Türkiyə | – | 9,377 | – | – | – | **9,377** |
| BƏƏ | – | – | 171 | 1,551 | – | **1,722** |
| Gürcüstan | – | – | – | 1,170 | 2 | **1,172** |
| Sair | – | – | – | 1,601 | – | **1,601** |
| **Cəmi** | **2,518** | **9,418** | **1,085** | **70,680** | **51** | **83,752** |
| Konkret vaxtda köçürülmüş mallar | 2,518 | 9,378 | – | 69,847 | 48 | **81,791** |
| Müəyyən vaxt ərzində köçürülmüş xidmətlər | – | 40 | 1,085 | 833 | 3 | **1,961** |
| **Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər** | **2,518** | **9,418** | **1,085** | **70,680** | **51** | **83,752** |
| **Gəlirlər** | | | | | | |
| Kənar müştəri | 2,518 | 9,418 | 1,085 | 70,680 | 51 | **83,752** |
| Seqmentlər arası | 3,156 | 747 | 828 | 21,701 | 522 | **26,954** |
| **Cəmi** | **5,674** | **10,165** | **1,913** | **92,381** | **573** | **110,706** |
| Düzəlişlər və silinmələr | (3,156) | (747) | (828) | (21,701) | (522) | **(26,954)** |
| **Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər** | **2,518** | **9,418** | **1,085** | **70,680** | **51** | **83,752** |

Maliyyə alətləri, təxirə salınmış vergi aktivləri və əmək fəaliyyətinin başa çatmasından sonra ödəniş planları üzrə aktivlər istisna olmaqla, hər bir ölkə üzrə uzunmüddətli aktivlər aşağıdakı cədvəldə göstərilir:

| | 2020 | 2019 |
|---|---|---|
| Azərbaycan | 32,888 | 32,847 |
| Türkiyə | 7,933 | 8,838 |
| İsveçrə | 955 | 977 |
| Gürcüstan | 475 | 548 |
| BƏƏ | 439 | 522 |
| Sair | 325 | 269 |
| **Cəmi** | **43,015** | **44,001** |

Təhlil aktivlərin yerləşdiyi məkana əsaslanır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 6. Maliyyə risklərinin idarə edilməsi

### Maliyyə riski amilləri

Qrupun törəmə alətlər olmayan əsas maliyyə öhdəlikləri ticarət və sair debitor borcları və borc öhdəliklərindən ibarətdir. Bu maliyyə öhdəliklərinin əsas məqsədi Qrupun əməliyyatlarını maliyyələşdirməkdir. Qrupun əsas maliyyə aktivlərinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və birbaşa əməliyyatlardan yaranan sair debitor borcları daxildir. Qrup həmçinin borc və kapital alətlərində investisiyalara malikdir və törəmə əməliyyatlarda iştirak edir.

Fəaliyyətinin adi gedişində Qrup bazar, kredit və likvidlik risklərinə məruz qalır. Qrupun ümumi risk idarəetmə proqramı maliyyə bazarlarının qeyri-müəyyənliklərini əhatə edir və Qrupun maliyyə fəaliyyətinə potensial mənfi təsiri azaltmağı nəzərdə tutur. Maliyyə nəticələrinə təsir edə bilən müxtəlif risklərin səmərəli şəkildə idarə edilməsi üçün Qrupun əsas strategiyası güclü maliyyə mövqeyinin qorunub saxlanmasından ibarətdir. İdarəetmə üzrə müəyyən edilmiş rəsmi prosedurların olmamasına baxmayaraq, Qrupun rəhbərliyi maliyyə risklərini cari bazar mövqeyinə istinadən müəyyən edir və qiymətləndirir.

### Bazar riski

Bazar riski maliyyə alətinin ədalətli dəyəri və ya gələcək pul vəsaitləri hərəkətinin bazar qiymətlərində dəyişikliklər nəticəsində tərəddüd etməsi riskidir. Bazar riski üç növ risklərdən ibarətdir: məzənnə riski, əmtəə qiyməti riski və faiz dərəcəsi riski. Maliyyə riskinə məruz qalan maliyyə alətlərinə pul vəsaitləri və pul vəsaitlərin ekvivalentləri və qısamüddətli depozitlər, ticarət və sair debitor borcları, borc öhdəlikləri və törəmə alətlər daxildir.

*(i) Xarici valyuta riski*

Qrup fəaliyyətin adi gedişində əsasən ABŞ dolları məzənnəsi ilə əlaqədar olaraq xarici valyuta üzrə məzənnə riskinə məruz qalır. Xarici valyuta üzrə məzənnə riskləri əsasən gələcək kommersiya əməliyyatlarından, uçota alınmış aktiv və öhdəliklərdən yaranır (bu aktiv və öhdəliklər funksional valyutadan fərqli valyutada ifadə edildikdə).

Qrupun pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və qısamüddətli depozitləri, ticarət və sair debitor borcları, ticarət və sair kreditor borcları və borc öhdəliklərinin əksər hissəsi ABŞ dolları ilə ifadə edilir.

Bütün sair dəyişənlərin sabit qalması şərti ilə, Qrupun vergidən əvvəlki mənfəətinin ABŞ dolları, Avro, TL, GEL, CHF üzrə məzənnələrdəki mümkün dəyişikliklərə qarşı həssaslıq təhlili aşağıdakı cədvəldə göstərilir:

| **2020** | **Məzənnənin dəyişməsi (+/-)** | **Vergidən əvvəlki mənfəətə təsir** |
|---|---|---|
| ABŞ dolları / AZN | 20.00%/-3.00% | (1,977)/297 |
| Avro / AZN | 22.00%/-10.00% | (179)/81 |
| ABŞ dolları / TL | 10.00%/-10.00% | (122)/122 |
| ABŞ dolları / GEL | 15.00%/-7.00% | (42)/19 |
| Avro / ABŞ dolları | 10.00%/-9.00% | 20/(18) |
| Avro / TL | 10.00%/-10.00% | (7)/7 |
| ABŞ dolları / CHF | 7.00%/-8.00% | 1/(1) |

| **2019** | **Məzənnənin dəyişməsi (+/-)** | **Vergidən əvvəlki mənfəətə təsir** |
|---|---|---|
| ABŞ dolları / AZN | 10.00%/-3.00% | (816)/245 |
| Avro / AZN | 10.00%/-6.00% | (104)/62 |
| ABŞ dolları / TL | 10.00%/-10.00% | (120)/120 |
| ABŞ dolları / GEL | 10.00%/-5.00% | (24)/12 |
| Avro / ABŞ dolları | 8.00%/-8.00% | 5/(5) |
| Avro / TL | 10.00%/-10.00% | (11)/11 |
| ABŞ dolları / CHF | 6.50%/-6.50% | 4/(4) |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

**6. Maliyyə risklərinin idarə edilməsi (davamı)**

**Bazar riski (davamı)**

Qrupun bütün sair valyutalar üzrə xarici valyuta riski əhəmiyyətli deyil.

*(ii) Malların qiymət riski*

Qrup neft qiymətində dəyişikliklərə görə müəyyən qiymət riskinə məruz qalır. Riski nəzərə alaraq Qrupun rəhbərliyi neft qiyməti riski və onun azaldılması ilə əlaqədar riskin idarə edilməsi strategiyasını tərtib və tətbiq etmişdir.

Neft alqı-satqısına dair proqnozlara əsaslanaraq Qrup qiymətləri fyuçers, svoplar və forvard razılaşmaları vasitəsilə hedcinq edir.

31 dekabr 2020-ci il tarixinə Qrupun törəmə qiymət riskləri əsasında vergidən əvvəlki zərərinin gələcək qiymətlərdə müsbət və ya mənfi dəyişikliklərə həssaslığı, digər göstəricilər sabit olmaqla, əhəmiyyətli olmamışdır.

*(iii) Faiz dərəcəsi riski*

Faiz dərəcələrində dəyişikliklər əsasən borc öhdəliklərinin ədalətli dəyərinə (sabit faizli borclar) və ya gələcək pul vəsaitlərinin hərəkətinə (dəyişkən faizli borclar) təsir edir. Qrup bazar faiz dərəcələrindəki dəyişikliklər riskinə əsasən dəyişkən faiz dərəcəli maliyyə aktivləri və öhdəlikləri ilə əlaqədar məruz qalır. Bu riskin azaldılması məqsədilə Qrupun rəhbərliyi cari faiz dərəcəsinin müntəzəm təhlilini aparır və bu təhlildən asılı olaraq rəhbərlik maliyyələşməni sabit və ya dəyişkən dərəcə əsasında əldə edilməsinin daha əlverişli olub-olmamasına dair qərarı qəbul edir. Cari bazarda sabit və ya dəyişkən faiz dərəcəsi ilə baş vermiş dəyişiklik əhəmiyyətli hesab edildiyi təqdirdə rəhbərlik müəyyən borcun daha əlverişli faiz dərəcəsi ilə yenidən maliyyələşdirməsini nəzərdən keçirə bilər. Rəhbərlik Qrupun risklərinin sabit və ya dəyişkən faiz dərəcələri üzrə təsirini müəyyən etmək üçün rəsmi siyasətə malik deyil.

Faiz hesablanan öhdəlik və aktivlərin əksəriyyəti üzrə dəyişkən faiz dərəcəsi Qrupu əsasən London banklararası təklif dərəcəsi (LİBOR) və Avro banklararası təklif dərəcəsində (EURIBOR) olan dəyişikliklərə görə faiz ödənişlərinin və gəlirlərinin dəyişməsinə məruz qoyur.

Kreditlər və borc öhdəlikləri üzrə, kreditlər üzrə alınacaq məbləğlər çıxılmaqla, faiz dərəcələrindəki mümkün dəyişikliklərə qarşı həssaslıq təhlili aşağıdakı cədvəldə əks etdirilir.

| **2020** | **Baza dərəcələrində artım/azalma** | **Vergidən əvvəlki mənfəətə təsir** |
|---|---|---|
| **Kreditlər və borc öhdəlikləri, kreditlər üzrə debitor borcları çıxılmaqla** | | |
| ABŞ dolları | +100/-25 | (50)/12 |
| Avro | +20/-20 | (2)/2 |

| **2019** | **Baza dərəcələrində artım/azalma** | **Vergidən əvvəlki mənfəətə təsir** |
|---|---|---|
| **Kreditlər və borc öhdəlikləri, kreditlər üzrə debitor borcları çıxılmaqla** | | |
| ABŞ dolları | +35/-35 | (19)/19 |
| Avro | +15/-15 | (1)/1 |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 6. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Kredit riski və kredit riskinin konsentrasiyası

Kredit riski qarşı tərəfin müqavilə üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Qrupa dəyə biləcək potensial maliyyə zərəridir.

Qrupun kredit riskinin konsentrasiyasına məruz qalan maliyyə alətləri ilk növbədə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, o cümlədən məhdudiyyət qoyulmuş pul vəsaitləri daxil olmaqla, ticarət debitor borcları və kreditlər üzrə alınacaq məbləğlərdən ibarətdir.

Qrupun məruz qaldığı kredit riskinin maksimum dərəcəsi maliyyə aktivlərinin ümumi balans dəyəri üzrə əks etdirilir və aşağıdakı cədvəldə aktivlərin kateqoriyalarına görə təsnifləşdirilir:

| | 2020 | 2019 |
|---|---|---|
| Kassada olan pul vəsaitləri istisna olmaqla, pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 8) | 6,187 | 7,086 |
| Məhdudlaşdırılmış pul vəsaitləri | 161 | 150 |
| Depozitlər (Qeyd 8) | 665 | 107 |
| Ticarət və sair debitor borcları (Qeyd 10) | 6,018 | 7,940 |
| Sair cari maliyyə aktivləri | 369 | 304 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 870 | 681 |
| Verilmiş maliyyə zəmanətləri (Qeyd 38) | 975 | 1,042 |
| **Cəmi kredit riski** | **15,245** | **17,310** |

Qrup pul vəsaitlərini Azərbaycan Respublikasında tanınmış maliyyə təşkilatlarında saxlayır. Qrupun pul vəsaitləri Azərbaycan Hökumətinin nəzarətində olan Azərbaycan Beynəlxalq Bankında ("ABB") yerləşdirilir. 31 dekabr 2020-ci il tarixində ABB-də saxlanılan pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, eləcə də depozitləri 2,053 AZN (31 dekabr 2019-cu il: 2,684 AZN) təşkil etmişdir. Qrup hesablarının olduğu bankların statusuna daim nəzarət edir. Bundan əlavə, Dövlətin xəzinə hesabında Qrupun 43 AZN (31 dekabr 2019-cu il: 37 AZN) məbləğində məhdudiyyət qoyulmuş pul vəsaitləri yerləşdirilmişdir.

Ticarət debitor borcları xam neft, neft məhsulları və təbii qaz satışına görə yerli və xarici müştərilər, o cümlədən əlaqəli tərəflərlə yaranmış balanslardan ibarətdir. Qrupun müştərilərlə ticarət balansından yaranan kredit riski onların ödəmə qabiliyyətini daimi nəzarət altında saxlamaqla azaldılır. Qrupun rəhbərliyi gələcəkdə qaytarılması gözlənilməyən bütün debitor borclar üçün konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında dəyərsizləşmə üzrə ehtiyatlar hesablandığına görə Qrup mövcud debitorlarla bağlı yüksək kredit riskinə məruz qalmadığını hesab edir.

Qrup maliyyə aktivlərini aşağıdakı kateqoriyalara bölmüşdür:

| 31 dekabr 2020-ci il | Standart | Qeyri-standart | Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | Defolta uğramış |
|---|---|---|---|---|
| Kassada olan pullar istisna olmaqla, pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 8) | 6,158 | – | – | 29 |
| Məhdudlaşdırılmış pul vəsaitləri | 123 | – | – | 38 |
| Depozitlər (Qeyd 8) | 665 | – | – | – |
| Ticarət və sair debitor borcları (Qeyd 10) | 4,873 | 405 | 386 | 354 |
| Sair cari maliyyə aktivləri | – | 369 | – | – |
| Sair uzunmüddətli maliyyə aktivləri | – | 870 | – | – |
| **Cəmi** | **11,819** | **1,644** | **386** | **421** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 6. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Kredit riski və kredit riskinin konsentrasiyası (davamı)

| 31 dekabr 2019-cu il | Standart | Qeyri-standart | Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | Defolta uğramış |
|---|---|---|---|---|
| Kassada olan pullar istisna olmaqla, pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 8) | 7,086 | – | – | – |
| Məhdudlaşdırılmış pul vəsaitləri | 150 | – | – | – |
| Depozitlər (Qeyd 8) | 107 | – | – | – |
| Ticarət və sair debitor borcları (Qeyd 10) | 6,644 | 226 | 525 | 545 |
| Sair cari maliyyə aktivlər | – | 304 | – | – |
| Sair uzunmüddətli maliyyə aktivləri | – | 681 | – | – |
| **Cəmi** | **13,987** | **1,211** | **525** | **545** |

Standart dərəcəyə minimum kredit riskinə məruz qalan sabit maliyyə vəziyyəti və borcun ödənilməsi tarixçəsi olan qarşı tərəflər daxildir. Bundan əlavə, bu maliyyə aktivlərində qarşı tərəflər bir qayda olaraq yüksək kredit reytinqinə malik olur və ya kifayət qədər təminatlı olur. Qeyri-standart dərəcə yüksək kredit reytinqi olmayan qarşı tərəflərin ödəniş müddəti keçməmiş və defolta uğramamış maliyyə alətlərini əhatə edir.

Aşağıdakı meyarlardan biri qarşılandıqda Qrup kredit riskində əhəmiyyətli artımın baş verməsini hesab edir:

- Müqavilə üzrə ödənişlərdə 30 gündən artıq gecikmə;
- Qarşı tərəfin beynəlxalq reytinq agentlikləri tərəfindən müəyyən edilmiş xarici kredit reytinqinin ilkin tanınma tarixinə qarşı tərəfin risk dərəcəsi ilə müqayisədə 3 və daha çox pillə aşağı düşməsi,
- Moody’s reytinq agentliyinin “Caa1” xarici reytinqi (və ya S&P və Fitch agentliklərinin ekvivalent reytinqləri).

Aşağıdakı meyarlardan biri qarşılandıqda Qrup maliyyə aktivini defolta uğramış hesab edir:

- Müqavilə üzrə ödənişlərdə 90 gündən artıq gecikmə;
- Qarşı tərəfin müflis olması, ödəniş qabiliyyətini itirməsi və ya oxşar şəraitə düşməsi/düşəcəyi haqqında məlumatın mövcud olması;
- Beynəlxalq reytinq agentliklərinin qarşı tərəfin defolta uğramasını elan etməsi.

### Likvidlik riski

Likvidlik riski Qrupun ödəmə vaxtı çatmış maliyyə öhdəliklərini yerinə yetirə bilməyəcəyi riskidir. Likvidliyin idarə edilməsinə Qrupun yanaşması həm normal, həm də stressli şəraitdə, qəbul edilməyən zərərlər çəkməyərək və ya Qrupun nüfuzuna ziyan vurmayaraq, öhdəlikləri yerinə yetirməli olanda kifayət qədər likvidliyi təmin etməkdən ibarətdir. Likvidlik riskini idarə edərkən Qrup kifayət qədər pul ehtiyatları və borc öhdəlikləri saxlayır, proqnozlaşdırılmış və faktiki pul vəsaitlərinin hərəkətinə davamlı olaraq nəzarət edir.

Likvidlik riskinin düzgün idarə olunması funksiyasına kifayət qədər dövriyyə kapitalının saxlanması və bazar mövqelərinin bağlana bilməsi daxildir. Rəhbərlik, Qrupun likvidlik ehtiyatı üzrə davamlı proqnozlarına gözlənilən pul vəsaitlərinin hərəkətinə əsasən nəzarət edir.

Qrupun maliyyə öhdəlikləri törəmə və qeyri-törəmə maliyyə alətlərindən ibarətdir. Aşağıdakı cədvəldə Qrupun maliyyə öhdəlikləri hesabat tarixindən müqavilədə nəzərdə tutulan son ödəmə tarixinədək qalan dövr üzrə müvafiq ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlər müqavilədə nəzərdə tutulan diskont edilməmiş pul vəsaitlərinin hərəkətini əks etdirir. Buraxılmış maliyyə zəmanəti müqavilələri üçün maksimal məbləğ müqavilənin ləğv edilə bildiyi ən erkən dövrə aid edilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 6. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Likvidlik riski (davamı)

31 dekabr 2020-ci və 2019-cu il tarixlərinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| 31 dekabr 2020-ci il | 3 aydan az | 3-12 ay | 1-5 il | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|
| Ticarət və sair maliyyə kreditor borcları | 9,126 | – | – | – | **9,126** |
| Icarə öhdəlikləri | 42 | 124 | 328 | 865 | **1,359** |
| Alış üzrə təxirə salınmış borc öhdəliyi | – | 212 | – | 841 | **1,053** |
| Sair cari öhdəliklər | – | 575 | – | – | **575** |
| Faiz hesablanan borc öhdəlikləri | 2,698 | 3,628 | 10,375 | 3,673 | **20,374** |
| Sair uzunmüddətli öhdəliklər | – | – | 818 | 63 | **881** |
| Satış opsionu öhdəliklər | 32 | 2,760 | – | – | **2,792** |
| Verilmiş maliyyə zəmanətləri | 975 | – | – | – | **975** |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | **12,873** | **7,299** | **11,521** | **5,442** | **37,135** |

| 31 dekabr 2019-cu il | 3 aydan az | 3-12 ay | 1-5 il | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|
| Ticarət və sair maliyyə kreditor borcları | 10,600 | – | – | – | **10,600** |
| İcarə öhdəlikləri | 31 | 92 | 378 | 748 | **1,249** |
| Alış üzrə təxirə salınmış borc öhdəliyi | – | 157 | – | 841 | **998** |
| Sair cari öhdəlikləri | – | 305 | – | – | **305** |
| Faiz hesablanan borc öhdəlikləri | 2,383 | 2,768 | 10,010 | 4,359 | **19,520** |
| Sair uzunmüddətli öhdəlikləri | – | – | 687 | 50 | **737** |
| Satış opsionu öhdəlikləri | 57 | 116 | 2,812 | – | **2,985** |
| Verilmiş maliyyə zəmanətləri | 1,042 | – | – | – | **1,042** |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | **14,113** | **3,438** | **13,887** | **5,998** | **37,436** |

Qrup gözləyir ki, müddəti bir ildən beşilədək dəyişən müqavilələrin müddəti başa çatana qədər maliyyə zəmanətlərinin hamısının icrası tələb olunmayacaq.

### Kapitalın idarə edilməsi

Kapitalın idarə edilməsində Qrupun əsas məqsədi düzgün investisiya qərarları qəbul etməklə biznes əməliyyatlarının maliyyələşdirilməsi və davam etdirilməsi üçün güclü kapital bazasının təmin edilməsi və hökumət, investor və kreditorun biznes fəaliyyətinin dəstəklənməsindən ibarətdir.

Qrup idarə etdiyi məcmu kapitalı aşağıdakı kimi hesablayır:

| | 2020 | 2019 |
|---|---|---|
| Cəmi borc öhdəlikləri (Qeyd 20) | 17,129 | 16,056 |
| Cəmi kapital | 21,923 | 24,328 |
| Çıxılsın: pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 8) | (6,153) | (7,084) |
| **Cəmi idarə edilən kapital** | **32,899** | **33,300** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 6. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Kapitalın idarə edilməsi (davamı)

Qrupdan vaxtaşırı olaraq dövlət büdcəsinə və Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən müxtəlif layihələrə vəsait köçürməsi tələb olunur. İl ərzində Qrupun kapitalın idarə edilməsi üzrə yanaşmasında heç bir dəyişiklik olmamışdır.

### Maliyyə alətlərinin ədalətli dəyəri

Maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri qiymətləndirmə tarixində bazar iştirakçıları arasında baş tutacaq əməliyyat əsnasında aktivin satılması üçün qəbul olunacaq və ya öhdəliyin ötürülməsi üçün ödəniləcək məbləği əks etdirir. Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Qrup tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək vacibdir. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə etmişdir.

Aşağıdakı cədvəldə maliyyə hesabatlarında əks etdirilmiş maliyyə alətləri balans dəyərləri və ədalətli dəyər sinifləri üzrə müqayisə edilir:

| | **31 dekabr 2020-ci il** | |
|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 8) | 6,153 | 6,153 |
| Depozitlər (Qeyd 8) | 658 | 658 |
| Məhdudlaşdırılmış pul vəsaitləri | 123 | 123 |
| Ticarət və sair debitor borcları | 5,340 | 5,340 |
| Sair cari aktivləri | 907 | 907 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 1,859 | 1,827 |
| **Cəmi maliyyə aktivləri** | **15,040** | **15,008** |
| Ticarət və sair kreditor borcları (Qeyd 19) | (9,126) | (9,126) |
| Sair cari maliyyə öhdəlikləri (Qeyd 25A) | (575) | (575) |
| Satış opsionu öhdəliklər (Qeyd 25B) | (2,728) | (2,728) |
| Qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi (Qeyd 20) | (5,910) | (5,910) |
| Uzunmüddətli borc öhdəlikləri (Qeyd 20) | (11,219) | (11,516) |
| Alış üzrə təxirə salınmış borc öhdəliyinin cari hissəsi | (212) | (212) |
| Alış üzrə təxirə salınmış borc öhdəliyinin uzunmüddətli hissəsi | (574) | (584) |
| Sair uzunmüddətli öhdəliklər | (881) | (815) |
| **Cəmi maliyyə öhdəlikləri** | **(31,225)** | **(31,466)** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 6. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Maliyyə alətlərinin ədalətli dəyəri (davamı)

| | 31 dekabr 2019-cu il | |
|---|---|---|
| | **Balans dəyəri** | **Ədalətli dəyər** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 8) | 7,084 | 7,084 |
| Depozitlər (Qeyd 8) | 106 | 106 |
| Məhdudlaşdırılmış pul vəsaitləri | 150 | 150 |
| Ticarət və sair debitor borcları | 7,292 | 7,292 |
| Sair cari aktivləri | 755 | 755 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 1,421 | 1,387 |
| **Cəmi maliyyə aktivləri** | **16,808** | **16,774** |
| Ticarət və sair kreditor borcları (Qeyd 19) | (10,600) | (10,600) |
| Sair cari öhdəlikləri (Qeyd 25A) | (305) | (305) |
| Satış opsionu öhdəliklər (Qeyd25B) | (2,737) | (2,737) |
| Qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi (Qeyd 20) | (4,687) | (4,687) |
| Uzunmüddətli borc öhdəlikləri (Qeyd 20) | (11,369) | (11,602) |
| Alış üzrə təxirə salınmış borc öhdəliyinin cari hissəsi | (157) | (157) |
| Alış üzrə təxirə salınmış borc öhdəliyinin uzunmüddətli hissəsi | (570) | (562) |
| Sair uzunmüddətli öhdəliklər | (737) | (654) |
| **Cəmi maliyyə öhdəlikləri** | **(31,162)** | **(31,304)** |

Ədalətli dəyərlər qiymətləndirilərkən, aşağıdakı metod və fərziyyələr istifadə edilmişdir:

(i) Cari maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri, əsas etibarı ilə bu alətlərin qısa ödəmə müddətlərinə görə, balans dəyərlərini təxmin edir;

(ii) Uzunmüddətli sabit və dəyişən dərəcəli debitor borcları/borc öhdəlikləri Qrup tərəfindən faiz dərəcələri, ölkə üzrə xüsusi risk amilləri, müştərinin fərdi kredit ödəmə qabiliyyəti və maliyyələşdirilən layihənin risk xüsusiyyətləri kimi parametrlərə əsaslanaraq Səviyyə 3-ün məlumatlarından istifadə etməklə qiymətləndirilir;

(iii) Qrup əsasən investisiya kredit reytinqi olan maliyyə təşkilatları kimi müxtəlif qarşı tərəflərlə törəmə maliyyə alətləri haqqında müqavilə bağlayır. Fyuçerslər, svoplar və əmtəə forvard müqavilələri bazarda müşahidə edilən giriş məlumatlarının istifadəsini nəzərdə tutan qiymətləndirmə mexanizmlərində istifadə etməklə qiymətləndirilir. Ən çox tətbiq edilən qiymətləndirmə mezanizmlərinə cari dəyərin hesablamalarını istifadə edən proqnoz qiymətqoyma və svop modelləri daxildir. Modellərə müxtəlif giriş məlumatları, o cümlədən qarşı tərəflərin kredit ödəmə qabiliyyəti, müvafiq malların faiz dərəcəsi əyriləri və forvard dərəcəsi əyrisi daxildir. Bəzi törəmə alətlər haqqında müqavilələr pul vəsaitləri ilə tam təmin edildiyi üçün, qarşı tərəflə və Qrupun özü tərəfindən öhdəliklərin yerinə yetirilməməsi riskinə məruz qalmır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 6. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Ədalətli dəyər iyerarxiyası

Aşağıdakı cədvəldə Qrupun 31 dekabr 2020-ci il tarixinə aktiv və öhdəliklərinin ədalətli dəyərinin ölçülməsi iyerarxiyası təqdim edilir:

| | Cəmi | Fəal bazarda kvotasiya olunan qiymətlər (Səviyyə 1) | Əhəmiyyətli müşahidə edilə bilən giriş məlumatları (Səviyyə 2) | Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları (Səviyyə 3) |
|---|---|---|---|---|
| **Ədalətli dəyərlə ölçülmüş aktivlər** | | | | |
| MZƏD ilə tanınan sair cari maliyyə aktivləri | **468** | – | 458 | 10 |
| SMGƏD ilə tanınan sair cari maliyyə aktivləri | **67** | 67 | – | – |
| SMGƏD ilə tanınan ticarət debitor borları | **256** | – | 256 | – |
| MZƏD ilə tanınan sair uzunmüddətli maliyyə aktivləri | **1,050** | – | 194 | 856 |
| **Ədalətli dəyərlə ölçülmüş öhdəliklər** | | | | |
| MZƏD ilə tanınan sair cari öhdəliklər | **(536)** | (150) | (370) | (16) |
| MZƏD ilə tanınan sair uzunmüddətli öhdəliklər | **(178)** | – | (167) | (11) |
| **Ədalətli dəyəri açıqlanan aktivlər** | | | | |
| Depozitlər | **658** | – | 658 | – |
| Ticarət və sair debitor borcları | **5,084** | – | – | 5,084 |
| Sair cari maliyyə aktivləri | **372** | – | – | 372 |
| Sair uzunmüddətli maliyyə aktivləri | **777** | – | – | 777 |
| **Ədalətli dəyəri açıqlanan öhdəliklər** | | | | |
| Ticarət və sair kreditor borcları | **(9,126)** | – | – | (9,126) |
| Sair cari maliyyə öhdəlikləri | **(39)** | – | – | (39) |
| Satış opsionu üzrə öhdəliklər | **(2,728)** | – | – | (2,728) |
| Qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | **(5,910)** | – | – | (5,910) |
| Uzunmüddətli borc öhdəlikləri | **(11,516)** | (3,338) | – | (8,178) |
| Alış üzrə təxirə salınmış borc öhdəliyi | **(796)** | – | – | (796) |
| Sair uzunmüddətli öhdəliklər | **(637)** | – | – | (637) |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

### 6. Maliyyə risklərinin idarə edilməsi (davamı)

**Ədalətli dəyər iyerarxiyası (davamı)**

Aşağıdakı cədvəldə Qrupun 31 dekabr 2019-cu il tarixinə aktiv və öhdəliklərinin ədalətli dəyərinin ölçülməsi iyerarxiyası təqdim edilir:

| | Cəmi | Fəal bazarda kvotasiya olunan qiymətlər (Səviyyə 1) | Əhəmiyyətli müşahidə edilə bilən məlumatları (Səviyyə 2) | Əhəmiyyətli müşahidə edilməyən məlumatları (Səviyyə 3) |
|---|---|---|---|---|
| **Ədalətli dəyərlə ölçülmüş aktivlər** | | | | |
| MZƏD ilə tanınan sair cari maliyyə aktivlər | **372** | 23 | 337 | 12 |
| SMGƏD ilə tanınan sair cari maliyyə aktivləri | **81** | 81 | − | − |
| SMGƏD ilə tanınan ticarət debitor borları | **1,072** | − | 1,072 | − |
| MZƏD ilə tanınan sair uzunmüddətli maliyyə aktivləri | **809** | − | 89 | 720 |
| **Ədalətli dəyərlə ölçülmüş öhdəliklər** | | | | |
| MZƏD ilə tanınan sair cari öhdəliklər | **(301)** | (36) | (265) | − |
| MZƏD ilə tanınan sair uzunmüddətli öhdəliklər | **(34)** | (2) | (32) | − |
| **Ədalətli dəyəri açıqlanan aktivlər** | | | | |
| Depozitlər | **106** | − | 106 | − |
| Ticarət və sair debitor borcları | **6,220** | − | − | 6,220 |
| Sair cari maliyyə aktivləri | **302** | − | − | 302 |
| Sair uzunmüddətli maliyyə aktivləri | **578** | − | − | 578 |
| **Ədalətli dəyəri açıqlanan öhdəliklər** | | | | |
| Ticarət və sair kreditor borcları | **(10,600)** | − | − | (10,600) |
| Sair cari maliyyə öhdəlikləri | **(4)** | − | − | (4) |
| Qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | **(4,687)** | − | − | (4,687) |
| Uzunmüddətli borc öhdəlikləri | **(11,602)** | (3,572) | − | (8,030) |
| Alış üzrə təxirə salınmış borc öhdəliyi | **(719)** | − | − | (719) |
| Sair uzunmüddətli öhdəliklər | **(620)** | − | − | (620) |
| Satış opsionu üzrə öhdəliklər | **(2,737)** | − | − | (2,737) |

Aşağıdakı cədvəllərdə ədalətli dəyərlə qeydə alınan Səviyyə 3-ə aid maliyyə aktivləri və öhdəliklərinin açılış və bağlanış məbləğləri üzləşdirilir:

| | MZƏD ilə sair cari aktivlər | MZƏD ilə sair uzunmüddətli maliyyə aktivləri |
|---|---|---|
| **1 yanvar 2019-cu il** | **−** | **581** |
| Alışlar | 12 | 93 |
| Mənfəət və ya zərərdə tanınmış yenidən ölçülmə (Qeyd 31) | − | 117 |
| Hesabat valyutasına çevirmə | − | (71) |
| **1 yanvar 2020-ci il** | **12** | **720** |
| Alışlar | − | 13 |
| Hesablaşmalar | (2) | (10) |
| Mənfəət və ya zərərdə tanınmış yenidən ölçülmə (Qeyd 31) | − | 273 |
| Hesabat valyutasına çevirmə | − | (140) |
| **31 dekabr 2020-ci il** | **10** | **856** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 6. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Ədalətli dəyər iyerarxiyası (davamı)

| | MZƏD ilə tanınan sair cari öhdəliklər | MZƏD ilə tanınan sair uzunmüddətli maliyyə öhdəliklər |
|---|---|---|
| **1 yanvar 2019-cu il** | **–** | **–** |
| Alışlar | – | – |
| **1 yanvar 2020-ci il** | **–** | **–** |
| Alışlar | (16) | (11) |
| **31 dekabr 2020-ci il** | **(16)** | **(11)** |

Aşağıdakı cədvəldə 31 dekabr 2020-ci il tarixinə mümkün alternativ fərziyyələrin istifadə edilməsinin Səviyyə 3-ə aid alətlərin ədalətli dəyərinə təsiri göstərilir:

| | Balans dəyəri | Qiymətləndir-mə üsulu | Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları | İnterval | Giriş məlumatlarının ədalətli dəyərə həssaslığı |
|---|---|---|---|---|---|
| TANAP-a kapital investisiyası | 784 | Diskontlaşdırılmış dividend modeli | Diskont dərəcəsi | 10.7%-dən 12.7%-dək | Kapitalın dəyərində 1% dəyişiklik ədalətli dəyərdə +94/-99 AZN artım/azalma ilə nəticələnəcək |
| İmtiyazlı səhmlərə investisiya | 59 | Diskontlaşdırılmış dividend modeli | Diskont dərəcəsi | 10.4%-dən 15%-dək | Diskont dərəcəsində 2% dəyişiklik ədalətli dəyərdə +2/-2 AZN artım/azalma ilə nəticələnəcək |

Aşağıdakı cədvəldə 31 dekabr 2019-cu il tarixinə mümkün alternativ fərziyyələrin istifadə edilməsinin Səviyyə 3-ə aid alətlərin ədalətli dəyərinə təsiri göstərilir:

| | Balans dəyəri | Qiymətləndir-mə üsulu | Əhəmiyyətli müşahidə edilməyən giriş məlumatları | İnterval | Giriş məlumatlarının ədalətli dəyərə həssaslığı |
|---|---|---|---|---|---|
| TANAP-a kapital investisiyası | 651 | Diskontlaşdırılmış dividend modeli | Diskont dərəcəsi | 12.06%-dən – 14.06%-dək | Kapitalın dəyərində 1% dəyişiklik ədalətli dəyərdə +63/-65 AZN artım/azalma ilə nəticələnəcək |
| İmtiyazlı səhmlərə investisiya | 69 | Diskontlaşdırılmış dividend modeli | Diskont dərəcəsi | 10.7%-dən 14.7%-dək | Diskont dərəcəsində 2% dəyişiklik ədalətli dəyərdə +2/-2 AZN artım/azalma ilə nəticələnəcək |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 6. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Ədalətli dəyər iyerarxiyası (davamı)

Aşağıdakı cədvəldə 31 dekabr 2020-ci il tarixinə 9 saylı MHBS-yə əsasən təsnifləşdirilmiş maliyyə aktivləri göstərilir:

| | Amortizasiya edilmiş dəyər | SMGƏD | MZƏD |
|---|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 6,153 | – | – |
| Məhdudlaşdırılmış pul vəsaitləri | 123 | – | – |
| Depozitlər | 658 | – | – |
| Ticarət və sair debitor borcları | 5,084 | 256 | – |
| Sair cari maliyyə aktivləri | 372 | 67 | 468 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 809 | – | 1,050 |
| **GKZ-dən sonra cəmi maliyyə aktivləri** | **13,199** | **323** | **1,518** |

Aşağıdakı cədvəldə 31 dekabr 2019-cu il tarixinə 9 saylı MHBS-yə əsasən təsnifləşdirilmiş maliyyə aktivləri göstərilir:

| | Amortizasiya edilmiş dəyər | SMGƏD | MZƏD |
|---|---|---|---|
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 7,084 | – | – |
| Məhdudlaşdırılmış pul vəsaitləri | 150 | – | – |
| Depozitlər | 106 | – | – |
| Ticarət və sair debitor borcları | 6,220 | 1,072 | – |
| Sair cari maliyyə aktivləri | 302 | 81 | 372 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 612 | – | 809 |
| **GKZ-dən sonra cəmi maliyyə aktivləri** | **14,474** | **1,153** | **1,181** |

## 7. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar

### Baş rəhbərliyə ödənişlər

Qrupun baş rəhbərliyinə SOCAR Prezidenti və on iki Vitse-prezident daxildir. Qrupun baş rəhbərliyinin bütün üzvləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir. Baş rəhbərliyin üzvləri təsdiqlənmiş əmək haqqı cədvəlinə uyğun olaraq əmək haqqı və mükafatlar, eləcə də Qrupun müəyyən şirkətlərində Direktorlar Şurasının üzvləri olduqlarına görə ödənişlər almaq hüququna malikdirlər. 2020-ci il ərzində baş rəhbərliyə cəmi ödənişlər 1.376 AZN (2019-cu il: 1.404 AZN) təşkil etmişdir.

Qrupun əhəmiyyətli əməliyyatlar apardığı və ya hesablaşmalar üzrə əhəmiyyətli balanslara malik olduğu əlaqəli tərəflərlə münasibətlər aşağıda göstərilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 7. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar (davamı)

### Əhəmiyyətli qalıqlar və əlaqəli tərəflərlə əməliyyatlar

31 dekabr 2020-ci il tarixinə əlaqəli tərəflərlə qalıqlar aşağıda göstərilir:

| | Qeyd | Dövlət və onun nəzarətində olan müəssisələr | Asılı və birgə müəssisələr |
|---|---|---|---|
| Ticarət və sair maliyyə debitor borcları | | 172 | 2,189 |
| GKZ | | (34) | (6) |
| **Cəmi maliyyə debitor borcları** | | **138** | **2,183** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 1,932 | − |
| Depozitlər | | 121 | − |
| Məhdudlaşdırılmış pul vəsaitləri | | 83 | − |
| Sair cari maliyyə aktivləri | | − | 6 |
| **Cəmi cari aktivlər** | | **2,274** | **2,189** |
| Sair uzunmüddətli maliyyə aktivləri | | − | 615 |
| **Cəmi aktivlər** | | **2,274** | **2,804** |
| ARDNF-ə ticarət və sair kreditor borcları | | 2,566 | − |
| Ticarət və sair kreditor borcları | | 438 | 763 |
| **Cəmi maliyyə kreditor borcları** | | **3,004** | **763** |
| HPBS-dəki payın satışı üçün alınmış avanslar | 35 | − | 4,308 |
| İcarə öhdəlikləri | | 236 | − |
| CQD qarşısında uzunmüddətli kreditor borcları | | − | 91 |
| CQD-yə ödəniləcək təxirə salınmış ödəniş | 26 | − | 574 |
| Metanol zavodu üçün ödəniləcək təxirə salınmış ödəniş | | 74 | − |
| Öhdəliklər və xərclər üçün sair ehtiyatlar, cari | | 41 | − |
| **Cəmi öhdəliklər (borc öhdəlikləri xaric)** | | **3,355** | **5,736** |

31 dekabr 2020-ci il tarixinə, əlaqəli tərəflərlə borc öhdəliklər üzrə qalıqlar aşağıda göstərilir:

| Bankın adı | Faiz dərəcəsi | Ödəniş tarixi | 2020 |
|---|---|---|---|
| Azərbaycan Beynəlxalq Bankı | 4%-4.8% | 21 iyul 2022-ci il − 23 avqust 2026-cı il | 559 |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 0.1%-3.8% | 12 yanvar 2024-cü il − 1 aprel 2039-cu il | 354 |
| **Cəmi borc öhdəlikləri** | | | **913** |

31 dekabr 2020-ci il tarixlərinə əlaqəli tərəflərlə mövcud istiqrazlar üzrə kreditor borclarının qalıqları aşağıda göstərilir:

| İstiqraz sahibi | Kupon dərəcəsi | Ödəniş tarixi | 2020 |
|---|---|---|---|
| Azərbaycan İnvestisiya Şirkəti | 4% | 30 dekabr 2027-ci il | 175 |
| ARDNF | LIBOR + 1% | 1 dekabr 2024-cü il | 240 |
| ARDNF | LIBOR + 1.335% | 30 dekabr 2027-ci il | 258 |
| ARDNF | LIBOR + 4% | 31 dekabr 2029-cu il | 821 |
| ARDNF | 3.80% | 1 sentyabr 2028-ci il | 865 |
| ARDNF | 3.80% | 1 noyabr 2029-cu il | 341 |
| ARDNF | 4.60% | 31 dekabr 2029-cu il | 435 |
| **Cəmi ödəniləcək istiqrazlar** | | | **3,135** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 7. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar (davamı)

**Əhəmiyyətli qalıqlar və əlaqəli tərəflərlə əməliyyatlar (davamı)**

31 dekabr 2020-ci il tarixində başa çatan il üzrə əlaqəli tərəflərlə əməliyyatlar aşağıda göstərilir:

| | **Dövlət və onun nəzarətində olan müəssisələr** | **Asılı və birgə müəssisələr** |
|---|---|---|
| Təbii qazın satışı | 594 | 681 |
| Neft məhsullarının satışı | 249 | 82 |
| Xam neftin satışı | − | 5,552 |
| Göstərilmiş xidmətlər | 1 | 92 |
| Əlaqəli tərəflərdən kredit üzrə alınacaq məbləğlər üzrə faiz gəliri | − | 53 |
| Əlaqəli tərəflərdən kreditlər üzrə maliyyə xərci | (171) | − |
| Kommunal xərclər | (65) | (4) |
| Sair əməliyyat xərcləri | (66) | (5) |
| Sair əməliyyat gəliri | − | 5 |
| Sosial xərclər | (58) | − |
| Nəqliyyat xərcləri | (90) | (436) |
| Təhlükəsizlik xərcləri | (22) | − |
| Əmlak, tikili və avadanlıqların və mal-material ehtiyatlarının alınması | (6,685) | (3,854) |
| Birgə müəssisələrdən alınmış dividendlər | − | 40 |
| Asılı müəssisələrdən alınmış dividendlər | − | 135 |

31 dekabr 2019-cu il tarixinə əlaqəli tərəflərlə qalıqlar aşağıda göstərilir:

| | **Qeyd** | **Dövlət və onun nəzarətində olan müəssisələr** | **Asılı və birgə müəssisələr** |
|---|---|---|---|
| Ticarət və sair maliyyə debitor borcları | | 156 | 1,987 |
| GKZ | | (44) | (12) |
| **Cəmi maliyyə debitor borcları** | | **112** | **1,975** |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 2,677 | − |
| Depozitlər | | 7 | − |
| Məhdudlaşdırılmış pul vəsaitləri | | 82 | − |
| Sair cari maliyyə aktivləri | | − | 63 |
| **Cəmi cari aktivlər** | | **2,878** | **2,038** |
| Sair uzunmüddətli maliyyə aktivləri | | − | 542 |
| **Cəmi aktivlər** | | **2,878** | **2,580** |
| ARDNF-ə ticarət və sair kreditor borcları | | 2,645 | − |
| Ticarət və sair kreditor borcları | | 516 | 931 |
| **Cəmi maliyyə kreditor borcları** | | **3,161** | **931** |
| HPBS-dəki payın satışı üçün alınmış avanslar | 35 | − | 4,313 |
| İcarə öhdəlikləri | | 264 | − |
| CQD qarşısında uzunmüddətli kreditor borcları | | − | 103 |
| CQD -yə ödəniləcək təxirə salınmış ödəniş | 26 | − | 570 |
| Metanol zavodu üçün ödəniləcək təxirə salınmış ödəniş | | 67 | − |
| Öhdəliklər və xərclər üçün sair ehtiyatlar, cari | | 22 | − |
| **Cəmi öhdəliklər (borc öhdəlikləri xaric)** | | **3,514** | **5,917** |

## 7. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar (davamı)

### Əhəmiyyətli qalıqlar və əlaqəli tərəflərlə əməliyyatlar (davamı)

31 dekabr 2019-cu il tarixinə, əlaqəli tərəflərlə borc öhdəlikləri üzrə qalıqlar aşağıda göstərilir:

| Bankın adı | Faiz dərəcəsi | Ödəniş tarixi | 2019 |
|---|---|---|---|
| Azərbaycan Beynəlxalq Bankı | 4%-4.8% | 21 iyul 2022-ci il – 23 avqust 2026-cı il | 627 |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 1.5%-3% | 30 iyun 2023-cü il – 1 aprel 2039-cu il | 271 |
| **Cəmi borc öhdəlikləri** | | | **898** |

31 dekabr 2019-cu il tarixlərinə əlaqəli tərəflərlə mövcud istiqrazlar üzrə kreditor borclarının qalıqları aşağıda göstərilir:

| İstiqraz sahibi | Kupon dərəcəsi | Ödəniş tarixi | 2019 |
|---|---|---|---|
| Azərbaycan İnvestisiya Şirkəti | 4% | 30 dekabr 2027-ci il | 169 |
| ARDNF | LIBOR + 1% | 1 dekabr 2024-cü il | 301 |
| ARDNF | LIBOR + 1.335% | 30 dekabr 2027-ci il | 272 |
| ARDNF | LIBOR + 4% | 31 dekabr 2029-cu il | 786 |
| ARDNF | 3.80% | 1 sentyabr 2028-ci il | 969 |
| ARDNF | 4.60% | 31 dekabr 2029-cu il | 414 |
| **Cəmi ödəniləcək istiqrazlar** | | | **2,911** |

31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə əlaqəli tərəflərlə əməliyyatlar aşağıda göstərilir:

| | Dövlət və onun nəzarətində olan müəssisələr | Asılı və birgə müəssisələr |
|---|---|---|
| Təbii qazın satışı | 602 | 390 |
| Neft məhsullarının satışı | 378 | 31 |
| Xam neftin satışı | – | 6,351 |
| Göstərilmiş xidmət | 1 | 87 |
| Əlaqəli tərəflərdən kredit üzrə alınacaq məbləğlər üzrə faiz gəliri | – | 34 |
| Əlaqəli tərəflərdən olan kreditlər üzrə maliyyə xərci | (98) | – |
| Kommunal xərclər | (70) | (5) |
| Sair əməliyyat xərcləri | (39) | (6) |
| Sair əməliyyat gəliri | 27 | – |
| Sosial xərclər | (54) | – |
| Nəqliyyat xərcləri | (183) | (339) |
| Təhlükəsizlik xərcləri | (16) | – |
| Əmlak, tikili və avadanlıqlar və mal-material ehtiyatlarının alınması | (14,952) | (5,626) |
| Birgə müəssisələrdən alınmış dividendlər | – | 31 |
| Asılı müəssisələrdən alınmış dividendlər | – | 117 |

### Əlaqəli tərəflərlə əməliyyatların aparılması şərtləri və qaydaları

Dövlətə və dövlət nəzarəti altında olan müəssisələrə əsas satışlar və onlardan alışlar Azərbaycan Hökuməti tərəfindən tənzimlənən bazar qiymətləri ilə həyata keçirilir. İlin sonuna olan balanslar təminatlı deyildirlər və hesablaşmalar köçürmə yolu ilə aparılır.

## 8. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və qısamüddətli depozitlər

| | **2020** | **2019** |
|---|---|---|
| ABŞ dolları ilə bank qalıqları | 4,157 | 5,646 |
| AZN ilə bank qalıqları | 933 | 827 |
| TL ilə bank qalıqları | 369 | 287 |
| Avro ilə bank qalıqları | 270 | 151 |
| CHF ilə bank qalıqları | 78 | 100 |
| Sair valyuta ilə bank qalıqları | 67 | 75 |
| Yolda olan pul vəsaitləri | 313 | – |
| Kassada olan pul vəsaitləri | 10 | 11 |
| GKZ | (44) | (13) |
| **Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **6,153** | **7,084** |

31 dekabr 2020-ci ildə ABŞ dolları ilə ifadə edilmiş bank qalıqlarına bir yerli bankda olan 29 AZN məbləği də daxil olmuşdur, lakin həmin bankın lisenziyası kapital adekvatlığı testinə uyğun olmadığına görə Mərkəzi Bank tərəfindən geri götürülmüşdür. Müvafiq olaraq, Qrup göstərilən Bank qalığı üzrə 100 faiz GKZ tanımışdır.

### Depozitlər

31 dekabr 2020-ci il tarixinə müddətli depozitlərə cəmi 665 AZN məbləğində müddəti bir il olan, müqavilə ilə sabit faiz dərəcələri illik 0.5 faizdən 3 faizədək olan əmanətlər daxildir.

30 dekabr 2019-cu il tarixinə müddətli depozitlərə cəmi 107 AZN məbləğində müddəti bir il olan, müqavilə ilə sabit faiz dərəcələri illik 1 faizdən 3 faizədək olan əmanətlər daxildir.

31 dekabr 2020-ci il tarixində, Qrup depozitlər üzrə 7 AZN (31 dekabr 2019-cu il: 1 AZN) məbləğində GKZ tanımışdır.

## 9. Məhdudlaşdırılmış pul vəsaitləri

31 dekabr 2020-ci il tarixində məhdudlaşdırılmış pul vəsaitləri əsas etibarı ilə iki bloklanmış hesabdan təşkil olunmuşdur. Qrup STEAŞ şirkətinin 13 faiz səhmləri ilə əlaqədar Satış Opsionu Razılaşmasına uyğun olaraq Goldman Sachs International-a ("GSI") ödəniləcək minimal ödəniş üçün zəmanət olaraq Deutsche Bank-da 63 AZN (37 milyon ABŞ dolları) (31 dekabr 2019-cu il: 63 AZN) məbləğində məhdudiyyət qoyulmuş pul vəsaiti yerləşdirmişdir (Qeyd 25B). 31 dekabr 2020-ci il tarixində Qrup Azərkimya zavodunun modernizasiya prosesi ilə bağlı olan xarici alışlar üçün Azərbaycan Beynəlxalq Bankında geri qaytarılmayan akkreditivlər kimi 40 AZN (31 dekabr 2019-cu il: 45 AZN) məbləğində məhdudlaşdırılmış pul vəsaiti yerləşdirmişdir. Bundan əlavə Qrupun ƏDV-nin dövlət büdcəsinə ödənilməsi və alınması ilə bağlı 43 AZN məbləğində (31 dekabr 2019-cu il: 37 AZN) ƏDV depozit hesabı olmuşdur.

31 dekabr 2020-ci il tarixinə Qrup, 2020-ci ildə kapitalın adekvatlığı testlərinə uyğun olmadığına görə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən lisenziyası ləğv edilmiş yerli banklardan birində saxlanılan 38 AZN məbləğində məhdudlaşdırılmış pul vəsaitləri qalığı olmuşdur. Müvafiq olaraq, Qrup qeyd edilən bank hesabına 100 faiz GKZ tanımışdır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 10. Ticarət və sair debitor borcları

| | 2020 | 2019 |
|---|---|---|
| Ticarət debitor borcları | 5,613 | 7,714 |
| Sair debitor borcları | 405 | 226 |
| Çıxılsın: GKZ | (678) | (648) |
| **Cəmi maliyyə debitor borcları** | **5,340** | **7,292** |
| Büdcədən tələb edilə bilən ƏDV | 1,025 | 922 |
| Avans ödənişləri | 731 | 357 |
| Vergilər üzrə debitor borcları | 162 | 113 |
| Anderlift neft qalığı | 114 | 181 |
| Sair | 105 | 54 |
| **Cəmi ticarət və sair debitor borcları** | **7,477** | **8,919** |

Ticarət debitor borcları əsasən Qrupun müştərilərinə satılmış xam neft, neft məhsulları və təbii qaza görə alınacaq borcları əks etdirir.

31 dekabr 2020-ci il tarixinə 4,440 AZN məbləğində (31 dekabr 2019-cu il: 7,363 AZN) maliyyə debitor borcları xarici valyutalarda, əsasən ABŞ dollarında ifadə edilmişdir.

Büdcədən tələb edilə bilən ƏDV hesabat tarixinə alışlar üzrə əvəzləşdirilməmiş ƏDV-ni əks etdirir. Büdcədən tələb edilə bilən ƏDV alışlar üçün ödəniş aparıldıqda satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər.

Aşağıdakı cədvəldə ticarət debitor borcları üzrə GKZ ehtiyatında hərəkət göstərilir:

| | 2020 | 2019 |
|---|---|---|
| **1 yanvarda** | **648** | **766** |
| GKZ | 29 | 51 |
| Silinmə | (1) | (160) |
| Məzənnə fərqi | 2 | (9) |
| **31 dekabrda** | **678** | **648** |

## 11. Mal-material ehtiyatları

| | 2020 | 2019 |
|---|---|---|
| Yolda olan mallar | 678 | 231 |
| Xammal və ehtiyat hissələri | 665 | 704 |
| Xam neft | 662 | 351 |
| Hazır mallar | 583 | 598 |
| Tamamlanmamış işlər | 126 | 128 |
| Sair | 69 | 55 |
| **Cəmi mal-material ehtiyatları** | **2,783** | **2,067** |

31 dekabr 2020-ci il və 2019-cu il tarixlərinə bütün mal-material ehtiyatları üzrə qalıqlar maya dəyəri ilə ölçülmüşdür.

2020-ci il ərzində 40,050 AZN (2019-cu ildə 73,971 AZN) məbləğində mal-material ehtiyatları üzrə xərc tanınmışdır. Bu məbləğ satışların maya dəyərində əks etdirilmişdir (Qeyd 30).

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 12. Sair cari aktivlər və sair cari maliyyə aktivləri

### Sair cari aktivlər

***Müqavilə aktivləri***

31 dekabr 2020-ci ildə sair cari qeyri-maliyyə aktivləri əsasən nəql etmə və demerec xidmətləri üçün 63 AZN (31 dekabr 2019-cu il: 28 AZN) məbləğində müqavilə aktivlərindən ibarət olmuşdur.

***Satış üçün saxlanılan gəmilər***

21 dekabr 2020-ci il tarixli müəyyən şərtlərə malik alqı-satqı müqaviləsinə uyğun olaraq Qrup cəmi 45 AZN (26 milyon ABŞ dolları) məbləğində ödəniş müqabilində gəmilərini satmağa razılaşmışdır. 31 dekabr 2020-ci il tarixinə göstərilən gəmilər satış üçün saxlanılan satılıq qrup kimi təsnif edilmişdir. Satılıq qrup 31 dekabr 2020-ci il tarixinə balans dəyəri və ya satış xərcləri çıxılmaqla ədalətli dəyərin ən aşağı məbləği ilə tanınmış, ədalətli dəyərə yenidən ölçülmə nəticəsində dəyərsizləşmə zərəri isə mənfəət və ya zərərə aid edilmişdir.

| | Qeyd | |
|---|---|---|
| Gəmilərin balans dəyəri | | 90 |
| Satılıq qrupun ədalətli dəyəri | | 45 |
| **Dəyərsizləşmə zərəri** | 30 | **45** |

### Sair cari maliyyə aktivləri

31 dekabr 2020-ci il və 2019-cu il tarixlərinə sair cari maliyyə aktivləri əsasən SMGƏD ilə tanınan törəmə alətlər və kapital alətlərindən ibarət olmuşdur.

31 dekabr 2020-ci il tarixində Qrupun 785 AZN (31 dekabr 2019-cu il: 548 AZN) məbləğində marja depozitləri və maliyyə törəmə alətləri ilə bağlı qalıqları olmuşdur.

31 dekabr 2020-ci il tarixində Qrupun 67 AZN məbləğində (31 dekabr 2019-cu il: 81 AZN) SMGƏD ilə tanınan kapital investisiyaları olmuşdur.

31 dekabr 2019-cu il tarixinə 63 AZN məbləğində üçüncü tərəfdən kredit üzrə alınacaq məbləğləri olmuşdur.

31 dekabr 2020-ci il tarixinə Qrupun belə qalıqları olmamışdır.

## 13. Sair uzunmüddətli aktivlər

31 dekabr 2020-ci il tarixində sair uzunmüddətli aktivlər əsasən 468 AZN (31 dekabr 2019-cu il: 731 AZN) məbləğində əmlak, tikili və avadanlıqların alınması üçün edilmiş uzunmüddətli əvvəlcədən ödənişləri, 88 AZN (31 dekabr 2019-cu il: 99 AZN) məbləğində ƏDV üzrə uzunmüddətli debitor borcları, 14 AZN (31 dekabr 2019-cu il: 24 AZN) məbləğində xalis müəyyən edilmiş ödənişlər aktivləri və 6 AZN (31 dekabr 2019-cu il: 13 AZN) məbləğində uzunmüddətli əvvəlcədən ödənilmiş xərcləri əks etdirir.

## 14. Sair uzunmüddətli maliyyə aktivləri

31 dekabr 2020-ci və 2019-cu il tarixlərində sair uzunmüddətli maliyyə aktivləri əsasən əlaqəli tərəflərdən kreditlər üzrə alınacaq məbləğlərdən, üçüncü tərəflərdən kreditlər üzrə alınacaq məbləğlərdən, MZƏD ilə tanınan kapital investisiyası, uzunmüddətli depozitlərdən və törəmə alətlərdən ibarət olmuşdur.

31 dekabr 2020-ci il tarixinə Qrupun TANAP Doğalgaz İletim A.Ş.-də ədalətli dəyər ilə 784 AZN (31 dekabr 2019-cu ildə 651 AZN) məbləğində 7 faizlik payı olmuşdur. Əlavə olaraq, 31 dekabr 2020-ci il tarixinə Qrupun TANAP-dan 429 AZN (31 dekabr 2019-cu il tarixinə 448 AZN) məbləğində kreditlər üzrə alınacaq məbləği olmuşdur.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 14. Sair uzunmüddətli maliyyə aktivləri (davamı)

31 dekabr 2020-ci il tarixində Qrupun asılı müəssisələrdən və birgə əməliyyatlar üzrə kreditlər üzrə alınacaq məbləği 186 AZN-ə (31 dekabr 2019-cu il: 94 AZN) bərabər olmuşdur.

31 dekabr 2020-ci il tarixinə Qrupun yerli banklarda yerləşdirilmiş 179 AZN (31 dekabr 2019-cu il: 74 AZN) məbləğində uzunmüddətli depozitləri olmuşdur.

Qiymət və valyuta risklərini azaltmaq məqsədilə, Qrup bir sıra əmtəə svopları, fyuçerslər, forvard müqavilələri və valyuta fyuçerslərindən istifadə etmişdir. 31 dekabr 2020-ci il tarixində Qrupun ədalətli dəyəri 204 AZN (2019-cu il: 86 AZN) məbləğində olan törəmə alətləri olmuşdur. Ədalətli dəyər bazar dəyəri ilə alış və satış müqavilələrindəki sabit dəyər arasındakı fərq əsasında müəyyən edilir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 15. Əmlak, tikili və avadanlıqlar

Əmlak, tikili və avadanlıqların balans dəyərinin hərəkəti aşağıdakı kimi olmuşdur:

| | Binalar və tikililər | Neft və qaz əmlakı və avadanlığı | Maşın və avadanlıqlar | Gəmilər və port avadanlıqları | İşlənmə xərcləri | Tamamlanmamış tikinti | Sair | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | | | | |
| **1 yanvar 2019-cu il** | **3,695** | **27,014** | **4,418** | **1,011** | **–** | **4,370** | **1,640** | **42,148** |
| Əlavələr | 21 | 1,912 | 1,286 | – | 276 | 1,797 | 69 | **5,361** |
| Müəssisələrin birləşməsi vasitəsilə satınalmalar (Qeyd 39) | 20 | 178 | 4 | – | – | 11 | 3 | **216** |
| Silinmələr | (22) | (27) | (44) | – | – | (16) | (9) | **(118)** |
| Əmlak, tikili və avadanlıqlardan istifadə hüququ olan aktivə köçürmələr | (20) | – | (3) | – | – | – | – | **(23)** |
| Köçürmələr | 203 | 775 | 834 | – | – | (1,848) | 36 | **–** |
| Hesabat valyutasına çevirmə | (41) | (36) | (126) | 17 | – | (83) | (77) | **(346)** |
| **31 dekabr 2019-cu il** | **3,856** | **29,816** | **6,369** | **1,028** | **276** | **4,231** | **1,662** | **47,238** |
| Əlavələr | 60 | 1,600 | 68 | 20 | 450 | 1,925 | 104 | **4,227** |
| Silinmələr | (8) | (35) | (58) | (201) | – | (180) | (17) | **(499)** |
| Köçürmələr | (532) | 724 | 1,987 | 3 | – | (2,654) | 472 | **–** |
| Hesabat valyutasına çevirmə | (77) | (122) | (209) | 22 | – | (126) | (149) | **(661)** |
| **31 dekabr 2020-ci il** | **3,299** | **31,983** | **8,157** | **872** | **726** | **3,196** | **2,072** | **50,305** |
| **Köhnəlmə və dəyərsizləşmə** | | | | | | | | |
| **1 yanvar 2019-cu il** | **(1,369)** | **(9,181)** | **(2,011)** | **(101)** | **–** | **(427)** | **(800)** | **(13,889)** |
| İl üzrə köhnəlmə xərci | (134) | (1,073) | (348) | (50) | – | – | (61) | **(1,666)** |
| Silinmə | 7 | 26 | 33 | – | – | – | 7 | **73** |
| Dəyərsizləşmə | (2) | (283) | – | – | – | – | (1) | **(286)** |
| Köçürmələr | (2) | 2 | – | – | – | – | – | **–** |
| Hesabat valyutasına çevirmə | 2 | 10 | 60 | – | – | – | 6 | **78** |
| **31 dekabr 2019-cu il** | **(1,498)** | **(10,499)** | **(2,266)** | **(151)** | **–** | **(427)** | **(849)** | **(15,690)** |
| İl üzrə köhnəlmə xərci | (152) | (1,318) | (390) | (50) | – | – | (77) | **(1,987)** |
| Silinmə | 4 | 27 | 47 | 81 | – | – | 8 | **167** |
| Dəyərsizləşmə (Qeyd 3, 15) | (219) | (126) | (1,036) | (54) | – | (135) | (32) | **(1,602)** |
| Köçürmələr | 52 | – | (52) | – | – | – | – | **–** |
| Hesabat valyutasına çevirmə | 10 | 21 | 105 | – | – | – | 15 | **151** |
| **31 dekabr 2020-ci il** | **(1,803)** | **(11,895)** | **(3,592)** | **(174)** | **–** | **(562)** | **(935)** | **(18,961)** |
| **Xalis qalıq dəyəri** | | | | | | | | |
| **1 yanvar 2019-cu il** | **2,326** | **17,833** | **2,407** | **910** | **–** | **3,943** | **840** | **28,259** |
| **31 dekabr 2019-cu il** | **2,358** | **19,317** | **4,103** | **877** | **276** | **3,804** | **813** | **31,548** |
| **31 dekabr 2020-ci il** | **1,496** | **20,088** | **4,565** | **698** | **726** | **2,634** | **1,137** | **31,344** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 15. Əmlak, tikili və avadanlıqlar (davamı)

31 dekabr 2020-ci il tarixinə Qrup 121 AZN məbləğində aktivlərin tikintisinə aid olan maliyyə xərclərini kapitallaşdırmışdır (31 dekabr 2019-cu il: 165 AZN), bu məbləğdən 110 AZN il ərzində ödənilmişdir (2019-cu il: 111 AZN).

2020-ci il ərzində Qrup 4,227 AZN (2019-cu il: 5,361 AZN) məbləğində aktivlər almışdır.

## 16. Qeyri-maddi aktivlər, qudvildən başqa

Qudvil istisna olmaqla, qeyri-maddi aktivlərin balans dəyərinin hərəkəti aşağıdakı cədvəldə göstərilir:

| | Torpaq və əmlak üzərində mülkiyyət hüquqları | Sudan istifadə hüquqları | Ticarət adı | Müştəri ilə münasi-bətlər | Lisenziya və imtiyaz hüquqları | Sair qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | | | |
| **1 yanvar 2019-cu il** | **127** | **122** | **32** | **302** | **105** | **299** | **987** |
| Əlavələr | – | – | – | – | 1 | 51 | **52** |
| Müəssisələrin birləşməsi yolu ilə satınalmalar (Qeyd 39) | – | – | – | – | 447 | 7 | **454** |
| İstifadə hüququ olan aktivə köçürmələr | (21) | – | – | – | – | – | **(21)** |
| Silinmə | – | – | – | – | – | (57) | **(57)** |
| Hesabat valyutasına çevirmə | (18) | (13) | (3) | (4) | (5) | (1) | **(44)** |
| **31 dekabr 2019-cu il** | **88** | **109** | **29** | **298** | **548** | **299** | **1,371** |
| Əlavələr | – | – | – | – | 1 | 77 | **78** |
| Silinmə | – | – | – | – | – | (15) | **(15)** |
| Hesabat valyutasına çevirmə | (17) | (21) | (3) | 14 | (86) | (10) | **(123)** |
| **31 dekabr 2020-ci il** | **71** | **88** | **26** | **312** | **463** | **351** | **1,311** |
| **Amortizasiya və dəyərsizləşmə** | | | | | | | |
| **1 yanvar 2019-cu il** | **(35)** | **(29)** | **(2)** | **(99)** | **–** | **(108)** | **(273)** |
| İl üzrə amortizasiya xərci (Qeyd 30) | (2) | (2) | (2) | (13) | (17) | (25) | **(61)** |
| Hesabat valyutasına çevirmə | 11 | 3 | – | 2 | 1 | 1 | **18** |
| **31 dekabr 2019-cu il** | **(26)** | **(28)** | **(4)** | **(110)** | **(16)** | **(132)** | **(316)** |
| İl üzrə amortizasiya xərci (Qeyd 30) | (2) | (2) | (1) | (14) | (27) | (29) | **(75)** |
| Silinmə | – | – | – | – | – | 3 | **3** |
| Hesabat valyutasına çevirmə | 5 | 5 | – | (4) | 5 | 3 | **14** |
| **31 dekabr 2020-ci il** | **(23)** | **(25)** | **(5)** | **(128)** | **(38)** | **(155)** | **(374)** |
| **Xalis balans dəyəri** | | | | | | | |
| **1 yanvar 2019-cu il** | **92** | **93** | **30** | **203** | **105** | **191** | **714** |
| **31 dekabr 2019-cu il** | **62** | **81** | **25** | **188** | **532** | **167** | **1,055** |
| **31 dekabr 2020-ci il** | **48** | **63** | **21** | **184** | **425** | **196** | **937** |

31 dekabr 2020-ci ildə qeyri-maddi aktivlərin balans dəyəri, müvafiq olaraq, 2017-ci ilin avqust ayında və 2008-ci ilin may ayında müəssisələrin birləşməsi vasitəsilə əldə edilmiş “Umid Babek Exploration and Production Company”-nin (“UBEP”) 105 AZN (31 dekabr 2019-cu il: 105 AZN) məbləğində lisenziyası və Petkim-in 17 AZN (31 dekabr 2019-cu il: 21 AZN) məbləğində ticarət adından ibarətdir. Bu qeyri-maddi aktivlərin qeyri-müəyyən istifadə müddəti vardır və onlar müvafiq PVYV-nin bərpa edilə bilməsi təhlili çərçivəsində dəyərsizləşmə baxımından test edilmişdir. Əlavə olaraq, qeyri-maddi aktivlərin balans dəyərinə 17 iyun 2019-cu il tarixində müəssisələrin birləşməsi vasitəsilə əldə edilmiş və əldə etmə tarixindən başlayaraq 15 illik qalan istifadə müddəti üzrə amortizasiya edilmiş 320 AZN (31 dekabr 2019-cu il: 427 AZN) məbləğində EWE Holding-in imtiyaz hüquqları daxildir (Qeyd 39).

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 16. Qeyri-maddi aktivlər, qudvildən başqa (davamı)

2020-ci il ərzində 75 AZN (2019-cu il: 61 AZN) məbləğində cəmi amortizasiya xərci, 27 AZN (2019-cu il: 25 AZN) məbləğində ümumi və inzibati xərclərə, 41 AZN (2019-cu il: 31 AZN) məbləğində satışların maya dəyərinə və 7 AZN (2019-cu il: 5 AZN) məbləğində marketinq, satış və paylaşdırma xərclərinə ayrılmışdır.

**Hüquqlar və proqram təminatı**

Qrupun marjinal tələblərə dair maliyyə öhdəlikləri 81 AZN (31 dekabr 2019-cu il: 32 AZN) məbləğində vəsaitləri, 383 AZN (2019-cu il: 108 AZN) məbləğində sənəd mövqeli qiymətli kağızlar üzrə reallaşdırılmamış zərərləri və 246 AZN (2019-cu il: 195 AZN) məbləğində fiziki mövqeli qiymətli kağızlar üzrə reallaşdırılmamış zərərləri var. 31 dekabr 2020-ci il tarixinə bu öhdəliklərin cari hissəsi 553 AZN (31 dekabr 2019-cu il: 305 AZN) olmuşdur.

***Maraqların ötürülməsi əsasında öhdəlik***

2017-ci ilin fevral ayında Abşeron HPBS-nin kəşfiyyat və qiymətləndirmə mərhələsi uğurla başa çatdırılmış və Qrup işlənmə mərhələsi başlayana qədər maraqların ötürülməsi haqqında saziş əsasında digər tərəfin saxladığı Abşeron Ofşor 2 HPBS-də ("Abşeron HPBS") iştirak payı ilə əlaqədar öhdəliyin tanınmasına başlamışdır. Abşeron HPBS-yə uyğun olaraq 31 dekabr 2020-ci il tarixinə Qrupun Abşeron HPBS əsasında daşıdığı öhdəlik 437 AZN (31 dekabr 2019-cu il: 426 AZN) olmuşdur.

***Əmək fəaliyyətinin dayandırılması ilə bağlı təminatlar – Müəyyən edilmiş ödəniş üzrə plan***

Qrup *Türkiyə Respublikasının Əmək Qanununa* uyğun olaraq bir il əmək fəaliyyəti göstərmiş və kifayət qədər əsaslandırılmamış səbəbə görə əmək müqaviləsinə xitam verilmiş və ya hərbi xidmətə çağırılmış, vəfat etmiş və ya 25 illik əmək fəaliyyətindən (qadınlar üçün 20 il) sonra təqaüdə çıxmış və hər bir işçiyə əmək fəaliyyətinin dayandırılması ilə bağlı təminatlar ödəməlidir. Ehtiyat işçilərin təqaüdə çıxması ilə bağlı Qrupun gələcəkdə yaranması ehtimal edilən öhdəliyinin cari dəyərinin təxmin edilməsi vasitəsilə hesablanır. 19 saylı MUBS-a uyğun olaraq müəssisələrin pensiya planlarında nəzərdə tutulan öhdəliyini hesablamaq üçün aktuari üsulları tətbiq edilməlidir. Müvafiq olaraq, ümumi öhdəliyin hesablanması üçün aşağıdakı aktuari fərziyyələri istifadə edilmişdir:

| | 2020 | 2019 |
|---|---|---|
| Diskont dərəcəsi (faiz) | 4.6 | 3.5 |
| Təqaüdə çıxma ehtimalı (faiz) | 100 | 100 |

Əmək fəaliyyətinin hər bir ili üçün maksimal öhdəliyin inflyasiyaya görə artması əsas fərziyyə hesab edilir. Buna görə, tətbiq edilmiş diskont dərəcəsi gələcəkdə baş verəcək inflyasiyanın gözlənilən təsirinə düzəliş etdikdən sonra gözlənilən faktiki dərəcəni əks etdirir.

Müəyyən edilmiş ödəniş üzrə xalis öhdəliyin hərəkəti aşağıdakı kimi olmuşdur:

| | 2020 | 2019 |
|---|---|---|
| **1 yanvar tarixinə balans dəyəri** | **34** | **31** |
| Aktuari (gəlirləri)/zərərləri | (2) | 5 |
| İl ərzində ödənişlər | (3) | (6) |
| Faiz xərci | 3 | 4 |
| Xidmətlərin dəyəri | 4 | 3 |
| Müəssisələrin birləşməsi yolu ilə satınalma | – | 3 |
| Hesabat valyutasına çevrilmə | (6) | (6) |
| **31 dekabrda balans dəyəri** | **30** | **34** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 25. Sair cari və uzunmüddətli öhdəliklər və satış opsionu üzrə öhdəliklər (davamı)

### 25A. Sair cari və uzunmüddətli öhdəliklər (davamı)

***Əmək qabiliyyətinin itirilməsinə görə ödəniş***

| | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| **1 yanvar tarixinə balans dəyəri** | | **138** | **100** |
| Əlavələr | | – | 37 |
| İstifadə | | (21) | (19) |
| Diskontlaşdırılmış dəyərə düzəliş | 33 | 9 | 8 |
| Hesablamalardakı dəyişikliyin təsiri | | 8 | 12 |
| **31 dekabrda balans dəyəri** | | **134** | **138** |
| | | | |
| O cümlədən: | | | |
| Cari | | 20 | 21 |
| Uzunmüddətli | | 114 | 117 |

Qrup, 2012-ci ilin yanvar ayına qədər iş yerində işçinin sağlamlığına və səhhətinə ziyanın vurulmasına (2012-ci ilin yanvar ayından sonra xəsarət almış işçilərə ödənişlər sığorta müqaviləsi əsasında sığorta şirkəti tərəfindən edilir), habelə bu səbəbdən həlak olması ilə əlaqədar həmin işçilərdən asılı şəxslərə kompensasiyanın ödənilməsinə görə məsuliyyət daşıyır. Kompensasiya məbləğləri zərər çəkmiş işçilərə ödənilmiş əmək haqlarına uyğun olaraq hesablanır. Qrup işçilərə əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlərinin diskontlaşdırılmış dəyərini 5.95 faiz diskont dərəcəsi (31 dekabr 2019-cu il: 6.78 faiz) ilə hesablamışdır. Əmək funksiyasını yerinə yetirərkən sağlamlığına və səhhətinə ziyan dəymiş işçilərə ömürlük müavinətlərin hesablanması zamanı Qrup ömür uzunluğunu kişilər və qadınlar üçün müvafiq olaraq 71 yaş və 76 yaş müəyyən etmişdir.

Hesablamada istifadə edilən hesablanmış diskont dərəcəsi rəhbərliyin təxminindən 1 faiz yuxarı/aşağı olsaydı, ehtiyatın balans dəyəri müvafiq olaraq 8 AZN az / 10 AZN çox olardı.

Qeyd 22-də göstərilən inflyasiya dərəcələri orta əmək haqqındakı artımı əks etdirmək üçün tətbiq edilmişdir.

### 25B. Satış opsionu üzrə öhdəliklər

12 avqust 2015-ci il tarixində Qrupun törəmə müəssisəsi STEAŞ-ın kapitalının 13 faizini təşkil edən 891 milyon yeni buraxılmış səhmlər 1,364 AZN (1,300 milyon ABŞ dolları) müqabilində GSI tərəfindən alınmışdır.

Eyni zamanda, STEAŞ GSI ilə satış opsionu haqqında razılaşma imzalamışdır. Razılaşmaya əsasən STEAŞ-ın səhmlərinin planlaşdırılan ilkin açıq təklifi baş vermədiyi halda Qrup GSI-yə məxsus səhmləri müəyyən edilmiş qiymətə geri almalı və ya satış opsionu haqqında müqavilənin müəyyən şərtləri yerinə yetirilmədikdə satış opsionunu yerinə yetirməlidir. Qrup tərəfindən GSI-yə təqdim edilən satış opsionu, satış opsionu haqqında razılaşmanın imzalanmasından sonrakı 6 il ərzində qüvvədə qalır və 2020-ci ilə qədər uzunmüddətli maliyyə öhdəliyi kimi təqdim edilir. Satış opsionunun hesabat tarixindən sonra 12 ay ərzində yerinə yetiriləcəyini nəzərə alaraq o cari öhdəliklər daxilində təqdim edilmişdir. 31 dekabr 2020-ci il tarixində STEAŞ-ın 13 faiz səhmləri üzrə satış opsionu üzrə öhdəliyin balans dəyəri 2,220 AZN (31 dekabr 2019-cu il: 2,228 AZN) təşkil etmişdir.

Qrupun 2014-cü ildə STEAS ilə GSI arasında imzalanmış Petlim Limancılık Ticaret A.Ş.-nin 30 faizlik payı ilə bağlı satış opsionu haqqında razılaşma ilə əlaqədar 508 AZN (300 milyon ABŞ dolları) (31 dekabr 2019-cu il: 509 AZN (300 milyon ABŞ dolları) məbləğində maliyyə öhdəliyi olmuşdur.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 26. Alış üzrə təxirə salınmış borc öhdəliyi

31 dekabr 2020-ci il tarixində Qrupun SOCAR Petroleum QSC-də qalan 49 faiz payların alınması və SOCAR Trading-in satınalınması üçün müvafiq olaraq 65 AZN (31 dekabr 2019-cu il: 65 AZN) və 65 AZN (31 dekabr 2019-cu il: 65 AZN ) məbləğində cari təxirə salınmış ödəniş öhdəliyi olmuşdur. Cari ildə Qrup 31 dekabr 2020-ci il tarixinə SOCAR Energy Georgia LLC-də iştirak payının 16.3 faiz artması ilə bağlı 56 AZN (31 dekabr 2019-cu il: sıfır) məbləğində təxirə salınmış ödəniş öhdəliyini tanımışdır.

Əlavə olaraq, Qrupun TANAP Doğalgaz İletim A.Ş.-da 7 faizlik kapital payının alınması üçün 574 AZN (31 dekabr 2019-cu il: 570 AZN) məbləğində uzunmüddətli təxirə salınmış ödəniş öhdəliyi olmuşdur (Qeyd 7).

## 27. İcarələr

Aşağıdakı cədvəllərdə Qrupun istifadə hüququ olan aktivləri və icarə öhdəliklərinin balans dəyərləri və dövr ərzində hərəkətlər göstərilir:

| **İstifadə hüququ olan aktivlər** | **Binalar və tikililər** | **Neft-qaz əmlakı və avadanlıqları** | **Maşın və avadanlıqlar** | **Gəmilər və port avadanlıqları** | **Sair** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə qalıq** | **192** | **137** | **23** | **260** | **92** | **704** |
| Əlavələr | 23 | 2 | 10 | – | 8 | **43** |
| Vaxtından əvvəl xitam verilmiş icarə müqavilələri | (1) | (2) | – | (8) | (38) | **(49)** |
| Dövr üzrə köhnəlmə xərci (Qeyd 30) | (24) | (11) | (20) | (27) | (7) | **(89)** |
| Hesabat valyutasına çevirmə | 1 | (9) | (2) | (1) | 1 | **(10)** |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **191** | **117** | **11** | **224** | **56** | **599** |
| Əlavələr | 18 | – | 94 | 92 | 32 | **236** |
| Köçürmələr | (4) | (99) | 86 | – | 17 | **–** |
| Vaxtından əvvəl xitam verilmiş icarə müqavilələri | (3) | – | – | – | (1) | **(4)** |
| İl ərzində yenidən ölçülmə | 2 | 1 | – | (5) | (2) | **(4)** |
| Dövr üzrə köhnəlmə xərci (Qeyd 30) | (25) | (15) | (7) | (28) | (15) | **(90)** |
| Hesabat valyutasına çevirmə | 10 | (3) | (23) | – | (4) | **(20)** |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **189** | **1** | **161** | **283** | **83** | **717** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

**27. İcarələr (davamı)**

| **İcarə öhdəlikləri** | **Binalar və tikililər** | **Neft-qaz əmlakı və avadanlıqları** | **Maşın və avadanlıqlar** | **Gəmilər və port avadanlıqları** | **Sair** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2019-cu il tarixinə qalıq** | **192** | **136** | **25** | **276** | **56** | **685** |
| Əlavələr | 24 | 2 | 10 | – | 7 | **43** |
| Vaxtından əvvəl xitam verilmiş icarə müqavilələri | – | (6) | – | (8) | (26) | **(40)** |
| Faiz xərci | 11 | 11 | 2 | 19 | 2 | **45** |
| Ödənişlər | (32) | (15) | (11) | (12) | (8) | **(78)** |
| Hesabat valyutasına çevirmə | 1 | (20) | (2) | – | (3) | **(24)** |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **196** | **108** | **24** | **275** | **28** | **631** |
| Əlavələr | 18 | – | 94 | 92 | 32 | **236** |
| Köçürmələr | (1) | (93) | 75 | – | 19 | **–** |
| Vaxtından əvvəl xitam verilmiş icarə müqavilələri | (3) | – | – | (12) | (1) | **(16)** |
| İl ərzində yenidən ölçülmə | 2 | 1 | – | (5) | (2) | **(4)** |
| Faiz xərci | 12 | 1 | 27 | 19 | 3 | **62** |
| Ödənişlər | (33) | (11) | (23) | (36) | (17) | **(120)** |
| Məzənnə fərqi üzrə zərərlər | – | – | 47 | – | 1 | **48** |
| Hesabat valyutasına çevirmə | 18 | – | (25) | – | (1) | **(8)** |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **209** | **6** | **219** | **333** | **62** | **829** |

| | **2020** | **2019** |
|---|---|---|
| O cümlədən: | | |
| Cari icarə öhdəlikləri | 165 | 123 |
| Uzunmüddətli icarə öhdəlikləri | 664 | 508 |

Aşağıda mənfəət və ya zərər və sair məcmu gəlirdə tanınmış məbləğlər göstərilir:

| | **2020** | **2019** |
|---|---|---|
| İcarə öhdəlikləri üzrə faiz xərci (Qeyd 33) | 62 | 45 |
| Məzənnə fərqi üzrə zərərlər | 48 | – |
| İstifadə hüququ olan aktivlərin köhnəlmə xərci (Qeyd 30) | 90 | 89 |
| Dəyişkən icarə ödənişləri ilə bağlı xərc (ümumi və inzibati xərclərə daxil edilmişdir) | 5 | 10 |
| Hesabat valyutasına çevirmə, xalis | 12 | (14) |
| Qısamüddətli icarələrlə bağlı xərclər (satışların maya dəyərinə daxil edilmişdir) | 233 | 199 |
| **Cəmi** | **450** | **329** |

Aşağıda pul vəsaitlərinin hərəkəti haqqında hesabatda tanınmış məbləğlər göstərilir:

| | **2020** | **2019** |
|---|---|---|
| Maliyyələşdirmə fəaliyyətlərinin tərkibində icarə öhdəliyinin əsas məbləği üçün nağd ödənişlər | (80) | (59) |
| Əməliyyat fəaliyyətlərinin tərkibində ödənilmiş faiz üçün icarə öhdəliyinin faiz məbləği üçün nağd ödənişlər | (40) | (19) |
| Əməliyyat fəaliyyəti tərkibində qısamüddətli icarə ödənişləri | (126) | (135) |
| Əməliyyat fəaliyyəti tərkibində dəyişkən icarə ödənişləri | (5) | (10) |
| **Cəmi** | **(251)** | **(223)** |

## 27. İcarələr (davamı)

### Qrup icarədar qismində

Qrup əmlak, tikili və avadanlıqlar daxilində bina və tikililər kimi təsnifləşdirilən əsasən 345 AZN (31 dekabr 2019-cu il: 403 AZN) məbləğində qazma qurğularından ibarət əməliyyat icarəsi müqavilələrini bağlamışdır.

Qazma qurğuları Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarında qazma işlərinin aparılması üçün istifadə edilir.

| **31 dekabr tarixinə ləğv edilməyən əməliyyat icarələri üzrə gələcək icarələr üzrə debitor borcları** | **2020** | **2019** |
|---|---|---|
| Bir islədək | 278 | 250 |
| Bir ildən iki ilədək | 30 | 100 |
| İki ildən üç ilədək | 26 | 8 |
| Üç ildən dörd ilədək | 25 | 5 |
| Dörd ildən beş ilədək | 27 | 6 |
| Beş ildən çox | 11 | 14 |
| **Cəmi** | **397** | **383** |

## 28. Nizamnamə kapitalı, əlavə ödənilmiş kapital, bölüşdürülməmiş mənfəət və törəmə müəssisəsinin payının satışı üzrə gəlir

### Nizamnamə kapitalı

SOCAR, Qrupun bir holdinq şirkəti olaraq, dövlət müəssisəsi hüquqi statusa malikdir. 31 dekabr 2020-ci il tarixində başa çatan ildə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən nizamnamə kapitalında artım qeydiyyata alınmış və müvafiq olaraq 373 AZN məbləğində əlavə ödənilmiş kapital əlavə ödənilmiş kapitaldan nizamnamə kapitalına köçürülmüşdür (31 dekabr 2019-cu il: 176 AZN).

### Əlavə ödənilmiş kapital ("ƏÖK")

31 dekabr 2020-ci il tarixində başa çatan ildə Dövlət Qrupun nizamnamə kapitalına 52 AZN (31 dekabr 2019-cu il: 453 AZN) məbləğində vəsait yatırmışdır. Nizamnamə kapitalında artım qeydiyyata alınana qədər bu məbləğ ƏÖK-ə daxil edilmişdir.

2020-ci ildə Maliyyə nazirliyi Qrupa 15 dekabr 2029-cu il tarixli 0.1 faiz dərəcəsi ilə 139 AZN (82 milyon ABŞ dolları) məbləğində kredit təqdim etmişdir. Kredit öhdəliyinin ədalətli dəyəri və balans dəyəri arasındakı 31 AZN (18 milyon ABŞ dolları) məbləğində fərq ƏÖK əlavəsi kimi uçota alınmışdır.

### Dövlətə ayırmalar

Hökumətin qərarlarına əsasən Qrupdan vaxtaşırı olaraq birbaşa nağd qoyuluşlar etmək və ya Hökumət üçün aparılan tikinti və təmir işlərini maliyyələşdirmək (o cümlədən aktivlərin köçürülməsi) tələb olunur. 2020-ci il ərzində birbaşa Hökumətə köçürülən pul vəsaitlərinin məbləği 442 AZN (31 dekabr 2019-cu il: 680 AZN) təşkil etmiş və əsasən Azərbaycan Respublikasında istirahət, nəqliyyat, təhsil və tibb infrastrukturunun təmiri, tikintisi və yenidən qurulması üçün istifadə edilmişdir.

### Törəmə müəssisədə qeyri-nəzarət payın əldə olunması

21 yanvar 2020-ci il tarixində, Qrup 56 AZN (33 milyon ABŞ dolları) məbləğində ödəniş müqabilində SOCAR Energy Georgia LLC-də mülkiyyət payını 16.3 faiz artırmış və 82 AZN (48 milyon ABŞ dolları) məbləğində zərəri tanımışdır (Qeyd 39).

## 29. Gəlirlərin kateqoriyalar üzrə təhlili

| | **2020** | **2019** |
|---|---|---|
| Xalis xam neft | 26,419 | 51,121 |
| Xalis neft məhsulları | 13,378 | 22,184 |
| Təbii qaz | 4,015 | 4,123 |
| Neft-kimya məhsulları | 3,281 | 3,928 |
| Kirayə gəliri | 469 | 416 |
| Sair gəlirlər | 2,045 | 1,980 |
| **Cəmi gəlirlər** | **49,607** | **83,752** |

Xam neftin satışından əldə olunan gəlirlər, xam neftin beynəlxalq bazar qiyməti ilə dövlət tərəfindən tənzimlənən daxili qiyməti arasındakı ixrac üzrə Azərbaycan Respublikasında tətbiq olunan vergi çıxılmaqla göstərilir. Bazar qiyməti ilə dövlət tərəfindən tənzimlənən daxili qiymət arasındakı fərqə 30 faiz dərəcəsində vergi tətbiq edilir və vergi məbləği Dövlət Büdcəsinə köçürülür.

Neft məhsullarının satışından yaranan gəlirlər 417 AZN (2019-cu il: 468 AZN) məbləğində aksiz vergisi çıxılmaqla göstərilir.

AÇG HPBS üzrə hasil edilmiş xam neftin və Şah Dəniz HPBS üzrə hasil edilmiş kondensatın satışından yaranan gəlirlərdən yuxarıda göstərilən aksiz vergisi tutulmur.

## 30. Xərclərin kateqoriyalar üzrə təhlili

Qrupun xərclərinin növlərinə görə bölgüsü aşağıdakı cədvəldə göstərilir:

| | **Qeyd** | **2020** | **2019** |
|---|---|---|---|
| İstifadə edilmiş xammal və xərc materialları | | 40,050 | 73,971 |
| Əmək haqqı, maaş və sosial müdafiə xərcləri | | 2,017 | 1,740 |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi | | 1,936 | 1,603 |
| Nəqliyyat və nəqliyyat vasitələrinə texniki xidmət | | 1,116 | 1,084 |
| Təmir və texniki xidmət xərcləri | | 424 | 358 |
| Əsas vəsaitlərin dəyərsizləşməsi | | 1,654 | 286 |
| Kommunal xərclər | | 364 | 394 |
| Mənfəət vergisindən başqa sair vergilər | | 186 | 197 |
| Mədən vergisi | | 125 | 125 |
| GKZ | | 119 | 49 |
| İstifadə hüququ olan aktivlərin köhnəlməsi | 27 | 90 | 89 |
| Amortizasiya xərcləri | 16 | 75 | 61 |
| Öhdəliklər və xərclər üçün sair ehtiyatlarda dəyişiklik | | 43 | 73 |
| Sair | | 1,265 | 1,351 |
| **Cəmi satışların maya dəyəri, kəşfiyyat və qiymətləndirmə, paylaşdırma, GKZ, ümumi və inzibati və sair əməliyyat xərcləri** | | **49,464** | **81,381** |

Qrupun əsas aktivlərinin dəyərsizləşməsi aşağıdakı cədvəldə göstərilir:

| | **Qeyd** | **2020** | **2019** |
|---|---|---|---|
| Əmlak, tikili və avadanlıqların dəyərsizləşməsi | 15 | 1,602 | 286 |
| Satış üçün saxlanılan aktivlərin dəyərsizləşməsi | 12 | 45 | – |
| Birgə müəssisələrə investisiyanın dəyərsizləşməsi | 17 | 7 | – |
| **Cəmi** | | **1,654** | **286** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 31. Sair əməliyyat gəliri

| | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| MZƏD ilə kapital aləti üzrə ədalətli dəyər gəliri | | 273 | 117 |
| Dövlət qrantı | | 12 | 35 |
| Əlverişli alış üzrə gəlir | 39 | – | 19 |
| Sair | | 219 | 170 |
| **Cəmi sair əməliyyat gəliri** | | **504** | **341** |

## 32. Effektiv faiz metodunu istifadə etməklə hesablanmış faiz gəlirləri və sair maliyyə gəlirləri

### Effektiv faiz metodunu istifadə etməklə hesablanmış faiz gəlirləri

| | 2020 | 2019 |
|---|---|---|
| Müddətli depozitlər və bank hesabları üzrə faiz gəliri | 96 | 107 |
| Sair | 75 | 56 |
| **Effektiv faiz metodunu istifadə etməklə hesablanmış faiz gəlirləri, cəmi** | **171** | **163** |

### Sair maliyyə gəliri

Sair maliyyə gəliri 25 AZN (2019-cu il: 47 AZN) məbləğində faiz dərəcəsi svopundan reallaşdırılmış gəlirdən ibarətdir.

## 33. Maliyyə xərcləri

| | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| Faiz xərcləri | | 1,031 | 1,029 |
| Aktivlərin ləğv olunması üzrə öhdəliklər üçün ehtiyatlar: diskontlaşdırılmış dəyərə düzəliş | 22 | 80 | 71 |
| İcarə öhdəliyi: diskontlaşdırılmış dəyərə düzəliş | 27 | 62 | 45 |
| Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üçün ehtiyatlar: diskontlaşdırılmış dəyərə düzəliş | 25A | 9 | 8 |
| Ətraf mühitin qorunması ilə bağlı öhdəliklər üçün ehtiyatlar: diskontlaşdırılmış dəyərə düzəliş | 23 | 5 | 7 |
| **Cəmi maliyyə xərcləri** | | **1,187** | **1,160** |

## 34. Mənfəət vergisi

Mənfəət vergisi üzrə xərclər aşağıdakılardan ibarətdir:

| | 2020 | 2019 |
|---|---|---|
| Cari vergi xərcləri | 520 | 573 |
| Təxirə salınmış vergi xərci | (223) | 104 |
| **Mənfəət və ya zərərdə olunan mənfəət vergisi xərci** | **297** | **677** |
| **SMG-də uçota alınmış təxirə salınmış vergi** | **(4)** | **–** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 34. Mənfəət vergisi (davamı)

Gözlənilən və faktiki vergi xərclərinin üzləşdirilməsi aşağıda göstərilir:

| | 2020 | 2019 |
|---|---|---|
| **Vergidən əvvəl mənfəət/(zərər)** | **(1,437)** | **1,328** |
| **Qanunvericiliklə müəyyən edilmiş 20 faiz vergi dərəcəsinə ilə nəzəri vergi xərci** | **(287)** | **266** |
| Müəyyən törəmə müəssisələr üzrə müxtəlif vergi dərəcələrinin effekti (22, 25 və 27 faiz) | 25 | 57 |
| Birgə və asılı müəssisələrin 10% dərəcəsi vergi tutulan bölüşdürülməmiş mənfəəti | (2) | (5) |
| Vergi məqsədləri üçün çıxılmayan və ya qiymətləndirilə bilməyən məbləğlərin vergi effekti: | | |
| - Vergidən azad edilən zərər/(gəlir) | 120 | (2) |
| - Gəlirdən çıxılmayan xərclər | 141 | 121 |
| Tanınmamış təxirə salınmış vergi aktivi | 230 | 187 |
| Əvvəllər tanınmamış təxirə salınmış vergi aktivinin istifadəsi | (19) | (12) |
| İstifadə edilməmiş investisiya stimulları üzrə tanınmış təxirə salınmış mənfəət vergisi aktivləri | – | (35) |
| Törəmə müəssisələrin bölüşdürülməmiş mənfəəti üzrə potensial mənfəət vergisi | 60 | 65 |
| Sair | 29 | 35 |
| **Mənfəət və ya zərərdə təqdim olunan mənfəət vergisi xərci** | **297** | **677** |

Gəlirdən çıxılmayan xərclər əsasən sosial yönümlü və işçilər üzrə xərclərdən ibarətdir. Tanınmamış təxirə salınmış vergi aktivi əsasən Qrupun törəmə müəssisələrinin cari ilin vergi zərərlərini əks etdirir və bu vergi zərərlərinin istifadəsi gözlənilmir.

31 dekabr 2020-ci il tarixinə tanınmamış təxirə salınmış cəmi vergi aktivinin məbləği 1,821 AZN (31 dekabr 2019-cu il: 1,610 AZN) təşkil etmişdir.

Əvvəllər tanınmamış təxirə salınmış vergi aktivlərindən yaranan faydalar il ərzində cari vergi xərclərini 19 AZN məbləğində (2019-cu il: 12 AZN) azaltmaq üçün istifadə edilmişdir.

MHBS və müvafiq vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə məlumatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir. Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

| | 1 yanvar 2020-ci il | Mənfəət/ (zərər) tanınmışdır | Sair məcmu gəlir/(zərər) tanınmışdır | 31 dekabr 2020-ci il |
|---|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | | |
| Keçmiş illərin vergi zərərləri | 37 | 25 | (4) | 58 |
| Ticarət və sair debitor borcları | 33 | (2) | – | 31 |
| Ticarət və sair kreditor borcları | 27 | (7) | – | 20 |
| Mal-material ehtiyatları | – | 18 | (1) | 17 |
| Əmlak, tikili və avadanlıqlar | 506 | 187 | (2) | 691 |
| Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar | 96 | 25 | – | 121 |
| İstifadə edilməmiş investisiya stimulları | 50 | (1) | 1 | 50 |
| Müəyyən edilmiş ödəniş üzrə xalis öhdəlik | 1 | – | – | 1 |
| Sair | 12 | 6 | 5 | 23 |
| **Təxirə salınmış vergi aktivləri** | **762** | **251** | **(1)** | **1,012** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

**34. Mənfəət vergisi (davamı)**

| | 1 yanvar 2020-ci il | Mənfəət/ (zərər) tanınmışdır | Sair məcmu gəlir/(zərər) tanınmışdır | 31 dekabr 2020-ci il |
|---|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | | |
| Hesablamalar | 31 | 6 | (2) | 35 |
| Asılı və birgə müəssisələrə investisiyalar | (104) | 2 | − | (102) |
| Qeyri-maddi aktivlər | (125) | 9 | 13 | (103) |
| Ticarət və sair kreditor borcları | 26 | 12 | (4) | 34 |
| Ticarət və sair debitor borcları | (106) | 20 | − | (86) |
| Mal-material ehtiyatları | (50) | (14) | (1) | (65) |
| Əmlak, tikili və avadanlıqlar | (1,216) | (93) | 16 | (1,293) |
| Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar | 193 | 47 | 1 | 241 |
| İstifadə edilməmiş investisiya stimulları | 13 | (12) | (1) | − |
| Sair | (289) | (5) | (1) | (295) |
| **Təxirə salınmış vergi aktivləri** | **(1,627)** | **(28)** | **21** | **(1,634)** |

| | 1 yanvar 2019-cu il | Mənfəət/ (zərər) tanınmışdır | Sair məcmu gəlir/(zərər) tanınmışdır | 31 dekabr 2019-cu il |
|---|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | | |
| Keçmiş illərin vergi zərərləri | 51 | (23) | 9 | 37 |
| Ticarət və sair kreditor borcları | 12 | 15 | − | 27 |
| Ticarət və sair debitor borcları | 22 | 11 | − | 33 |
| Mal-material ehtiyatları | 4 | (4) | − | − |
| Əmlak, tikili və avadanlıqlar | 443 | 65 | (2) | 506 |
| Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar | 68 | 28 | − | 96 |
| İstifadə edilməmiş investisiya stimulları | 75 | (17) | (8) | 50 |
| Müəyyən edilmiş ödəniş üzrə xalis öhdəlik | 7 | (6) | − | 1 |
| Sair | 18 | (4) | (2) | 12 |
| **Təxirə salınmış vergi aktivləri** | **700** | **65** | **(3)** | **762** |

| | 1 yanvar 2019-cu il | Mənfəət/ (zərər) tanınmışdır | Sair məcmu gəlir/(zərər) tanınmışdır | Müəssisələrin birləşməsi yolu ilə satınalmalar | 31 dekabr 2019-cu il |
|---|---|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | | | |
| Hesablamalar | 17 | − | − | 14 | 31 |
| Asılı və birgə müəssisələrə investisiyalar | (102) | (2) | − | − | (104) |
| Qeyri-maddi aktivlər | (42) | 7 | 1 | (91) | (125) |
| Ticarət və sair kreditor borcları | 6 | (1) | − | 21 | 26 |
| Ticarət və sair debitor borcları | (79) | (27) | − | − | (106) |
| Mal-material ehtiyatları | (38) | (12) | − | − | (50) |
| Əmlak, tikili və avadanlıqlar | (1,084) | (142) | 12 | (2) | (1,216) |
| Öhdəliklər və məsrəflər üzrə ehtiyatlar | 136 | 60 | (3) | − | 193 |
| İstifadə edilməmiş investisiya stimulları | − | 15 | (2) | − | 13 |
| Sair | (226) | (67) | 1 | 3 | (289) |
| **Təxirə salınmış vergi öhdəlikləri** | **(1,412)** | **(169)** | **9** | **(55)** | **(1,627)** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 34. Mənfəət vergisi (davamı)

Qrup konsolidasiya edilmiş vergi bəyannaməsini təqdim etmir. Qrupun cari strukturu baxımından Qrupun ayrı-ayrı müəssisələrinin vergi zərərləri və cari vergi aktivləri Qrupun sair müəssisələrinin cari vergi öhdəlikləri və vergiyə cəlb olunan mənfəəti ilə əvəzləşdirilə bilməz və vergi konsolidasiya olunmuş vergi zərəri olduğu halda belə hesablana bilər. Bu səbəbdən, təxirə salınmış vergi aktiv və öhdəlikləri yalnız vergiyə cəlb olunan eyni müəssisəyə aid olduqda qarşılıqlı şəkildə əvəzləşdirilir.

Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq bir dövrdə yaranmış vergi zərərləri beş ilədək davam edən sonrakı dövrlərə keçirilə bilər.

Qrup, törəmə müəssisəsi olan AzAÇG vasitəsilə AÇG HPBS-nin iştirakçısıdır. 2020-ci il ərzində AÇG HPBS-nin müddəalarına uyğun olaraq, AzAÇG 25 faiz dərəcəsində mənfəət vergisini hesablamış və ödəmişdir.

Azərbaycan Respublikası, Türkiyə və Gürcüstan hökumətləri, Qrupun törəmə müəssisəsi AzBTC və BTC Layihəsinin digər iştirakçıları Tranzit Ərazisinə Malik Ölkənin Hökuməti ilə Sazişlər ("TƏMÖHS") imzalamışlar. TƏMÖHS-lər BTC Layihəsi üzrə hüquq və maliyyə rejimlərini və sərmayəçilərə BTC Layihəsinin müvəffəqiyyətini təmin etmək məqsədilə tələb edilən məsələlərlə bağlı müvafiq dövlətlərdən hüquq və zəmanətlərin verilməsi daxil olmaqla, tərəflərin qarşılıqlı hüquq və vəzifələrini müəyyənləşdirir. TƏMÖHS-lərin müddəalarına müvafiq olaraq, BTC Layihəsi iştirakçılarının hər biri fərdi olaraq Azərbaycan və Gürcüstanda mənfəət vergisi ödənişlərinə görə öhdəlik daşıyır və hər vergi müddəti üçün bəyannamələrin təqdim edilməsinə görə cavabdehdir. Müvafiq olaraq, Şirkət BTC Layihəsində iştirakı ilə əlaqədar Azərbaycan Respublikasında mənfəət vergisinə görə öhdəlik daşıyır. TƏMÖHS müddəalarına uyğun olaraq, Azərbaycanda mənfəət vergisi dərəcəsi 31 dekabr 2020-ci və 2019-cu il tarixlərinə iyirmi yeddi faiz (27 faiz) təşkil edir.

Bundan əlavə, Qrup törəmə müəssisəsi olan AzŞD vasitəsilə Şah Dəniz HPBS-nin iştirakçısıdır. Şah Dəniz HPBS-nin müddəalarına uyğun olaraq, AzŞD mənfəət vergisinə görə öhdəlik daşıyır. Buna baxmayaraq, HPBS-nə uyğun olaraq, Dövlət podratçı tərəflərin adından Dövlətə aid olan mənfəət neftinin satışları üzrə gəlirdən vergilərin ödənilməsini aparır. Buna görə də 2020-ci və 2019-cu illər üzrə Şah Dəniz layihəsi ilə əlaqədar mənfəət vergisi tanınmamışdır. 31 dekabr 2020-ci və 2019-cu il tarixlərinə AzŞD-in təxirə salınmış vergisinin qalığı sıfır olmuşdur. Bundan əlavə, AzŞD Azərbaycan Respublikasında müəyyən adi əməliyyat vergilərindən azad edilmişdir.

Qrup, törəmə müəssisəsi olan STEAŞ şirkəti vasitəsilə Türkiyənin vergi mühitində fəaliyyət göstərir. 31 dekabr 2020-ci il tarixinə Türkiyədə mənfəət vergisi dərəcəsi 22 faiz təşkil edir (31 dekabr 2019-cu il tarixinə: 22 faiz).

5 dekabr 2017-ci il tarixində dərc edilmiş Türkiyənin vergi qanunvericiliyinə edilmiş düzəlişlərə uyğun olaraq, müəssisələrin mənfəətinə tətbiq edilən mənfəət vergisi dərəcəsi 2018-ci, 2019-cu və 2020-ci il dövrləri üçün müvəqqəti olaraq 20 faizdən 22 faizədək artırılmışdır. Növbəti ildən etibarən, 20 faiz vergi dərəcəsi 2021-ci və sonrakı illər üçün yenidən tətbiq ediləcək. Bundan əlavə, 5 dekabr 2017-ci il tarixindən sonrakı maliyyə hesabatları üçün 2018-ci, 2019-cu və 2020-ci illərdə bərpa edilməsi ehtimal edilən müvəqqəti fərqlər üçün 22 faiz, 2020-ci ildən sonra qaytarılması gözlənilən müvəqqəti fərqlər üçün isə 20 faiz dərəcə istifadə edilmişdir. Mənfəət vergisi rüblük əsasla ödənilir.

Qrup İsveçrənin vergi sistemində törəmə şirkətləri olan SOCAR Energy Holdings AG və SOCAR Trading vasitəsilə fəaliyyət göstərir. İsveçrənin vergi qanunvericiliyinə edilmiş yeni düzəlişlərə əsasən, SOCAR Energy Holding AG-yə tətbiq edilən Sürix kantonundakı mənfəət vergisi dərəcəsi 2020-ci ilə aid mənfəət və gələcək vergi dövrləri üçün 19.7 faizədək (2019-cu il: 20.2 faiz) azaldılmışdır. 31 dekabr 2020-ci il tarixinə Cenevrə kantonunda qeydiyyata alınmış SOCAR Trading-ə tətbiq edilən vergi dərəcəsi 13.9 faiz (31 dekabr 2019-cu il: 11.64 faiz) olmuşdur.

Qrupun törəmə müəssisələri − SOCAR Overseas MMC, Gacrux Middle East Investments Holding LTD, Azərbaycan (SCP) LTD, Sermaye Investment Limited, SOCAR Polimer MMC və Karbamid zavodu vergilərdən azad edilmişdir.

31 dekabr 2020-ci il tarixinə Qrup törəmə müəssisələrə qoyulan investisiyalarla əlaqəli vergi tutulan müvəqqəti fərqlərə görə 56 AZN (31 dekabr 2019-cu il: 56 AZN) məbləğində təxirə salınmış vergi öhdəliyini tanımamışdır, çünki Qrup bu müvəqqəti fərqlərin qaytarılması vaxtına nəzarət edə bilər və yaxın gələcəkdə onları qaytarmağı gözləmir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 35. HPBS-də payların satışına görə qəbul olunmuş avans ödənişləri

2014-cü ilin iyul ayında Qrup SOCAR-ın Şah Dəniz HPBS-də 10 faiz payın və CQBKŞ-də 10 faiz payın (birlikdə "Pay") satılması haqqında Təxirə salınmış alqı-satqı razılaşması ("TSASR") imzalamışdır. Bu razılaşmanın şərtlərinə uyğun olaraq CQD bunun üçün SOCAR-a avans ödəyəcək, nəzarət isə öncəki satış şərtlərinin yerinə yetirildiyi təqdirdə 2023-cü ildə CQD-nə keçəcək. Bundan əlavə, TSASR alış üçün 2020-ci ilin sonunadək hər il ödəniləcək vəsaitlə bağlı müəyyən mərhələli ödənişləri müəyyən edir. 31 dekabr 2020-ci il tarixində Şah Dəniz HPBS və CQBKŞ-də paya görə alınmış cəmi məbləğ 4,308 AZN (2,534 milyon ABŞ dolları) (2019-cu il: 4,313 AZN (2,537 milyon ABŞ dolları)) olmuşdur.

## 36. Əhəmiyyətli nağdsız investisiya və maliyyələşdirmə fəaliyyətləri

Aşağıda pul vəsaitlərinin hərəkəti haqqında hesabata daxil edilməyən və pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinin istifadəsini tələb etməyən investisiya və maliyyələşdirmə əməliyyatları göstərilmişdir:

| | Qeyd | 2020 | 2019 |
|---|---|---|---|
| **Nağdsız investisiya və maliyyələşdirmə əməliyyatları** | | | |
| Nağdsız kapital məsrəflər | | 265 | 224 |
| İcarəyə alınmış aktivlərə əlavələr | | 236 | 43 |
| Əmlak, tikili və avadanlıqların silinməsi | | 130 | − |
| Qeyri-nəzarət paylarından səhmlərin satınalınması | 26 | 56 | − |
| CQD tərəfindən Qrupun adından ödənilən nağd pul tələblərinə görə TANAP-dan kredit üzrə debitor borclarında artım/(azalma) | | (46) | 25 |
| CQD tərəfindən Qrupun adından ödənilən nağd pul tələblərinə görə TANAP-a investisiya əlavəsi | | − | 26 |
| CQD tərəfindən Qrupun adından ödənilən nağd pul tələblərinə görə TANAP-a dan kredit üzrə kreditor borclarında azalma | | (41) | − |
| Maraqların ötürülməsi haqqında razılaşma əsasında kapital məsrəfləri | | 14 | 6 |
| İcarə müqavilələrinə vaxtından əvvəl xitam verilməsi | | (4) | (49) |
| Hökumətdən olan borc öhdəliklərinin kapitala çevrilməsi | 37 | 47 | − |
| **Nağdsız investisiya və maliyyələşdirmə əməliyyatları** | | **657** | **275** |

## 37. Maliyyə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər

| | 1 yanvar 2020-ci il | Pul vəsait-lərinin hərəkəti | Maliyyə xərci | Məzənnə fərqi üzrə hərəkət | Sair | 31 dekabr 2020-ci il |
|---|---|---|---|---|---|---|
| Qısamüddətli borc öhdəlikləri | 4,687 | (19) | 187 | (185) | 1,240 | 5,910 |
| Uzunmüddətli borc öhdəlikləri | 11,369 | 406 | 650 | 61 | (1,267) | 11,219 |
| Satış opsionu üzrə öhdəliklər | 2,737 | (204) | 198 | (3) | − | 2,728 |
| Təxirə salınmış ödəniş öhdəliyi | 727 | − | 33 | (3) | 29 | 786 |
| İcarə öhdəlikləri | 631 | (120) | 62 | 37 | 219 | 829 |
| TANAP-ın pul vəsaitləri tələbləri üçün CQD tərəfindən Qrupun maliyyələşdirilməsi | 103 | − | 7 | − | (19) | 91 |
| Qeyri-nəzarət payı üzrə ödəniləcək dividend | 32 | − | − | − | 32 | 64 |
| **Maliyyə fəaliyyətindən yaranan cəmi öhdəliklər** | **20,286** | **63** | **1,137** | **(93)** | **234** | **21,627** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

### 37. Maliyyə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər (davamı)

Uzunmüddətli faiz hesablanan borc öhdəliklərinin "Sair" sütunu 2020-ci ildə 1,240 AZN məbləğində uzunmüddətli borc öhdəliklərinin cari hissəsinin qısamüddətli kimi təsnifləşdirilməsi və Maliyyə Nazirliyi qarşısında borc öhdəliklərinin Qrupun 27 AZN məbləğində nizamnamə kapitalına çevrilməsinin təsiri ilə təmsil olunur.

Ödəniləcək dividendin "Sair"sütununda 2020-ci il ərzində qeyri-nəzarət payına malik səhmdarlara elan edilmiş və 31 dekabr 2020-ci il tarixinə ödənilməmiş dividend daxildir. TANAP-ın pul vəsaitləri tələbləri üçün CQD tərəfindən Qrupun maliyyələşdirilməsinin "Sair" sütununa TANAP tərəfindən CQD-yə Qrupun adından aparılan ödənişlərin məbləği daxildir. Təxirə salınmış borc öhdəliyinin "Sair" sütununa SOCAR Energy Georgia LLC-də mülkiyyət payının 16.3 faiz artımı ilə bağlı üçüncü tərəflərə ödəniləcək məbləğ daxildir. İcarə öhdəliklərinin "Sair" sütununa yeni icarələr daxildir.

31 dekabr 2019-cu il tarixində maliyyə fəaliyyətindən irəli gələn öhdəliklərdə dəyişikliklər aşağıdakılardan ibarətdir:

| | 1 yanvar 2019-cu il | Pul vəsait-lərinin hərəkəti | Maliyyə xərci | Məzənnə fərqi üzrə hərəkət | Yeni bizneslərin alınması | Sair | 31 dekabr 2019-cu il |
|---|---|---|---|---|---|---|---|
| Qısamüddətli faiz hesablanan borc öhdəlikləri | 4,586 | (1,024) | 240 | (201) | 18 | 1,068 | 4,687 |
| Uzunmüddətli faiz hesablanan borc öhdəlikləri | 9,659 | 2,220 | 579 | (25) | 4 | (1,068) | 11,369 |
| Satış opsionu üzrə öhdəliklər | 2,784 | (387) | 335 | 5 | – | – | 2,737 |
| TANAP-ın pul vəsaitləri tələbləri üçün CQD tərəfindən Qrupun maliyyələşdirilməsi | 55 | – | – | (3) | – | 51 | 103 |
| Təxirə salınmış ödəniş öhdəliyi | 686 | – | 38 | 3 | – | – | 727 |
| Qeyri-nəzarət payına ödəniləcək dividend | 21 | – | – | – | – | 11 | 32 |
| İcarə öhdəlikləri | 685 | (78) | 45 | (24) | – | 3 | 631 |
| **Maliyyə fəaliyyətindən yaranan cəmi öhdəliklər** | **18,476** | **731** | **1,237** | **(245)** | **22** | **65** | **20,286** |

Qısamüddətli və uzunmüddətli faiz hesablanan borc öhdəliklərinin "Sair" sütunu 2019-cu ildə 1,068 AZN məbləğində uzunmüddətli borc öhdəliklərinin cari hissəsinin qısamüddətli kimi təsnifləşdirilməsi ilə təmsil olunur. Ödəniləcək dividendin "Sair" sütununa 2019-cu il ərzində qeyri-nəzarət payına malik səhmdarlara elan edilmiş və 31 dekabr 2019-cu il tarixinə ödənilməmiş dividendlər daxildir. TANAP-ın pul vəsaitləri tələbləri üçün CQD tərəfindən Qrupun maliyyələşdirilməsinin "Sair" sütununa TANAP-ın pul vəsaitləri tələblərinə cavab olaraq CQD tərəfindən Qrupun adından aparılan ödənişlər üçün Qrupun tanıdığı gələcək pul vəsaitləri xərcləri ilə nəticələnən öhdəliklər daxildir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 38. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri

### Əməliyyat mühiti

*Azərbaycan*

Qrupun əməliyyatları əsas etibarı ilə Azərbaycan Respublikasında həyata keçirilir. Azərbaycan Respublikası iqtisadi islahatları aparmağa, hüquqi, vergi və nizamlayıcı infrastrukturu təkmilləşdirməyə davam edir. Azərbaycan iqtisadiyyatının gələcək sabitliyi önəmli dərəcədə bu islahatlardan, eləcə də Dövlətin gördüyü iqtisadi, maliyyə və monetar tədbirlərinin effektivliyindən, xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən asılıdır.

Azərbaycan iqtisadiyyatı neft qiymətlərinin aşağı düşməsi və Azərbaycan manatının 2015-ci il ərzində devalvasiyasının mənfi təsirinə məruz qalmışdır. Bu, kapital əldə etmək imkanlarının məhdudlaşması, kapital dəyərinin artması, inflyasiya və iqtisadi artımın qeyri-müəyyənliyi kimi amillərə səbəb olmuşdur.

Bu çətinliklərə cavab olaraq, Azərbaycan Hökuməti islahatları sürətləndirmək və maliyyə sisteminə dəstək vermək planlarını açıqlamışdır. 6 dekabr 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”ni təsdiqləmişdir. Yol xəritəsi 2016-2020-ci illərdə inkişaf strategiyasını, 2025-ci ilə qədər uzunmüddətli perspektivləri və 2025-ci ildən sonrakı dövrü əhatə edir.

Bundan əlavə, 2020-ci ildə hökumət Azərbaycan manatının stabilləşdirilməsinə yönəlmiş pul siyasətini davam etdirmiş, eləcə də Azərbaycan manatının stabilləşdirilməsinə xarici valyuta ehtiyatları ayırmışdır. Bu siyasətin 2021-ci ildə makroiqtisadi sabitliyin qorunması məqsədi ilə davam etdirilməsi gözlənilir.

Qrupun rəhbərliyi makroiqtisadi şəraitdə baş verən dəyişiklikləri izləməkdədir və Qrupun yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını dəstəkləmək üçün lazım hesab etdiyi ehtiyat tədbirlərini görməkdədir.

Beynəlxalq kredit reytinqi agentlikləri mütəmadi olaraq Qrupun və Azərbaycanın kredit reytinqini qiymətləndirir. Fitch Qrupun və Azərbaycan Respublikasının reytinqini “BB+” səviyyəsində, lakin S&P Qrupun reytinqini isə “BB-”, Azərbaycan Respublikasının reytinqini isə “BB+”səviyyəsində qiymətləndirmişdir. Bundan sonra Moody’s İnvestors Service agentliyi Qrupun və Azərbaycanın kredit reytinqini “Ba2” səviyyəsində müəyyən etmişdir.

### Ətraf mühitin qorunması ilə bağlı məsələlər

Hazırda Azərbaycan Respublikasında ətraf mühitin qorunması haqqında qanunvericilik təkmilləşdirilir və ona əməl olunması ilə bağlı hökumət orqanlarının mövqeyinə yenidən baxılır. Qrup, ətraf mühitin qorunması ilə bağlı öhdəliklərini mütəmadi olaraq qiymətləndirir. Öhdəliklər müəyyən edildikcə dərhal uçota alınır. Mövcud qanunvericiliyin və normativ aktların dəyişməsi nəticəsində yarana bilən, eləcə də məhkəmə praktikası nəticəsində kifayət qədər dəqiqliklə qiymətləndirilə bilməyən potensial öhdəliklər əhəmiyyətli ola bilər. Rəhbərlik hesab edir ki, ətraf mühitin qorunması haqqında qüvvədə olan qanunvericiliyə əməl olunması üzrə mövcud nəzarət sistemi şəraitində ətraf mühitə zərər vurulması ilə bağlı Qrup tərəfindən ətraf mühitin bərpası öhdəliyi üzrə yaradılmış ehtiyatdan artıq əhəmiyyətli öhdəliklər mövcud deyil (Qeyd 23).

Qrup öz məhsulları, əməliyyatları və sair fəaliyyətləri ilə əlaqədar olaraq ətraf mühitin qorunması haqqında bir sıra qanun və qaydalara riayət etməlidir. Bu qanun və qaydalara əsasən Qrup və ya sair müəssisələr tərəfindən əvvəlki illərdə kimyəvi və ya neft maddələrinin ləğv edilməsi və ya tullantısı nəticəsində ətraf mühitə dəymiş ziyanı aradan qaldırmalıdır. Bu cür vəziyyətlər neftayırma zavodları, kimya müəssisələri, neft mədənləri, xidmət məntəqələri, terminallar və tullantıların ləğv edilməsi məntəqələri kimi müxtəlif ərazilərdə mövcud ola bilər. Bundan əlavə, Qrupun əvvəlki illərdə satılmış aktivlər və ya bağlanmış obyektlər ilə bağlı öhdəlikləri ola bilər. Ətraf mühitə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı əsas tələb və bununla bağlı xərcləri müəyyən etmək mahiyyətcə çətindir. Lakin, ətraf mühit üzrə məlum öhdəliklərin qiymətləndirilmiş dəyəri Qrupun uçot siyasətinə uyğun olaraq hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilmişdir. Gələcək xərclərin məbləğinin nəzərə çarpan ola bilməsi və bu cür xərclərin qeydə alındığı dövrdə Qrupun əməliyyat nəticələri üçün əhəmiyyətli ola bilməsinə baxmayaraq bununla bağlı məbləğlərin müəyyən edilməsi praktiki deyildir. Qrup, bu cür xərclərin Qrupun maliyyə vəziyyətinə və ya likvidliyinə əhəmiyyətli dərəcədə təsir göstərəcəyini gözləmir.

## 38. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Ətraf mühitin qorunması ilə bağlı məsələlər (davamı)

Qrup həmçinin neft və təbii qaz hasilatı obyektlərinin və asılı kəmərlərin istismardan çıxarılması ilə bağlı öhdəliklərə malikdir. Bu fəaliyyət növləri ilə bağlı təxmin edilmiş xərclər üzrə ehtiyat yaradılır, lakin həmin öhdəliklərin uzunmüddətli olmasına görə, bu cür xərclərin məbləği və vaxtı ilə bağlı qeyri-müəyyənlik mövcuddur (Qeyd 22).

Qrup, bu cür ehtiyatlar üzrə dəqiqliklə təxmin edilə biləcək hər hansı dəyişikliyin Qrupun əməliyyat nəticələri, maliyyə vəziyyəti və ya likvidliyinə təsirinin əhəmiyyətli olmayacağını hesab edir.

### İqlim dəyişikliyi ilə bağlı risk və imkanlar

Korporativ riskin idarəedilməsi və daxili nəzarət sistemləri çərçivəsində Qrup illik əsasla onun işgüzar fəaliyyətinin iqlim dəyişikliyinə təsiri ilə bağlı risk və imkanları müəyyən edir və qiymətləndirir. İnvestisiya qərarlarını verərkən sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit (SƏTƏM), ekologiya və iqlim dəyişikliyi ilə bağlı risklər təhlil edilir.

İri layihələr üçün Şirkətin strateji məqsədləri, ətraf mühit üzrə standartlar və Azərbaycan və beynəlxalq qanunvericiliyin tələbləri ilə uyğunluğun təhlili aparılır, habelə ətraf mühitə təsirlə bağlı xarici risklər (qanunvericilikdə dəyişikliklər, texnologiyalarda dəyişikliklər, bazar riskləri, nüfuzla bağlı risklər və s.) təhlil edilir və qiymətləndirilir. Bundan əlavə, iqlim dəyişikliyi və az karbonlu enerjiyə keçidlə bağlı risk və imkanlar Qrupun uzunmüddətli strateji idarəetmə və işgüzar fəaliyyətin planlaşdırılması prosesləri zamanı nəzərə alınır.

### Koronavirus pandemiyasının təsiri

2020-ci ilin mart ayından COVID-19 pandemiyasının yayılması dünya iqtisadiyyatına əhəmiyyətli mənfi təsir göstərmişdir. Virusun yayılmasının qarşısını almaq məqsədilə görülən tədbirlər əhəmiyyətli iqtisadi tənəzzülə səbəb olmuşdur. Qlobal neft və qaz bazarları tələb və qiymətlərin yüksək dəyişkənliyi ilə qarşılaşmışlar. Bundan əlavə, gələcək iqtisadi inkişafla bağlı pandemiyadan irəli gələn qeyri-müəyyənlik Qrupun əhəmiyyətli əməliyyatları olduğu Türkiyə də daxil olmaqla inkişaf etməkdə olan bazarlarda kapital itkilərinə gətirib çıxarmış, bu itkilər isə öz növbəsində 2020-ci ildə Türk lirəsinin ABŞ dolları və avroya qarşı ucuzlaşmasında mühüm rol oynamışdır.

COVID-19 ilə əlaqəli məhdudlaşdırıcı tədbirlər, habelə neft bazarlarının dəyişkənliyi Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərmişdir. Xam neft və neft məhsulları ölkə ixracatının əhəmiyyətli hissəsini təşkil etdiyindən, neft qiymətlərinin aşağı düşməsi Azərbaycanın cari balansını zəiflətmişdir. Nəticədə, 2020-ci ildə Azərbaycan manatının ABŞ dolları və Avroya qarşı dəyəri təzyiqlərə məruz qalmış, lakin Azərbaycan Respublikasının Hökuməti və Mərkəzi Bankı tərəfindən vaxtında edilən müdaxilələr sayəsində Azərbaycan Manatı il ərzində sabit qalmışdır.

COVID-19 ilə əlaqəli məhdudlaşdırıcı tədbirlər Gürcüstan iqtisadiyyatına da mənfi təsir göstərmiş, iqtisadiyyatda baş verən neqativ proseslər isə öz növbəsində 2020-ci ildə Gürcüstan Larisinin ABŞ dolları və avroya nisbətdə dəyərdən düşməsinə səbəb olmuşdur.

COVID-19 pandemiyasının müddəti və nəticələri, habelə görülən tədbirlərin səmərəliliyi hazırda aydın deyil. COVID-19 pandemiyasının Qrupun maliyyə vəziyyəti, pul vəsaitləri hərəkəti və əməliyyatlarının nəticələrinə uzunmüddətli təsiri pandemiyanın gedişindən və qarşısının nə dərəcədə effektiv alınacağından asılı olacaqdır.

*Türkiyə iqtisadiyyatı*

Qrupun Türkiyədəki fəaliyyəti Türkiyə iqtisadiyyatının 2020-ci ildə yaşadığı qeydi-sabitliyinin təsirinə məruz qalmışdır. Bu qeyri-sabitliyin davamı olaraq əhəmiyyətli inflyasiya və yerli valyutanın ABŞ dolları və Avro kimi əsas xarici valyutalara qarşı, müvafiq olaraq 24 faiz (2019-cu il: 13 faiz) və 37 faiz (2019-cu il: 10 faiz) dəyərsizləşməsi baş vermişdir.

Rəhbərlik mövcud vəziyyətdə Qrupun biznesinin davamlılığını dəstəkləmək üçün lazımi tədbirlər gördüyündən əmin olduğuna baxmayaraq, yuxarıda təsvir edilən məsələlərdə gözlənilməz pisləşmə Qrupun nəticələrinə və maliyyə vəziyyətinə hazırda müəyyən edilə bilməyən şəkildə mənfi təsir edə bilər.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 38. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Ətraf mühitin qorunması ilə bağlı məsələlər (davamı)

*Gürcüstan iqtisadiyyatı*

Qrupun Gürcüstandakı fəaliyyəti Gürcüstan iqtisadiyyatının 2020-ci ildə yaşadığı qeydi-sabitliyinin təsirinə məruz qalmışdır. Bu qeyri-sabitliyin davamı olaraq əhəmiyyətli inflyasiya və yerli valyutanın ABŞ dolları və Avro kimi əsas xarici valyutalara qarşı, müvafiq olaraq 14 faiz (2019-cu il: 7 faiz) və 25 faiz (2019-cu il: 5 faiz) dəyərsizləşməsi baş vermişdir.

Rəhbərlik mövcud vəziyyətdə Qrupun biznesinin davamlılığını dəstəkləmək üçün lazımi tədbirlər gördüyündən əmin olduğuna baxmayaraq, yuxarıda təsvir edilən məsələlərdə gözlənilməz pisləşmə Qrupun nəticələrinə və maliyyə vəziyyətinə hazırda müəyyən edilə bilməyən şəkildə mənfi təsir edə bilər.

### Vergi qanunvericiliyi

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq səlahiyyətli orqanlar tərəfindən etiraz edilə bilər.

Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fiskal fəaliyyət dövrü yoxlanıla bilər. Xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Qrupun rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, valyuta və gömrüklə bağlı Qrupun mövqeləri qorunacaq və Qrupun potensial vergi öhdəlikləri hazırkı maliyyə hesabatlarında qeydə alınmış məbləğlərdən artıq olmayacaqdır. Müvafiq olaraq, 31 dekabr 2020-ci və 2019-cu il tarixlərinə potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır.

### Qara Dəniz Terminalı üzrə vergi

2018-ci ildə Gəlirlər Xidməti (GX) tərəfindən Qrupun törəmə müəssisəsi olan Qara Dəniz Terminalında 1 yanvar 2015-ci ildən 1 yanvar 2018-ci ilədək müddəti əhatə edən mənfəət vergisi, şəxsi gəlir vergisi və ödəmə mənbəyindən tutulan verginin ("ÖMV") yoxlanılması aparılmışdır. Yoxlama nəticəsində GX cəmi 95 AZN (183 milyon GEL) məbləğində əlavə mənbədə tutulan vergi ("ÖMV") və müvafiq cərimə və sanksiyalar hesablamışdır. Qrup yoxlamanın nəticələri ilə razılaşmamış və istintaq üçün Maliyyə Nazirliyinə müraciət etmişdir. Bir neçə dəfə dinləmələr aparılmış, lakın 31 dekabr 2020-ci il tarixinə yekun qərar çıxarılmamışdır. Rəhbərlik hesab edir ki, göstərilən cərimə əsassız hesab ediləcək, və buna görə də maliyyə riski yaranmayacaq.

### Petkim-ə qarşı davam edən məhkəmə işləri

25 avqust 2017-ci il tarixində Türkiyənin vergi orqanları Petkim-ə 2014-cü il ərzində piroliz qazının (piroqaz) istehlakı ilə bağlı aparılmış tədqiqatın nəticəsində Xüsusi İstehlak Vergisi ("XİV") rejimi əsasında əlavə ƏDV-nin ödənilməli olması və cərimənin hesablanması haqqında xəbər vermişdir. Piroqaz üçün XİV rejiminin tətbiqi ilə bağlı aparılan üç məhkəmə işi nəticəsində bu yaxınlarda Petkim-in xeyrinə qərar çıxarılmışdır. Hesablanmış vergi və cərimələrlə bağlı razılaşma görüşü keçirilmiş, lakin heç bir razılıq əldə edilməmişdir. 22 yanvar 2020-ci il tarixində məsələ ilə bağlı iddia qaldırılmış və 31 dekabr 2020-ci il tarixinə yekun qərar verilməmişdir. Rəhbərlik göstərilən cərimə əsasının etibarsız hesab olunacacağını və heç bir maliyyə riskinin yaranmayacağını ehtimal edirlər.

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və normal fəaliyyət gedişində Qrupa qarşı iddialar irəli sürülür. Qrupun rəhbərliyi öz təxminlərinə və daxili və xarici peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı müvafiq olaraq konsolidasiya edilmiş hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatlardan başqa heç bir əhəmiyyətli zərər olmayacaqdır.

## 38. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Qaz alışlarına aid məhkəmə prosedurları

Qaz alışları müqavilələrinin şərtlərinə əsasən müəyyən müqavilə şərtləri qarşılandıqda Qrupun təbii qazı Türkiyəyə idxal edən təchizatçısı Qrupa retrospektiv qiymət düzəlişləri tətbiq etmək hüququna malikdir. 31 dekabr 2020-ci il tarixinə Qrupun müqavilə öhdəlikləri üzrə riskinin maksimal həddi 36 AZN (21 milyon ABŞ dolları) olmuşdur. 31 dekabr 2020-ci və 2019-cu il tarixlərinə konsolidasiya edilmiş maliyyə hesabatlarında bu öhdəliklərlə bağlı ehtiyat tanınmamışdır.

### Maliyyə razılaşmalarına uyğunluq

31 dekabr 2020-ci ildə Qrupun investisiya və əməliyyat fəaliyyətini maliyyələşdirmək üçün cəmi 17,129 AZN məbləğində kredit üzrə ödəniləcək məbləğləri olmuşdur. Qrup həmin borc öhdəliklərinə aid olan müəyyən maliyyə razılaşmalarını imzalamışdır. Bu razılaşmaların yerinə yetirilməməsi Qrup üçün mənfi nəticələrə, o cümlədən borc öhdəliklərinin artması və öhdəliklərin pozulmasının bəyan edilməsinə gətirə bilər. Rəhbərlik hesab edir ki, 31 dekabr 2020-ci və 2019-cu il tarixlərinə Qrup tətbiq edilən bütün maliyyə razılaşmalarını yerinə yetirmişdir.

### Maliyyə zəmanətləri, girovlar və ipotekalar

Qrup, əlaqəli tərəfdən alınmış kredit üçün 320 AZN məbləğində təbii qazın və xam neftin satışından əldə olunan gəlirlərlə əlaqədar gələcək pul vəsaitlərinin daxilolmalarını girov qoymuşdur (31 dekabr 2019-cu il: 418 AZN).

*SOCAR Baş Ofisi*

STAR layihəsinin maliyyələşdirilməsi əməliyyatının bir hissəsi olaraq imzalanmış Səhm Kapitalına Dəstək və Saxlama Razılaşmasına (“SKDSR”) uyğun olaraq Qrup müəyyən banklarla cəmi 865 AZN (509 milyon ABŞ dolları) məbləğində akkreditiv razılaşmaları imzalamışdır (31 Dekabr 2019-cu il: 865 AZN) (Qeyd 6).

*STEAŞ*

Aşağıdakı cədvəldə Qrupun 31 dekabr 2020-ci il tarixində aldığı və verdiyi zəmanətlər əks edilir:

| | 2020 | 2019 |
|---|---|---|
| **Alınmış zəmanətlər** | | |
| Müştərilərdən alınmış zəmanət məktubları | 343 | 296 |
| Birbaşa sifarişlərin toplanması sistemi çərçivəsində bank zəmanətləri | 293 | 321 |
| Sığorta üzrə alınacaq məbləğ | 178 | 291 |
| Təchizatçılardan alınmış zəmanət məktubları | 154 | 130 |
| Alınmış akkreditivlər | 32 | 38 |
| Sair | 7 | 26 |
| **Cəmi alınmış zəmanətlər** | **1,007** | **1,102** |
| **Verilmiş zəmanətlər** | | |
| Verilmiş zəmanətlər | 110 | 177 |
| **Cəmi verilmiş zəmanətlər** | **110** | **177** |
| **Girovlar, təminatlar və ipoteka girovları (GTİ)** | | |
| Petkim tərəfindən Petlim krediti üzrə təqdim edilmiş GTİ* | 316 | 322 |
| Petkim üçün təqdim edilmiş GTİ | 690 | 718 |
| **Petkim tərəfindən təqdim edilmiş cəmi GTİ** | **1,006** | **1,040** |

* *2015-ci il ərzində Qrupun törəmə müəssisəsi Petkim-in 70 faizlik paya sahib olduğu Petlim Limancılık Ticaret A.Ş, konteyner portu layihəsinin kənardan maliyyələşdirilməsi məqsədilə maliyyə təşkilatı ilə 360 AZN (212 milyon ABŞ dolları) məbləğində ödəmə müddəti 13 il olan layihənin maliyyələşdirilməsi haqqında kredit razılaşması imzalamışdır. Razılaşmada ilk 3 illik müddətdə ödənişlərin aparılmayacağı nəzərdə tutulur. 31 dekabr 2020-ci il tarixində Petlimin 260 AZN (153 milyon ABŞ dolları) məbləğində kredit qalığı olmuşdur. Petkin kreditin qaytarılmasına zəmanət olaraq 24 AZN (105 milyon TL) məbləğində Petlimdə olan səhmlərini və 595 AZN (350 milyon ABŞ dolları) məbləğində ipoteka kreditini girov qoymuşdur. Layihə əməliyyat dövrü ərzində qüvvədə olan maliyyə razılaşmalarını nəzərdə tutur.*

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 38. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Kapital öhdəlikləri

*AÇG HPBS-də iştirak payı*

31 dekabr 2020-ci il tarixinə AÇG HPBS-nin Operatoru olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bir sıra kapital öhdəlikləri üzrə müqavilələr imzalamışdır. Qrup həmin öhdəliklərdə 25 faiz payını (31 dekabr 2019-cu il: 25 faiz), 1,894 AZN (1,114 milyon ABŞ dolları) məbləğində təxmin etmişdir (31 dekabr 2019-cu il: 2,373 AZN (1,396 milyon ABŞ dolları)).

*Şah Dəniz HPBS-də iştirak payı*

31 dekabr 2020-ci il tarixinə Şah Dəniz HPBS-nin Operatoru olan BP Exploreyşn (Şah Dəniz) Ltd bir sıra kapital öhdəlikləri haqqında müqavilələr imzalamışdır. Qrup həmin kapital öhdəliklərində törəmə müəssisə və asılı müəssisə vasitəsilə saxladığı 13.27 faiz payını 371 AZN (218 milyon ABŞ dolları) (31 dekabr 2019-cu il: 673 AZN (396 milyon ABŞ dolları) məbləğində təxmin etmişdir.

*TAP-ın tikintisi*

2018-ci ilin sonunda TAP AG iri maliyyə institutları qrupu tərəfindən layihə maliyyələşdirməsi əsasında maliyyələşdirmə məsələlərinin tamamlanmasına nail olmuşdur. Qrup TAP AG-də saxladığı 20 faiz səhm üçün kredit vəsaitlərinin zəmanətçilərindən biri kimi çıxış edir və TAP AG üçün kapital payına proporsional olaraq tələb olunan kapital maliyyələşdirməsini təmin etməyə davam edir. Layihənin maliyyələşdirilməsi üzrə öhdəliyin tamamlanması (müqavilədə göstərildiyi kimi) 31 mart 2021-ci ildə əldə edilmiş və Qrup da daxil olmaqla bəzi zəmanətçilərin zəmanətləri həmin tarixdə ləğv edilmişdir. 31 dekabr 2020-ci il tarixinə TAP layihəsi əsasında kommersiya əməliyyatları artıq başlamış və gələcəkdə boru kəmərinin ilkin layihə tutumu ilə bağlı Qrup tərəfindən kapital maliyyələşdirməsinin təmin edilməsi gözlənilmir.

*Bakı Gəmiqayırma Zavodu MMC-nin öhdəlikləri*

31 dekabr 2020-ci ildə Qrupun tikinti müqavilələri ilə əlaqədar üçüncü tərəflər qarşısında 11 AZN (31 dekabr 2019-cu il: 43 AZN) məbləğində kapital öhdəlikləri olmuşdur.

*SOCAR İsveçrə-nin öhdəlikləri*

Qrupun növbəti illər üçün bir sıra kapital öhdəlikləri vardır. Qrup kapital öhdəliklərini 60 AZN (31 milyon CHF) məbləğində qiymətləndirir (31 dekabr 2019-cu ildə: 63 AZN (36 milyon CHF)).

### Qaz alışları öhdəliyi

*Qaz alışları öhdəliyi*

Azərbaycan Qaz Təchizat Şirkəti (AQTŞ) və Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyi arasında imzalanmış 27 fevral 2003-cü il tarixli “Qazın alqı-satqısına dair müqaviləyə (hazırda bu müqavilə üzrə alış hüquqları Qrup tərəfindən həyata keçirilir) uyğun olaraq, Qrup müqavilədə qeyd olunduğu kimi, müqavilənin imzalandığı andan Şah Dəniz HPBS-yə xitam verilməsinə qədər olan müddətdə satıcının minimal illik qaz satışı həcmini almaq öhdəliyinə malikdir.

*SOCAR − AQTŞ Qaz satış müqaviləsi*

Qrup ilə AQTŞ arasında imzalanmış müqaviləyə əsasən, 2020-ci ilin dekabr ayınadək (müqavilənin müddəalarına uyğun olaraq müqavilənin qüvvəsinə vaxtından əvvəl xitam vermək və ya müddətini uzatmaqla) müqavilədə göstərilən minimum illik qazın miqdarını müqavilədə nəzərdə tutulmuş qiymətlə satın almağa borcludur.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 38. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

**AQTŞ-də iştirak payına aid olan öhdəliklər**

Qrupun AQTŞ-də birbaşa iştirak payı 28 faiz, dolayı payı isə asılı müəssisə vasitəsilə 2.62 faiz təşkil edir. AQTŞ ilə bağlanmış müqavilələrə əsasən Qrupun AQTŞ-nin fəaliyyəti ilə bağlı aşağıdakı öhdəliklərdə 13.27 faiz payı vardır:

*BOTAŞ ASR 1*

BOTAŞ şirkəti ilə imzalanmış Qaz Müqaviləsinə əsasən AQTŞ müqavilənin müddəti bitənədək hər il Qaz müqaviləsində müəyyən edilmiş düsturla hesablanmış qiymətlə maksimum təqribən 6.6 müqavilə üzrə milyard kubmetr (mmkm) qazla təmin etmək öhdəliyini daşıyır. Müqavilənin müddəti 2021-ci ilin aprel ayında başa çatır.

*BOTAŞ ASR 2*

25 oktyabr 2011-ci il tarixində Qrup və BOTAŞ Qrup tərəfindən BOTAŞ-a müəyyən həcmdə (birinci il 2 mmkm, ikinci il 4 mmkm, sabitləşmə dövründə 6 mmkm ) Şah Dəniz Mərhələ 2 Qazının satılması ilə əlaqədar BOTAŞ ASR 2 imzalamışdır. 2012-ci ilin dekabr ayında Qrup alqı-satqı razılaşmasının Mərhələ 2 üzrə hüquq və öhdəliklərini AQTŞ-yə ötürmüşdür. BOTAŞ ASR 2 əsasında başlanğıc tarixi 30 iyun 2018-ci il olmuşdur.

*BOTAŞ-ın BTC yanacaq qazına dair müqaviləsi (BIL QSM)*

BOTAŞ ilə müqaviləyə əsasən AQTŞ BOTAŞ-a hər il 0.15 mmkm qazı müqavilədə müəyyən olunmuş düstur əsasında hesablanmış qiymətlə təmin etməyə borcludur.

*Gürcüstanda GNQK ilə əlavə qaz alqı-satqısı razılaşması*

Gürcüstan Neft və Qaz Korporasiyası ("GNQK") və Gürcüstan hökuməti ilə imzalanmış müqaviləyə əsasən AQTŞ müqavilədə müəyyən edilmiş düstur əsasında hesablanmış qiymətlə 2021-ci ildə və 2026-cı ilin sonunadək ildə təqribən 0.5 mmkm qaz təmin etməlidir.

*OptionCo ilə alqı-satqı razılaşması*

AQTŞ-ın OptionCo ilə imzalanmış müqaviləyə əsasən hər müqavilə ilində keçən təqvim ilində Gürcüstan ərazisindən Cənubi Qafqaz Boru Kəməri vasitəsilə AQTŞ tərəfindən nəql edilmiş həcmlərin maksimum 5 faizi həcmində müqavilədə müəyyən olunmuş düstur əsasında hesablanmış qiymətə qaz təmin etmək öhdəliyi vardır.

*Avropa Birliyi ("AB") ilə Şah Dəniz layihəsinin 2-ci Mərhələsinin uzunmüddətli qaz satışları haqqında müqavilələr ("QSM")*

2013-cü ilin sentyabr ayında Qrup AB-nin alıcıları ilə (cari: DEPA, Bulgargaz Shell, Uniper, Axpo, ENGIE, EDİSON, Enel, Hera) AB QSM imzalamış və 2013-cü ilin dekabr ayında QSM-lər Şah Dəniz HPBS-nin müddəti bitənə qədər AQTŞ-yə ötürülmüşdür (Qrupa ötürmək şərti ilə). DEPA, Uniper, Shell (1-ci müqavilə), Axpo (iki müqavilə) və Bulgargaz QSM-ları üzrə başlanma tarixi 31 dekabr 2020-ci ildir. Qalan QSM-lər əsasında başlanma tarixləri (o cümlədən 2-ci Shell müqaviləsi) 1 aprel 2021-ci və 30 iyun 2021-ci il tarixləri arasında olmuşdur.

*Cənubi Qafqaz Boru Kəməri Şirkəti ilə nəqletmə razılaşması*

AQTŞ sonradan düzəliş edilmiş və yeni redaksiyada təqdim edilmiş Cənubi Qafqaz Boru Kəməri Şirkəti ("CQBKŞ") ilə 27 fevral 2003-cü il tarixli Qazın Nəql edilməsi haqqında Razılaşmanı ("QNR") imzalamışdır ("CQBKŞ QNR"). 17 dekabr 2013-cü il tarixindən qüvvəyə minən düzəlişlər Şah Dəniz Layihəsinin 2-ci Mərhələsinin həcmləri ilə bağlı əlavə nəqletmə xidmətlərini təmin etmək məqsədilə edilmişdir. 1 oktyabr 2006-cı il (başlanğıc) tarixindən etibarən, AQTŞ CQBKŞ bu müqaviləyə uyğun olaraq hesablanmış müəyyən tarifləri ödəməlidir. AQTŞ boru kəmərini doldurmaq və planlaşdırılmış istismar təzyiqini təmin etmək üçün CQBKŞ-ni tələb olunan təbii qazla və yanacaq qazı ilə təmənnasız təmin etməlidir. CQBKŞ QNR, təbii qazın nəql edilib edilməməsindən asılı olmayaraq, QNR-in müddətinin başa çatması və ya bitməsinə qədər hər müqavilə ili üçün AQTŞ-nin CQBKŞ-nə ödəməli olduğu Minimal Aylıq Ödənişi ("MAÖ") nəzərdə tutur.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 38. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

**AQTŞ-də iştirak payına aid olan öhdəliklər (davamı)**

*Çərçivə müqaviləsi*

Uzunmüddətli QSM-lərin yenilənməsinə və 2036-cı ildən sonra QNR həcmini AQTŞ-dən SOCAR-a ötürülməsinə aid olan yekun çərçivə müqaviləsi 19 oktyabr 2015-ci il tarixində imzalanmışdır və sonradan 28 sentyabr 2018-ci ildə düzəliş və əlavələr edilmişdir.

*Transanadolu Boru Kəməri qaz nəqletmə razılaşması (TANAP QNR)*

AQTŞ illik ehtiyat tutumu müqavilədə müəyyən edilməklə TANAP QNR-ni imzalamışdır. Başlanma tarixi 1 iyul 2020-ci il olmuşdur. Təbii qazın fiziki kommersiya çatdırmaları 31 dekabr 2020-ci ildə başlamışdır.

TANAP BOTAŞ QNR-in tərəfidir. Razılaşmaya uyğun olaraq hasilatın artımı dövründə illik ehtiyat gücü 1.9 mmkm (başlanğıc tarixində başlayan 12 aylıq dövr), 3.8 mmkm (növbəti 12 aylıq dövr) və başlanğıc tarixindən 24 ay sonra illik 5.7 mmkm təşkil edir. Başlanğıc tarixi 30 iyun 2018-ci il olmuşdur.

*Trans Adriatik Boru Kəməri qaz nəqletmə razılaşması (TABK QNR)*

AQTŞ və SOCAR illik ehtiyat tutumu müqavilədə müəyyən edilməklə TABK QNR-ni imzalamışdır. Əməliyyatların faktiki başlanma tarixi 15 noyabr 2020-ci il olmuşdur. Təbii qazın fiziki kommersiya çatdırmaları 31 dekabr 2020-ci ildən başlamışdır.

*Societa Nazionale Metanodotti QNR (SNAM QNR)*

AQTŞ SNAM QNR-nin tərəfidir, illik ehtiyat həcmi müqavilədə müəyyən edildiyi kimidir. Başlanğıc tarixi (habelə təbii qazın fiziki kommersiya çatdırmaları) 31 dekabr 2020-ci il olmuşdur.

*Bakı-Tbilisi-Ceyhan ("BTC Co") ilə alqı-satqı müqaviləsi*

BTC Co ilə imzalanmış razılaşma əsasında AQTŞ 2021-ci ildə və müqavilə başa çatanadək sonrakı illərdə 0.16 kmm (BTC-nin illik alış həcmini azaltmaq hüququ ilə) müqavilədə göstərilmiş düstur əsasında hesablanmış qiymətlə təmin etmək öhdəliyini daşıyır.

*TAP Əməliyyat Qaz satışları Razılaşması*

TAP Əməliyyat Qaz satışları Razılaşmasına ("TAP OGSA") uyğun olaraq AGSC 1 oktyabr 2021-ci llədək TAP nəqliyyat sisteminin əməliyyatları üçün tələb olunan 1,864,000 MVs qaz həcmlərini çatdırmalıdır.

**CQD ilə Təxirə salınmış alqı-satqı müqaviləsi**

CQD Upstream MMC və CQD Midstream MMC ilə bağlanan Təxirə Salınmış Alqı-Satqı müqaviləsinə ("TSASM") əsasən Qrup 2023-cü ilin martında Şah Dəniz HPBS, AQTŞ və CQBKŞ-dəki bütün iştirak paylarının satılmasına, satışdan əvvəl aşağıdakı şərtlərin yerinə yetirilməsi şərtilə, razılaşır:

- Avrobond müqavilələrinə əsasən SOCAR tərəfindən veksellərin tam və şərtsiz ödənilməsi və digər öhdəliklərin yerinə yetirilməsi; və
- Müqavilə şərtlərinə əsasən ödəniş məbləğinin tam həcmdə ödənilməsinin təsdiq edilməsi.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 38. Şərti öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Sair öhdəliklər

*Azəriqaz İstehsalat Birliyinin (Azəriqaz İB) öhdəliyi*

Azərbaycan Respublikasının Bakı şəhəri və ətraf rayonları və Respublikanın regionlarının sosial-iqtisadi inkişafına yönəldilmiş ölkə Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 saylı Sərəncamına uyğun olaraq, Azəriqaz İB sözügedən ərazilərin 2014-2018-ci illərdə qazlaşdırılması imkanlarının təkmilləşdirilməsi ilə bağlı müəyyən öhdəliklər daşıyır. 2014-2018 illəri əhatə edən birinci qazlaşdırma proqramını tamamladıqdan sonra şirkət qazlaşdırma prosesini yeni “Azərbaycan Respublikasının regionlarının 2019-2023-cü illər üçün sosial-iqtisadi inkişafı dövlət proqramı” çərçivəsində davam etdirir.

31 dekabr 2020-ci il tarixinə ölkədə qazlaşdırma 96.2 faiz tamamlanmışdır (31 dekabr 2019-cu il: 96.01 faiz). Rəhbərlik hesab edir ki, ölkədə qalan qazlaşdırma işləri ilə bağlı xərclərin maliyyələşdirilməsi Dövlət tərəfindən kapitala yatırımlar vasitəsilə davam etdiriləcək.

*Neftin daşınması üzrə öhdəliklər*

1 avqust 2002-ci il tarixində Qrup və AÇG HPBS-nin sair iştirakçıları (“İxracatçılar Qrupu”) BTC Co şirkəti ilə AÇG yatağında Məhsulların Nəqli haqqında Müqavilə (“AÇG MN”) bağlamışdır və 3 fevral 2004-cü il tarixində bu Müqaviləyə əlavələr edilmişdir. Bu Müqaviləyə əsasən İxracatçılar Qrupu hər bir iştirakçı tərəfindən Qərb İxrac Marşrutu ilə göndərilən hər hansı məhsul istisna olmaqla, AÇG yatağından bütün xam neftin BTC neft boru kəməri vasitəsilə daşınması üzrə öhdəlik götürmüşdür. Qrup BTC Co tam istehsal həcmi ilə işləyənədək xam neftin dəmir yolu vasitəsilə daşınmamasına razılıq vermişdir. AÇG MN-ə uyğun olaraq Qrup BTC-nin istehsal həcminin kifayət qədər olduğu halda, sair daşınma imkanlarından istifadə edilməməsinə dair razılıq vermişdir. BTC neft boru kəməri 2006-cı ilin may ayında istismara verilmişdir. Gündəlik istehsal həcmi 1,200,000 bareldən artıq olan BTC neft boru kəməri İxracatçılar Qrupunun əsas ixrac marşrutu kimi istifadə edilir. Məhsulların Nəqli haqqında Müqaviləyə uyğun olaraq, İxracatçılar Qrupu, Qrupun Nümayəndəsi, BTC-nin kreditorları və təminat üzrə zamini, eləcə də AÇG İxracatçılar Qrupunun müəyyən iştirakçılarının kreditorları və təminat üzrə zamini BTC tarifinin ödənişini neftin satışından gəlirlər üzrə birinci dərəcəli ödəniş olmasını təsdiqləmişlər.

*SOCAR Ukraynanın öhdəliyi*

31 dekabr 2020-ci il tarixinə Qrupun 185 AZN (3,073 milyon UAH) məbləğində mal-materialların alınması üzrə qısamüddətli müqavilə öhdəlikləri olmuşdur.

*STAR Emal zavoduna aid xam neft təchizatı haqqında müqavilə əsasında öhdəlik*

29 may 2014-cü il tarixində SOCAR və STAR Emal zavodu, STAR Emal zavoduna xam neftin satışı və çatdırılması haqqında Xam neftin Təchizatı haqqında müqavilə imzalamışlar. Müqaviləyə uyğun olaraq, SOCAR, müqavilənin başlanğıcından etibarən STAR Emal zavodunun xammal tələbini təmin etmək öhdəliyini daşıyır. Təchizat çatışmazlığı halında, SOCAR STAR Emal zavodu tərəfindən əsaslı olaraq çəkilmiş əlavə xərcləri ödəməlidir. Rəhbərlik Xam Neft Təchizatı haqqında Müqavilə ilə əlaqəli əlavə pul vəsaitləri axınının olmayacağını gözləyir.

### Azərbaycanda qaz satışları

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 dekabr 2020-ci il tarixli 513 nömrəli qərarına əsasən təsdiq olunmuş Dövlət Yanacaq-Enerji Balansına uyğun olaraq ixrac öhdəlikləri yerinə yetirildikdən sonra “Azneft” İB tərəfindən hasil edilən təbii qazın ümumi həcmləri dövlətə məxsus “Azərkontrakt” ASC-yə satılmalıdır.

## 39. Müəssisələrin birləşməsi, qeyri-nəzarət paylarının alınması, biznes təsisatı olmayan müəssisənin alınması, qudvil və qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər

### Qudvil və qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər

Müəssisələrin birləşməsi zamanı əldə edilmiş qudvil və qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər dəyərsizləşmə üzrə test məqsədləri üçün 31 dekabr 2020-ci və 2019-cu il tarixlərinə PVYV-yə aşağıdakı kimi aid edilmişdir:

| | SOCAR Trading | | SOCAR Energy Holding AG | | Petkim | | UBEP | | Sair | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2020** | **2019** | **2020** | **2019** | **2020** | **2019** | **2020** | **2019** | **2020** | **2019** |
| Qudvil | 106 | 106 | 135 | 122 | 42 | 56 | – | – | 30 | 33 |
| Ticarət adı | – | – | – | – | 17 | 20 | – | – | – | – |
| Lisenziya | – | – | – | – | – | – | 105 | 105 | – | – |

Qudvilin balans dəyərində hərəkət aşağıdakı kimi olmuşdur:

| | 2020 | 2019 |
|---|---|---|
| **1 yanvarda balans dəyəri** | **317** | **301** |
| Törəmə müəssisənin satınalınması | – | 21 |
| Məzənnə fərqi | (2) | (5) |
| Sair | (2) | – |
| **31 dekabrda balans dəyəri** | **313** | **317** |

Qudvilin 31 dekabr 2020-ci və 2019-cu il tarixlərinə balans dəyərinə müvafiq olaraq 4 AZN və 3 AZN məbləğində yığılmış qudvilin dəyərsizləşməsi daxildir.

### Petkim-in satınalınmasına aid qudvilin balans dəyərinin yoxlanılması

31 dekabr 2020-ci il tarixinə qudvilin balans dəyəri onun bərpa edilə bilən dəyəri ilə müqayisə edilərək dəyərsizləşmə üzrə yoxlanılmışdır. Bərpa edilə bilən dəyər Petkim və onun törəmə müəssisələrinin istifadə dəyərinin hesablamalarına əsaslanaraq 31 dekabr 2020-ci il tarixinə 1,710 AZN kimi müəyyən edilmişdir. Bu məqsədlə istifadə edilmiş vergidən əvvəl pul vəsaitlərinin hərəkətinin proqnozları rəhbərlik tərəfindən təsdiq edilmiş 10 illik müddəti əhatə edən biznes planlara əsaslanır. Rəhbərlik hesab edir ki, müvafiq pul vəsaitlərinin hərəkətinə dair təxminlər dəqiq və etibarlı proqnozları əks etdirir. 10 ildən artıq müddətə pul vəsaitlərinin hərəkətinə dair təxminlər ildə 3.0 faiz yekun artım dərəcəsi ilə ekstrapolyasiya edilir və sonra 8.0 faiz diskont dərəcəsi kimi istifadə edilmiş KOÇD-ı tətbiq etməklə xalis cari dəyərə diskont edilir. Aparılmış yoxlamaya görə dəyərsizləşmə müəyyən edilməmişdir. Qiymətləndirmə əməliyyatı KOÇD-yə və yekun artım faizinə yüksək dərəcədə həssasdır.

Əgər hesablama zamanı istifadə edilmiş təxmin edilən diskont dərəcəsi rəhbərliyin təxminlərindən 0.5 faiz çox / az olsaydı, istifadə dəyərinin məbləği, müvafiq olaraq, 172 AZN az / 210 AZN çox olardı.

Əgər hesablama zamanı istifadə edilmiş yekun artım dərəcəsi rəhbərliyin təxminlərindən 0.5 faiz çox / az olsaydı, istifadə dəyərinin məbləği, müvafiq olaraq, 154 AZN çox / 126 AZN az olardı.

Həssaslıq təhlili nəticəsində dəyərsizləşmə zərəri müəyyən edilməmişdir.

### SOCAR Energy Holdings AG-nın alınmasına aid olan qudvilin balans dəyərinin yoxlanılması

31 dekabr 2020-ci il tarixinə qudvilin balans dəyəri onun bərpa edilə bilən dəyəri ilə müqayisə edilərək dəyərsizləşmə üzrə yoxlanılmışdır. Bərpa edilə bilən dəyər SOCAR Energy Holdings AG və onun törəmə müəssisələrinin istifadə dəyərinin hesablamalarına əsaslanaraq 31 dekabr 2020-ci il tarixinə 991 AZN kimi müəyyən edilmişdir. Bu məqsədlə istifadə edilmiş vergidən əvvəl pul vəsaitlərinin hərəkətinin proqnozları rəhbərlik tərəfindən təsdiq edilmiş 5 illik müddəti əhatə edən biznes planlara əsaslanır.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 39. Müəssisələrin birləşməsi, qeyri-nəzarət paylarının alınması, biznes təsisatı olmayan müəssisənin alınması, qudvil və qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər (davamı)

**SOCAR Energy Holdings AG-nın alınmasına aid olan qudvilin balans dəyərinin yoxlanılması (davamı)**

Rəhbərlik hesab edir ki, müvafiq pul vəsaitlərinin hərəkətinə dair təxminlər dəqiq və etibarlı proqnozları əks etdirir. 5 ildən artıq müddətə pul vəsaitlərinin hərəkətinə dair təxminlər ildə 1.5 faiz yekun artım dərəcəsi ilə ekstrapolyasiya edilir və sonra 6 faiz diskont dərəcəsi kimi istifadə edilmiş KOÇD-ı tətbiq etməklə xalis cari dəyərə diskont edilir. Aparılmış yoxlamaya görə dəyərsizləşmə müəyyən edilməmişdir. Qiymətləndirmə əməliyyatı KOÇD-yə və yekun artım faizinə yüksək dərəcədə həssasdır.

Əgər hesablama zamanı istifadə edilmiş təxmin edilən diskont dərəcəsi rəhbərliyin təxminlərindən 1 faiz çox / az olsaydı, istifadə dəyərinin məbləği, müvafiq olaraq, 181 AZN az / 285 AZN çox olardı.

Əgər hesablama zamanı istifadə edilmiş yekun artım dərəcəsi rəhbərliyin təxminlərindən 0.25 faiz çox / az olsaydı, istifadə dəyərinin məbləği, müvafiq olaraq, 48 AZN çox / 42 AZN az olardı.

Həssaslıq təhlili nəticəsində dəyərsizləşmə zərəri müəyyən edilməmişdir.

**SOCAR Trading-in alınmasına aid olan qudvilin balans dəyərinin yoxlanılması**

31 dekabr 2020-ci il tarixinə qudvilin balans dəyəri onun bərpa edilə bilən dəyəri ilə müqayisə edilərək dəyərsizləşmə üzrə yoxlanılmışdır. Bərpa edilə bilən dəyər SOCAR Trading və onun törəmə müəssisələrinin istifadə dəyərinin hesablamalarına əsaslanaraq 31 dekabr 2020-ci il tarixinə 1,268 AZN kimi müəyyən edilmişdir. Bu məqsədlə istifadə edilmiş vergidən əvvəl pul vəsaitlərinin hərəkətinin proqnozları rəhbərlik tərəfindən təsdiq edilmiş 5 illik müddəti əhatə edən biznes planlara əsaslanır. Rəhbərlik hesab edir ki, müvafiq pul vəsaitlərinin hərəkətinə dair təxminlər dəqiq və etibarlı proqnozları əks etdirir. 5 ildən artıq müddətə pul vəsaitlərinin hərəkətinə dair təxminlər ildə 1 faiz yekun artım dərəcəsi ilə ekstrapolyasiya edilir və sonra 12 faiz diskont dərəcəsi kimi istifadə edilmiş KOÇD-ı tətbiq etməklə xalis cari dəyərə diskont edilir. Aparılmış yoxlamaya görə dəyərsizləşmə müəyyən edilməmişdir. Qiymətləndirmə əməliyyatı KOÇD-yə və yekun artım faizinə yüksək dərəcədə həssasdır.

Əgər hesablama zamanı istifadə edilmiş təxmin edilən diskont dərəcəsi rəhbərliyin təxminlərindən 0.25 faiz çox / az olsaydı, istifadə dəyərinin məbləği, müvafiq olaraq, 25 AZN az / 26 AZN çox olardı.

Əgər hesablama zamanı istifadə edilmiş yekun artım dərəcəsi rəhbərliyin təxminlərindən 0.25 faiz çox / az olsaydı, istifadə dəyərinin məbləği, müvafiq olaraq, 15 AZN çox / 15 AZN az olardı.

Həssaslıq təhlili nəticəsində dəyərsizləşmə zərəri müəyyən edilməmişdir.

**UBEP-lə bağlı lisenziyanın yoxlanılması**

UBEP-in lisenziyası Qrupa Ümid yatağından təbii qaz və kondensatı istehsal etmək və satmaq və Babək yatağını istismar etmək hüququnu verir. 31 dekabr 2020-ci il tarixinə lisenziyanın balans dəyəri onun bərpa edilə bilən dəyəri ilə müqayisə edilərək dəyərsizləşmə üzrə yoxlanılmışdır. 31 dekabr 2020-ci il tarixinə bərpa edilə bilən dəyər UBEP-in istifadə dəyərinin hesablamalarına əsaslanaraq 825 AZN məbləğində müəyyən edilmişdir. Bu məqsəd üçün istifadə edilən pul vəsaitlərinin hərəkətinin proqnozları 28 il olan HPBS müddətini əhatə edən maliyyə proqnozuna əsaslanır. Aparılmış yoxlamaya görə dəyərsizləşmə müəyyən edilməmişdir.

Qiymətləndirmə əməliyyatı Qrup tərəfindən proqnoz dövrü ərzində 13.60 faiz dərəcəsində nəzərə alınmış KÖÇD-dəki dəyişikliklərə həssasdır.

Əgər hesablama zamanı istifadə edilmiş KÖÇD rəhbərliyin təxminlərindən 1 faiz çox / az olsaydı, istifadə dəyəri, müvafiq olaraq, 128 AZN az / 145 AZN çox olardı. Həssaslıq təhlili nəticəsində dəyərsizləşmə müəyyən edilməmişdir.

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 39. Müəssisələrin birləşməsi, qeyri-nəzarət paylarının alınması, biznes təsisatı olmayan müəssisənin alınması, qudvil və qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər (davamı)

**Qeyri-nəzarət payların alınması**

21 yanvar 2020-ci il tarixində Qrup SOCAR Energy Georgia MMC-də 56 AZN (satınalma tarixinə qüvvədə olan məzənnə ilə 33 milyon ABŞ dolları) məbləğinə 16.3 faizlik pay almaq üçün payın alınması haqqında razılaşma imzalamışdır.

Energy Georgia MMC-nin xalis öhdəliklərinin konsolidasiya edilmiş balans dəyərinin 16.3 faizi (26 AZN) və ödəniləcək vəsait (56 AZN) arasındakı fərq konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabatda 82 AZN məbləğində törəmə müəssisədə payların alınması üzrə zərər kimi tanınmışdır (Qeyd 28). Nəticədə, Qrupun Energy Georgia MMC-də nəzarət payı 75.5 faizdən 91.8 faizədək artmışdır.

**2019-cu ildə satınalmalar**

17 iyun 2019-cu il tarixində Qrup Bursagaz, Kayserigaz, EWE Enerji, Enervis, Milenicom və Kay Solar Projectsdə nəzarət payını əldə etmişdir. Qrup bu satınalmanı Türkiyənin təbii qazın paylanması, enerji satışı, günəş enerjisi və telekommunikasiya sahələrində genişlənmək imkanı hesab edir. Əldə edilən layihələrin satınalma tarixində ədalətli dəyərləri aşağıda təqdim edilir:

| **Bursagaz** | **Qeyd** | **Satınalınma üzrə tanınmış ədalətli dəyər** |
|---|---|---|
| **Aktivlər** | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 64 |
| Ticarət və sair debitor borcları | | 9 |
| Sair cari aktivlər | | 7 |
| Əmlak, tikili və avadanlıqlar | | 117 |
| Qeyri-maddi aktivlər, qudvildən başqa | 16 | 228 |
| İstifadə hüququ olan aktiv | | 1 |
| **Cəmi aktivlər, ədalətli dəyərlə** | | **426** |
| **Öhdəliklər** | | |
| Ticarət və sair kreditor borcları | | 147 |
| Sair cari öhdəliklər | | 1 |
| Təxirə salınmış vergi öhdəlikləri | | 28 |
| Uzunmüddətli icarə öhdəliyi | | 1 |
| Sair uzunmüddətli öhdəliklər | | 48 |
| **Cəmi öhdəliklər, ədalətli dəyərlə** | | **225** |
| **Cəmi müəyyən edilə bilən aktivlər, ədalətli dəyərlə** | | **201** |
| Qeyri-nəzarət payı | | (44) |
| Əlverişli alış üzrə tanınmış gəlir | 31 | (5) |
| **Alış üçün köçürülmüş vəsait** | | **(152)** |
| **Satınalma üzrə pul vəsaitlərinin təhlili** | | |
| Törəmə müəssisə ilə əldə edilmiş xalis pul vəsaitləri | | 64 |
| Ödənilmiş pul vəsaitləri | | (152) |
| **Satınalma üzrə xalis pul vəsaitləri** | | **(88)** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 39. Müəssisələrin birləşməsi, qeyri-nəzarət paylarının alınması, biznes təsisatı olmayan müəssisənin alınması, qudvil və qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər (davamı)

### 2019-cu ildə satınalmalar (davamı)

Satınalma tarixindən etibarən Bursagaz Qrupun davam edən əməliyyatlarından 146 AZN məbləğində gəlirlər gətirmişdir. Satınalma 2019-cu ilin əvvəlində baş vermiş olsaydı, Qrupun 2019-cu il üzrə davam edən əməliyyatlardan əldə etdiyi gəlirlər 83,943 AZN, 2019-cu il üzrə davam edən əməliyyatlardan vergi tutulanadək mənfəət isə 1,344 AZN olardı.

| **Kayserigaz** | **Qeyd** | **Satınalınma üzrə tanınmış ədalətli dəyər** |
|---|---|---|
| **Aktivlər** | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 18 |
| Ticarət və sair debitor borcları | | 15 |
| Sair cari aktivlər | | 6 |
| Əmlak, tikili və avadanlıqlar | | 94 |
| Qeyri-maddi aktivlər, qudvildən başqa | 16 | 217 |
| İstifadə hüququ olan aktiv | | 1 |
| **Cəmi aktivlər, ədalətli dəyərlə** | | **351** |
| **Öhdəliklər** | | |
| Ticarət və sair kreditor borcları | | 90 |
| Təxirə salınmış vergi öhdəlikləri | | 32 |
| Uzunmüddətli icarə öhdəliyi | | 1 |
| Sair uzunmüddətli öhdəliklər | | 38 |
| **Cəmi öhdəliklər, ədalətli dəyərlə** | | **161** |
| **Cəmi müəyyən edilə bilən aktivlər, ədalətli dəyərlə** | | **190** |
| Qeyri-nəzarət payı | | (36) |
| Əlverişli alış üzrə tanınmış gəlir | 31 | (9) |
| **Alış üçün köçürülmüş vəsait** | | **(145)** |
| **Satınalma üzrə pul vəsaitlərinin təhlili** | | |
| Törəmə müəssisə ilə əldə edilmiş xalis pul vəsaitləri | | 18 |
| Ödənilmiş pul vəsaitləri | | (145) |
| **Satınalma üzrə xalis pul vəsaitləri** | | **(127)** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

**39. Müəssisələrin birləşməsi, qeyri-nəzarət paylarının alınması, biznes təsisatı olmayan müəssisənin alınması, qudvil və qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər (davamı)**

**2019-cu ildə satınalmalar (davamı)**

Satınalma tarixindən etibarən Kayserigaz Qrupun davam edən əməliyyatlarından 91 AZN məbləğində gəlirlər gətirmişdir. Satınalma 2019-cu ilin əvvəlində baş vermiş olsaydı, Qrupun 2019-cu il üzrə davam edən əməliyyatlardan əldə etdiyi gəlirlər 83,861 AZN, 2019-cu il üzrə davam edən əməliyyatlardan vergi tutulanadək mənfəət isə 1,336 AZN olardı.

| **EWE Enerji** | **Qeyd** | **Satınalınma üzrə tanınmış ədalətli dəyər** |
|---|---|---|
| **Aktivlər** | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 1 |
| Ticarət və sair debitor borcları | | 29 |
| Sair cari aktivlər | | 3 |
| Təxirə salınmış vergi aktivi | | 5 |
| **Cəmi aktivlər, ədalətli dəyərlə** | | **38** |
| **Öhdəliklər** | | |
| Ticarət və sair kreditor borcları | | 51 |
| Sair uzunmüddətli öhdəliklər | | 1 |
| **Cəmi öhdəliklər, ədalətli dəyərlə** | | **52** |
| **Cəmi müəyyən edilə bilən öhdəliklər, ədalətli dəyərlə** | | **(14)** |
| Qeyri-nəzarət payı | | – |
| Satınalma üzrə əmələ gələn qudvil | | 14 |
| **Alış üçün köçürülmüş vəsait** | | **–** |
| **Satınalma üzrə pul vəsaitlərinin təhlili** | | |
| Törəmə müəssisə ilə əldə edilmiş xalis pul vəsaitləri | | 1 |
| Ödənilmiş pul vəsaitləri | | – |
| **Satınalma üzrə xalis pul vəsaitləri** | | **1** |

Satınalma tarixindən etibarən EWE Enerji Qrupun davam edən əməliyyatlarından 364 AZN məbləğində gəlirlər gətirmişdir. Satınalma 2019-cu ilin əvvəlində baş vermiş olsaydı, Qrupun 2019-cu il üzrə davam edən əməliyyatlardan əldə etdiyi gəlirlər 83,875 AZN, 2019-cu il üzrə davam edən əməliyyatlardan vergi tutulanadək mənfəət isə 1,322 AZN olardı.

| **Enervis** | **Qeyd** | **Satınalınma üzrə tanınmış ədalətli dəyər** |
|---|---|---|
| **Aktivlər** | | |
| Ticarət və sair debitor borcları | | 2 |
| **Cəmi aktivlər, ədalətli dəyərlə** | | **2** |
| **Öhdəliklər** | | |
| Sair uzunmüddətli öhdəliklər | | 1 |
| **Cəmi öhdəliklər, ədalətli dəyərlə** | | **1** |
| **Cəmi müəyyən edilə bilən aktivlər, ədalətli dəyərlə** | | **1** |
| Qeyri-nəzarət payı | | – |
| Ticarət sövdələşməsi üzrə tanınmış gəlir | 31 | (1) |
| **Alış üçün köçürülmüş vəsait** | | **–** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 39. Müəssisələrin birləşməsi, qeyri-nəzarət paylarının alınması, biznes təsisatı olmayan müəssisənin alınması, qudvil və qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər (davamı)

**2019-cu ildə satınalmalar (davamı)**

| **Milenicom** | **Qeyd** | **Satınalınma üzrə tanınmış ədalətli dəyər** |
|---|---|---|
| **Aktivlər** | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | | 2 |
| Ticarət və sair debitor borcları | | 19 |
| Sair cari aktivlər | | 1 |
| Əmlak, tikili və avadanlıqlar | | 2 |
| Qeyri-maddi aktivlər, qudvildən başqa | 16 | 8 |
| **Cəmi aktivlər, ədalətli dəyərlə** | | **32** |
| **Öhdəliklər** | | |
| Ticarət və sair kreditor borcları | | 24 |
| Uzunmüddətli icarə öhdəliyi | | 1 |
| Sair uzunmüddətli öhdəliklər | | 3 |
| **Cəmi öhdəliklər, ədalətli dəyərlə** | | **28** |
| **Cəmi müəyyən edilə bilən aktivlər, ədalətli dəyərlə** | | **4** |
| Qeyri-nəzarət payı | | – |
| Sövdələşmə üzrə tanınmış gəlir | 31 | (4) |
| **Alış üçün köçürülmüş vəsait** | | **–** |
| **Satınalma üzrə pul vəsaitlərinin təhlili** | | |
| Törəmə müəssisə ilə əldə edilmiş xalis pul vəsaitləri | | 2 |
| Ödənilmiş pul vəsaitləri | | – |
| **Satınalma üzrə xalis pul vəsaitləri** | | **2** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 39. Müəssisələrin birləşməsi, qeyri-nəzarət paylarının alınması, biznes təsisatı olmayan müəssisənin alınması, qudvil və qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər (davamı)

**2019-cu ildə satınalmalar (davamı)**

Satınalma tarixindən etibarən Milenicom Qrupun davam edən əməliyyatlarından 28 AZN məbləğində gəlirlər gətirmişdir. Satınalma 2019-cu ilin əvvəlində baş vermiş olsaydı, Qrupun 2019-cu il üzrə davam edən əməliyyatlardan əldə etdiyi gəlirlər 83,776 AZN, 2019-cu il üzrə davam edən əməliyyatlardan vergi tutulanadək mənfəət isə 1,326 AZN olardı.

| **Kay Solar Projects** | **Qeyd** | **Satınalınma üzrə tanınmış ədalətli dəyər** |
|---|---|---|
| **Aktivlər** | | |
| Ticarət və sair debitor borcları | | 1 |
| Əmlak, tikili və avadanlıqlar | | 3 |
| Qeyri-maddi aktivlər, qudvildən başqa | 16 | 1 |
| **Cəmi aktivlər, ədalətli dəyərlə** | | **5** |
| **Öhdəliklər** | | |
| Ticarət və sair kreditor borcları | | 1 |
| Sair uzunmüddətli öhdəliklər | | 4 |
| **Cəmi öhdəliklər, ədalətli dəyərlə** | | **5** |
| **Cəmi müəyyən edilə bilən aktivlər, ədalətli dəyərlə** | | **–** |
| Qeyri-nəzarət payı | | – |
| Satınalma üzrə əmələ gələn qudvil | | 3 |
| **Alış üçün köçürülmüş vəsait** | | **(3)** |
| **Satınalma üzrə pul vəsaitlərinin təhlili** | | |
| Törəmə müəssisə ilə əldə edilmiş xalis pul vəsaitləri | | – |
| Ödənilmiş pul vəsaitləri | | (3) |
| **Satınalma üzrə xalis pul vəsaitləri** | | **(3)** |

Tanınmış qudvil, ilk növbədə EWE Turkey Holding A.Ş-nin və Kay Solar Projects Qrupun aktivləri və fəaliyyətlərinin Qrupun aktiv və fəaliyyətləri ilə birləşdirilməsindən gözlənilən sinerji və sair faydalara aiddir. Qudvil mənfəət vergisi məqsədləri üçün gəlirdən çıxılmır.

## 40. Mühüm qeyri-nəzarət payı olan törəmə müəssisələr

Mühüm qeyri-nəzarət payı olan törəmə müəssisələr üzrə maliyyə məlumatları aşağıda təqdim edilir:

Qeyri-nəzarət payına düşən səhmlərin payı:

| **Adı** | **Təsis edildiyi ölkə** | **Fəaliyyət göstərdiyi ölkə** | **2020** | **2019** |
|---|---|---|---|---|
| Petkim | Türkiyə | Türkiyə | 49% | 49% |
| SOCAR Polymer LLC | Azərbaycan | Azərbaycan | 43% | 43% |

Əhəmiyyətli qeyri-nəzarət paylarının yığılmış qalıqları:

| **Adı** | **2020** | **2019** |
|---|---|---|
| Petkim | 824 | 912 |
| SOCAR Polymer LLC | 132 | 180 |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 40. Mühüm qeyri-nəzarət payı olan törəmə müəssisələr (davamı)

Əhəmiyyətli qeyri-nəzarət paylara bölüşdürülmüş mənfəət/(zərər):

| Adı | 2020 | 2019 |
|---|---|---|
| Petkim | 100 | 96 |
| SOCAR Polymer LLC | (48) | (37) |

Bu törəmə müəssisələrin ümumi maliyyə məlumatı aşağıda göstərilir. Bu məlumat müəssisələr arası eliminasiyalardan əvvəlki məlumatlara əsaslanır.

2020-ci il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında ümumi məlumat:

| | Petkim | SOCAR Polymer LLC |
|---|---|---|
| Gəlirlər | 2,952 | 200 |
| Satışların maya dəyəri | (2,505) | (171) |
| Ümumi və inzibati xərclər | (85) | (36) |
| Paylaşdırma xərcləri | (33) | (14) |
| Sair əməliyyat gəliri | 16 | 5 |
| Sair əməliyyat xərci | (24) | (29) |
| Effektiv faiz metodunu istifadə etməklə hesablanmış faiz gəlirləri | 38 | − |
| Maliyyə xərcləri | (113) | (58) |
| Məzənnə fərqindən gəlir | 3 | − |
| **Vergidən əvvəlki mənfəət/(zərər)** | **249** | **(103)** |
| Mənfəət vergisi xərci | (44) | (9) |
| **Davam edən əməliyyatlardan il üzrə mənfəət/(zərər)** | **205** | **(112)** |
| Sonrakı dövrlərdə mənfəət və ya zərərə yenidən təsnif ediləcək sair məcmu zərər | (384) | − |
| **Cəmi məcmu zərər** | **(179)** | **(112)** |
| Qeyri-nəzarət paylarına aiddir | (88) | (48) |

2019-cu il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında ümumi məlumat:

| | Petkim | SOCAR Polymer LLC |
|---|---|---|
| Gəlirlər | 3,495 | 52 |
| Satışların maya dəyəri | (3,043) | (36) |
| Ümumi və inzibati xərclər | (87) | (27) |
| Paylaşdırma xərcləri | (32) | (8) |
| Sair əməliyyat gəliri | 111 | − |
| Sair əməliyyat xərci | (104) | (14) |
| Effektiv faiz metodunu istifadə etməklə hesablanmış faiz gəlirləri | 39 | 2 |
| Maliyyə xərcləri | (133) | (19) |
| Məzənnə fərqindən gəlir | (22) | − |
| **Vergidən əvvəlki mənfəət/(zərər)** | **224** | **(50)** |
| Mənfəət vergisi xərci | (28) | (36) |
| **Davam edən əməliyyatlardan il üzrə mənfəət/(zərər)** | **196** | **(86)** |
| Sonrakı dövrlərdə mənfəət və ya zərərə yenidən təsnif ediləcək sair məcmu zərər | (229) | − |
| **Cəmi məcmu (zərər)/gəlir** | **(33)** | **(86)** |
| Qeyri-nəzarət paylarına aiddir | (16) | (37) |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 40. Mühüm qeyri-nəzarət payı olan törəmə müəssisələr (davamı)

31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında ümumi məlumat:

| | **Petkim** | **SOCAR Polymer LLC** |
|---|---|---|
| **Cari aktivlər** | **2,738** | **167** |
| O cümlədən: | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 1,268 | 13 |
| Ticarət və sair debitor borcları | 397 | 27 |
| Mal-material ehtiyatları | 225 | 50 |
| Sair cari aktivlər | 848 | 77 |
| **Uzunmüddətli aktivlər** | **1,836** | **1,297** |
| O cümlədən: | | |
| Əmlak, tikili və avadanlıqlar | 1,542 | 1,218 |
| Qeyri-maddi aktivlər | 162 | 25 |
| Sair uzunmüddətli aktivlər | 132 | 54 |
| **Cari öhdəliklər** | **(1,367)** | **(60)** |
| O cümlədən: | | |
| Qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | (538) | – |
| İcarə öhdəliyi, cari | (17) | – |
| Ticarət və sair kreditor borcları | (812) | (60) |
| **Uzunmüddətli öhdəliklər** | **(1,527)** | **(1,048)** |
| O cümlədən: | | |
| Uzunmüddətli borc öhdəlikləri | (1,319) | (1,004) |
| Təxirə salınmış gəlir | (84) | – |
| Öhdəliklər və xərclər üzrə sair ehtiyatlar | (41) | – |
| Təxirə salınmış vergi öhdəlikləri | (83) | (42) |
| İcarə öhdəliyi, uzunmüddətli | – | (2) |
| **Cari kapital** | **1,680** | **356** |
| **Kapital aiddir** | | |
| Əsas şirkətin kapital sahiblərinə | 856 | 224 |
| Qeyri-nəzarət payların sahiblərinə | 824 | 132 |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 40. Mühüm qeyri-nəzarət payı olan törəmə müəssisələr (davamı)

31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyəti haqqında ümumi məlumat:

| | Petkim | SOCAR Polymer LLC |
|---|---|---|
| **Cari aktivlər** | **2,732** | **112** |
| O cümlədən: | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 1,154 | 1 |
| Ticarət və sair debitor borcları | 446 | 55 |
| Mal-material ehtiyatları | 270 | 50 |
| Sair cari aktivlər | 862 | 6 |
| **Uzunmüddətli aktivlər** | **2,071** | **1,367** |
| O cümlədən: | | |
| Əmlak, tikili və avadanlıqlar | 1,715 | 1,350 |
| Qeyri-maddi aktivlər | 204 | 10 |
| Sair uzunmüddətli aktivlər | 152 | 7 |
| **Cari öhdəliklər** | **(1,467)** | **(308)** |
| O cümlədən: | | |
| Qısamüddətli borc öhdəlikləri və uzunmüddətli borc öhdəliklərinin cari hissəsi | (708) | (101) |
| İcarə öhdəliyi, cari | (14) | – |
| Ticarət və sair kreditor borcları | (745) | (207) |
| **Uzunmüddətli öhdəliklər** | **(1,475)** | **(705)** |
| O cümlədən: | | |
| Uzunmüddətli borc öhdəlikləri | (1,282) | (666) |
| Təxirə salınmış gəlir | (56) | – |
| Öhdəliklər və xərclər üzrə sair ehtiyatlar | (41) | – |
| Təxirə salınmış vergi öhdəlikləri | (96) | (33) |
| İcarə öhdəliyi, uzunmüddətli | – | (6) |
| **Cari kapital** | **1,861** | **466** |
| **Kapital aiddir:** | | |
| Əsas şirkətin kapital sahiblərinə | 949 | 286 |
| Qeyri-nəzarət payların sahiblərinə | 912 | 180 |

31 dekabr 2020-ci il tarixinə pul vəsaitlərinin hərəkəti haqqında ümumi məlumat:

| | Petkim | SOCAR Polymer LLC |
|---|---|---|
| Əməliyyat | 620 | 36 |
| İnvestisiya | (191) | (57) |
| Maliyyələşdirmə | 4 | 33 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzrə xalis məzənnə fərqi | (319) | – |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım/(azalma)** | **114** | **12** |

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər milyon Azərbaycan Manatı ilə ifadə edilir)*

## 40. Mühüm qeyri-nəzarət payı olan törəmə müəssisələr (davamı)

31 dekabr 2019-cu il tarixinə pul vəsaitlərinin hərəkəti haqqında ümumi məlumat:

| | **Petkim** | **SOCAR Polymer LLC** |
|---|---|---|
| Əməliyyat | 414 | 40 |
| İnvestisiya | (187) | (10) |
| Maliyyələşdirmə | 53 | (34) |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzrə məcmu məzənnə fərqi | (93) | – |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım/(azalma)** | **187** | **(4)** |

## 41. Hesabat tarixindən sonra baş vermiş hadisələr

### SOCAR Rusiya

Hesabat tarixindən sonrakı dövr ərzində Qrup SOCAR Russia Investment Ltd-dəki imtiyazlı səhmlərini 26 AZN (15 milyon ABŞ dolları) vəsait qarşılığında üçüncü tərəfə satmışdır.

### Yeni kreditlər

Hesabat tarixindən sonrakı dövr ərzində Qrup beynəlxalq banklardan 1,082 AZN məbləğində yeni uzunmüddətli və qısamüddətli kreditlər əldə etmişdir.

### Kreditin qaytarılması

Hesabat tarixindən sonrakı dövr ərzində Qrup bir neçə yerli və beynəlxalq banka 1,562 AZN məbləğində kreditləri qaytarmışdır.